S O N A X Ə Y A L

ALTMIŞ YAŞLI XƏZİNƏDƏN ALTMIŞ KİTAB

BAKI – 2010

Kitab Əlyazmalar İnstitutunun
60 illik yubileyinə ithaf olunur

Redaktor:

VÜSALƏ MUSALI
filologiya üzrə fəlsəfə doktoru

Sona XƏYAL. Altmış yaşlı xəzinədən altmış kitab. Bakı – "MBM" – 2011, 128 səh.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin "İRS" komissiyasının sədri, 70-ə yaxın kitabın (təlif və tərtib) müəllifi Sona Xəyalın "Altmış yaşlı xəzinədən altmış kitab" adlı növbəti kitabı məhz Əlyazmalar İnstitutunun 60 illik yubileyinə ithaf olunmuşdur. Kitaba daxil edilmiş 40 məqalədə oxucular institutun nəşri olan 60 kitab haqqında məlumat ala bilərlər.

ISBN 978-9952-29-048-5

© S.Xəyal, 2011
Bakı, "MBM"

60 YAŞLI XƏZİNƏ

1950-ci ildə Əlyazmalar Fondu kimi yaradılan, 1986-cı ildən elmi-tədqiqat institutu kimi fəaliyyət göstərən, 1996-cı ildən dahi şairimiz Məhəmməd Füzulinin adını daşıyan Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu bu gün dünyada ən dəyərli Şərq yazılı abidələri toplanmış mərkəzlərdən biridir. İnstitutun kolleksiyasında saxlanılan 60 minə yaxın materialdan 12 mini kitabdır ki, bu kitablarda 40 mindən artıq əsərin əlyazması var. İnstitutda bir sıra görkəmli şəxsiyyətlərin arxiv materialları, tarixi arxeoqrafik sənədlər, əski çap kitabları, daşbasma kitablar, əski mətbuat orqanları, fotosurətlər, kserosurətlər, mikrofilmlər, eyni zamanda müxtəlif sahələrə aid müasir klitablar da saxlanılır. İnstitutun gigiyena və bərpa şöbəsi saxlanılan materialların lazımi qaydada qorunmasını təmin edir. Materialların kataloqlaşdırılması və sistemləşdirilməsi, nəşrə hazırlanan kitabların çap olunması daim ön plandadır. Burada türk əlyazmaları, ərəb əlyazmaları, fars əlyazmaları, arxivlər, Azərbaycan kitabı, tərcümə və informasiya, kataloqlaşdırma, redaktə və nəşr, eyni zamanda kitabların bərpası və gigiyenası şöbələri fəaliyyət göstərir ki, bu şöbələrdə 8 elmlər doktoru, 20-dən artıq elmlər namizədi və xeyli tədqiqatçı gənc çalışır.

* * *

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna gəlməkdə məqsədim Bakı-Abşeron ədəbi mühütündə yaşayıb-yaradan, sovet dönəmində ədəbi irsi arxivlərə atılan, unudulan şairləri üzə çıxarmaq idi. On yeddi il 7 saylı Birləşmiş Şəhər Xəstəxanasında çalışdıqdan sonra, yenidən ədəbiyyat təhsili almağım mənim bu aləmə daha çox bağlanmağıma kömək etdi. İlkin sırada XIX əsrdə Bakı ədəbi mühütündə, ümumiyyətlə, Qafqazda ən güclü şair kimi tanınan Mirzə Əbdülxalıq Yusifin ədəbi irsini araşdırdım. Namizədlik dissertasiyasının mövzusu da elə Yusifin həyat və yaradıcılığı oldu. Üç illik plan işimi yerinə yetirərkən Yusifin şeirləri ilə birlikdə digər bakılı şairlərin əsərlərini də topladım. Bir-birinin ardınca Yusifin, Səfanın, Qüdsinin, Cənnətinin, Pərişanın, Səməd Mənsurun, Müznibin, Əmin Abidin əsərləri nəşrə hazırlanıb oxuculara təqdim olundu. Eyni zamanda "Mirzə Əbdülxalıq Yusif (həyat və yaradıcılığı)", "Əlli yaşlı xəzinədən əlli məqalə", "Mirzə Əliəkbər Sabirə yeni nəzər", "Əliabbas Müznib Bakı və bakılı şairlər haqqında", "Maştağa ədəbi mühütü və Mir Cəlal" adlı kitablarım çap edildi. Artıq Dərviş Nidainin "Mə2nafeünnas" əsəri və oxucuların Əlyazmalar İnstitutunun nəşri olan altmış kitab haqqında məlumat alacaqları "Altmış yaşlı xəzinədən altmış kitab" nəşrə hazırdır. Sonuncu kitab institutumuzun 60 illik yubileyinə hədiyyədir...

* * *

60 yaşlı xəzinədə işlədiyim on beş ildə kimləri tanımışam, kimlərdən öyrənmişəm? Bu zaman kəsiyində kimləri itirib institut? Hacı Mail, Şamil Cəmşidov, Cənnət Nağıyeva, hətta yaşıdımız olan qızlarımız... Allah hamısına rəhmət eləsin! Bu gün bizimlə çiyin-çiyinə işləyən həmkarlarımız... Ömrünü elm yolunda sərf edən insanlar...

Həmişə mənə elə gəlir ki, bizim institutun işçiləri daha yaxşıdır, daha mehribandır. Hamı bir-birinə kömək etmək istəyir, dərdinə, sevincinə şərik olur. Hər dəfə bir əməkdaşımızın kitabı işıq üzü görəndə hamımız sevinirik. Bəlkə elə çap olunan kitablar haqqında resenziya yazmaq qərarım da elə bu sevincdən doğur. Vaxt imkan versə idi, yəqin ki, institutun nəşri olan bütün kitablar haqqında yazardım. İstitutumuzda haqqında danışmaq istədiyim elə adamlar da vardır ki, onların kitabları çap olunmayıb, amma bir çox kitabların çapında onların da əməyi var. Bəzən kadrarxası işçilərin zəhməti daha çox olur. Bizim oxu zalının işçilərinin də bizim uğurlarımızda öz payı vardır. Ən çox zəhmət verdiyim, ağır kitab bağlamalarını oxuculara daşıyan, işçilərlə mehriban ana-bacı kimi rəftar edən, yorulanda hətta onlara çay da təklif edən Ruhəngiz xanımın əziyyətlərini necə unutmaq olar? Hal-hazırda təqaüddə olan Ümmügülsüm xanımın xoş rəftarı, güclü mütaliəçi kimi hər kitabı oxuyub, bizə də lazımi məlumatları çatdırması indi də yadımızdadır.

İstitutun xəzinədarı, xəzinə işçiləri Sada, Gülə, Lora xanım, Zahidə xanım, kitabların bərpası ilə məşğul olan bioloqlar və bir sıra texniki işçilərin də əziyyətini qeyd etmək lazımdır.

İnstitutumuzda hamının xətrini istədiyi daha üç adam haqqında söz açmaq istəyirəm. Hamının xətrini əziz tutduğu, hörmət bəslədiyi, hamının işinə yarayan, təsərrüfat işləri üzrə direktor müavini Həmid müəllimi institutda sevməyən yoxdur. Eləcə də ağac üzərində oyma sənətinin ləyaqətli davamçısı olan, onu bu gün də yaşadan, haqqqında onlarla məqalə yazılan, dəfələrlə respublikada və xaricdə sərgiləri təşkil olunan Seyfəddin müəllimi kim sevmir ki? O Seyfəddin müəllim ki, uzun illər institutda əlyazmaların foto-

larını çəkib, eyni zamanda konfransları, yubiley tədbirlərini, xarici qonaqlarla görüşləri çəkdiyi fotolarda əbədiləşdirib, hətta öz hesabına şəkilləri çıxarıb bizə hədiyyə edib. Bir də var bizim Müzafəddin müəllim. Respublikamızda ən gözəl xəttat kimi tanınan, ağsaçlı, nurani çöhrəli, sakit, təmkinli Müzafəddin müəllim. İnstitutda çap olunan bir sıra kitablarda xəttatlıq işlərini görən, ərəb əlifbası ilə gedən yazıları yazan sənətkar. O mənim tanıdığım ilk xəttatdır. Hacı Mailin nəşrə hazırladığı Füzuli Divanının elmi-tənqidi mətnini bütövlükdə əllə o yazmışdı. Nardaran piri bərpa olunarkən, minarə üzərindəki yazıları da o yazmışdı. Məndə isə ondan yadigar olan gözəl bir əl işi var. Hacı Mailin "Divandan seçmələr"ini çap etdirib, ona da bir kitab hədiyyə etmişdim. Müzafəddin müəllim isə hacının mənə yazdığı qəzəllərdən birini əski əlifbada gözəl xətt ilə ornamentli bir kağıza yazıb mənə bağışlamışdı.

Bizim Əlyazmalar İnstitutunun bütün əməkdaşları işində məsuliyyətli, peşəsini sevəndir. Onların hər biri haqqında ayrıca bəhs açmaq olar. Mən bütün əməkdaşlarımızı 60 illik yubiley münasibəti ilə səmimi qəllbdən təbrik edir, onlara yeni-yeni uğurlar arzulayıram.

“KİTABLARI QORUYAQ”

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunda qorunub saxlanılan əlyazmaların nəşrə hazırlanması, kitabların çap olunub oxuculara çatdırılması institut əməkdaşlarının ümdə vəzifəsidir. Hər il institutda onlarla kitab işıq üzü görür. Bu kitabları dövri mətbuat səhifələrində təqdim etmək də mənim üçün bir növ vəzifə borcuna çevrilib. İnstitutumuzun gördüyü işlərlə fəxr edən bir əməkdaş kimi bu işi həmişə həvəslə görürəm. Qədim əlyazma kitabları, klassik ədəbiyyatımızla bağlı əsərləri təqdim etmək, xalqın ziyalılarının, habelə adi vətəndaşların nadir incilərlə tanışlığına imkan yaratmaq lazım gəlir. Axı, bizim institutda nəşrə hazırlanan kitablar hələ ki, çox az tirajla çap olunur...

Bu dəfə oxuculara həmişəkindən fərqli bir kitab təqdim etmək istəyirəm. Bu kitab kitablar haqqındadır. Daha doğrusu, kitabların saxlanması, qorunması, əlyazma kitablarının bərpası, eyni zamanda görülən profilaktik tədbirlər haqqındadır. Əlyazmalar İnstitutunun gigiyena və kitabların bərpası şöbəsinin müdürü, biologiya elmləri namizədi Adil Sadıqovun bütün bu məsələləri əhatə edən kitabı “Kitabları qoruyaq” adlanır. Kitabın redaktoru filologiya elmləri doktoru Möhsün Nağısoyludur.

Girişdə müəllif mədəmiyyətimizin bir hissəsi olan əlyazma kitabları haqqında bir neçə söz deyib kitabdakı məramını açıqlayır. “Kitabların saxlanma rejimi” adlı yazıda saxlandığı mühütün fiziki, kimyəvi, bioloji faktorlarının kitablara

təsirini qeyd edən müəllif işığın, günəş şüalarının, tozun, temperaturun, rütubətin, müxtəlif qaz qarışıqlarının və s. təsirindən kitabların davamlılığının zəiflədiyini, cildlərin rənginin dəyişdiyini, həşəratların inkişafı üçün şərait yarandığını bildirir. O göstərir ki, kitabların saxlanması üçün temperatur 18±2 dərəcə, nisbi rütubət 55±5% olmalı və bu cihazlar vasitəsilə yoxlanmalı, sabit saxlanmalıdır.

Kitabın "Kitab və mikroorqanizmlər" bölümündə kitab xəstəliklərindən bəhs edilir. Kağız, karton, dəri, yapışqan, sap və s. materiallardan təşkil olunan kitabın bakteriyaların, göbələklərin qidasına çevrilməsi, onun tədricən məhvinə səbəb ola bilir. Rütubət çox olduqda, çürümə bakteriyaları üçün əlverişli şərait yaranır. Sənəd və kitablarda əsasən saprofit göbələklərin inkişaf etdiyini diqqətə çatdıran müəllif yazır: "Kif göbələkləri, əsasən, spor vasitəsilə çoxalırlar. Bu sporlar müxtəlif–ağ, boz, çəhrayı, qara rəngli olub müxtəlif formalara malikdirlər. Tədqiqatlar nəticəsində kitab xəzinələri havasının hər 1 kub/m-də 800-dən 1500-ə qədər göbələk və bakteriya sporunun olması aşkara çıxarılmışdır. Adamların çox olduğu yerdə həmişə bakteriyaların sayı artmış, kitabların yaxınlığında isə onları zədələyə bilən göbələk növlərinin yayıldığı qeyd edilmişdir. Ümumiyyətlə, müəyyən olunmuşdur ki, kitablarda və onları əhatə edən mühütdə göbələklərin 130 cinsinə daxil olan 300-dən çox növü inkişaf edir". Müəllif qeyd edir ki, kitablar ildə bir dəfə müayinədən keçirilməlidir və arabir kitab rəflərindən bir neçə kitab götürüb nəzərdən keçirmək lazımdır, zədələnmə varsa, tədbir görülməlidir. Burada kitabların dezinfeksiya olunma qaydalarından və istifadə edilən formalin məhlulunun hazırlanmasından da bəhs edilir.

Kitab fondlarına ziyan vuran həşəratlardan "Kitab ziyanvericiləri" adlı yazıda söz açan müəllif onların 100-ə yaxın

növünün aşkar edildiyini, 30-a yaxın növünün daha geniş yayıldığını bildirir və böcəklərin, kəpənəklərin, kitab cücülərinin, kitab bitlərinin, ağacovanların, güvələrin, hiyləgərcələrin, dəri qurdlarının kitablara verdiyi ziyandan, eyni zamanda onlarla mübarizə tədbirlərindən danışır.

"Bərpaetmə işinə hazırlıq" adlı yazıda lazım olan materiallardan və istifadə edilən alətlərdən söhbət açan müəllif göstərir ki, bərpa üçün qayçı, bıçaq, maqqaş, xətkeş, iynə, qazanlar, müxtəlif saplar, fırçalar, pres, kimyəvi maddələr, karton, kağız, və s. lazımdır. Kağızları kəsmək üçün cərrah bıçağından, kartonları kəsmək üçün iri çəkməçi bıçağından, vərəqlərin bərpasında kiçik və nazik rəssam fırçalarından, cildləmədə isə rəngsaz fırçasından istifadə edilir və iş qurtaran kimi tez korlanmaması üçün fırçalar yuyulub qurudulur.

Burada kağızlar haqqında da maraqlı məlumat verilir: "Kağız bitki liflərinin əzilib narınlaşdırılmış nazik qatından ibarətdir. Pambıq, kətan, kəndir, taxıl küləşi, ağac oduncağı, habelə müxtəlif əski tullantıları və maklatura bitki liflərinin mənbəyi kimi istifadə edilir.

XIX əsrin yarısına qədər kağızın hazırlanmasında, əsasən, əski liflərindən (pambıq, parça və s.) istifadə olunurdu. Belə kağızlardan hazırlanan qədim əlyazmalar əsrləri aşaraq bizim dövrümüzə gəlib çatsalar da, çoxunun əvvəlki xassəsi əhəmiyyətli dərəcədə dəyişməmişdir. Bu, onunla izah edilir ki, əski liflərindən hazırlanan kağızlar daha möhkəm, mühütün təsirlərinə qarşı daha davamlı olurlar".

Müəllif qeyd edir ki, bərpa zamanı vərəqlərin çatışmayan hissələri üçün keyfiyyətcə həmin vərəqə yaxın kağız növü seçilməlidir. Bərpa zamanı istifadə edilən yapışqan kitabın materialı üçün ziyansız, şəffaf və mikroorqanizmlərin dağıdıcı təsirinə davamlı olmalıdır. Vərəqlərlə cildin yapışqanı

fərqlənir. Bərpada əvvəl vərəqlər, sonra cild üzərində iş aparılır. Bu məsələləri kitabda "Vərəqlərin bərpası" və "Cildləmə" adlı ayrı-ayrı bəhslərdə geniş əhatə edən müəllif, bir sıra maraqlı məlumatlar verir və yazır: "Bərpaetmə işində texnika nə qədər yüksək səviyyədə inkişaf etmiş olsa da, şəxsi kitabxana materiallarını, qədim əlyazmaları yenə də əl ilə bərpa etmək lazım gələcəkdir". Düşünürsən ki, bu özü də ayrıca bir elmdir. Xüsusən də söhbət əlyazma kitabların bərpasından gedirsə.

Kitabın sonunda ədəbiyyat siyahısı və şəkillər verilmişdir. Burada məişət psixometrini, tikici dəzgahı, bəzi mikroorqanizmləri, kitabın bəzi elementlərini, həmçinin cildin hazırlanması, vərəqə vurulan yamaqdan artıq hissənin kənarlaşdırılması kimi işlərin əyaniləşdirilməsini əks etdirən şəkilləri görürük. Kitab kitabxana işçiləri üçün, habelə kitablarını qorumaq istəyən hər bir kitabsevər üçün maraqlı və gərəkli vəsaitdir.

"Bütöv Azərbaycan" qəzeti, 9-15 fevral, 2011

✦✦✦

"AZƏRBAYCAN PALEOQRAFİYASI"

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, filologiya elmləri doktoru Məməd Adilovun bu yaxınlarda işıq üzü görmüş kitabı "Azərbaycan paleoqrafiyası" adlanır. Kitabın elmi redaktoru filoogiya elmləri namizədi Paşa Kərimovdur.

Müəllif girişdə institutun tarixinə qısa nəzər yetirərək, onun yaranma zərurətindən, ümumilikdə, respublikada keçmişimizə, qədim kitablara, əlyazma əsərlərə xüsusi münasibətdən, Əlyazmalar İnstitutunda aparılan elmi-tədqiqat işlərinin mədəniyyətimizə əvəzsiz töhfə olduğundan söz açaraq

fikrini belə yekunlaşdırır: ”Bütün bu tədqiqat işlərinin ümumiləşdirilməsi, eləcə də tətbiqi mətnşünaslıq və mənbəşünaslıq işlərinin nəzəri əsaslarının müəyyənləşdirilməsi Azərbaycan əlyazmaşünaslığı sahəsində ən aktual məsələ sa-yılır”.

Kitabda “Mətn zehni əməyin məhsuludur” adlı yazısını Nəsirəddin Tusinin təfəkkür haqqında hikmətli sözü ilə başlayan tədqiqatçı-alim burada mətn anlayışına aydınlıq gətirməyə çalışaraq, onun detallarını xırdalayır, izahlar və şərhlərlə “Mətn nədir?” sualını cavablandırır. Burada bir sıra alimlərin fikirlərinə istinad edən müəllif dünya mədəniyyətinin mərhələlərini, formalarını qeyd edir və Azərbaycan xalqının hansı eposların varisi olduğunu və bu eposların ayrı-ayrılıqda yazılı mətn ekvivalentini diqqətə çatdırır.

“Azərbycan yazıları” bölümündəsə Sössürün dil və yazı münasibətləri haqqındakı fikri ilə sözə başlayan müəllif dilin yazıdan deyil, yazının dildən asılı olduğunu, yazının yaranmasının ehtiyac olduğunu, yazının olmadığı zamanlarda mətnlərin itdiyini, bir çox tayfaların, qəbilələlərin, hətta xalqların belə tarix səhnəsini tərk etməsi ilə onların yaratdığı mətnlərin də məhv olduğunu bildirir və son nəticə olaraq yazı anlayışının definitiv təsvirini verir. Yazısında bir şox terminlərə izah verən tədqiqatçı, yazı tiplərini, onların növlərini, yarımnövlərini diqqətə çatdırır. Ayrı-ayrı quruluşlarda dilin inkişaf mərhələlərini izləyən alim, ilkin katiblərin rahiblər və kahinlər olduğunu bildirir, ən qədim yazı sistemlərindən danışır, müxtəlif zaman kəsiklərində Azərbaycanın müxtəlif ərazilərində qeydə alınan kitabələrdən, qayaüstü yazılardan, Mannalıların mixi yazılarından, Midiyanın, Albaniyanın yazı mədəniyyətindən bəhs edir. Burada əlifbalardan söz açan müəllif bir sıra əsərlərə istinad edərək, yazının inkişaf tarixini ardıcıl izləməyə çalışır və yazının demok-

ratikləşdirilmədində islam dininin misilsiz rolunu qeyd edərək fikrini yekunlaşdırır: ”Beləliklə, müsəlman dövrü yazı mədəniyyətindən danışarkən epiqrafik, arxeoqrafik və kidikoloji mənbələr öyrənilir. Bütövlükdə bu mənbələr üç dildə yazıldığı üçün Azərbaycan paleoqrafiyası üç bölməyə ayrılır: Azərbaycan ərəb paleoqrafiyası, Azərbaycan fars paleoqrafiyası, Azərbaycan türk paleoqrafiyası.

Bu baxımdan dünyada Azərbaycan (və digər türk xalqlarının) paleoqrafiyası qədər zəngin və mürəkkəb paleoqrafiya yoxdur və bu Azərbayzan paleoqrafiyası məsələlərinin tədqiqini olduqca çətinləşdirir.

Azərbaycan ərəb paleoqrafiyası ərəbdilli Azərbaycan əlyazmalarını öyrənir. Azərbaycan fars paleoqrafiyası farsdilli Azərbaycan əlyazmalarını öyrənir. Azərbaycan türk paleoqrafiysı anadilli Azərbaycan əlyazmalarını və Azərbaycan yazı tarixini (tarixi orfoqrafiyasını) öyrənir”.

Paleoqrafiya haqqında geniş bəhs kitabdakı “Paleoqrafiya köməkçi fənn kimi” adlı yazıda işıqlandırılır. Paleoqrafiyanı köməkçi fənn hesab edən müəllif onun özünün də bir neçə köməkçi sahəsi olduğunu diqqətə çatdırır və arxeoqrafiya, kidikologiya, arxivşünaslıq, diplomatika, epiqrafika, numizmatika, sfragistika kimi sahələrin predmetini açıqlayır, V.N.Şepkin, Ç.Loukotka, Y.V.Rojdestvenski kimi alimlərin fikirlərinnə münasibət bildirir, variantları müqayisə edir, nəhayət paleoqrafiyanın konkret əlyazma əsasında hansı məsələləri öyrəndiyini oxuculara çatdırır.

Kitabdakı geniş bəhslərdən biri də “Əlyazma kitabı”dır. Burada A.A.Qreçixin əlyazma kitablarının üç növə - praqmatik, idraki və sosial-idarə təxsisatlı kitablara ayırdığını diqqətə çatdıran müəllif kitabın yaranması, yayılması, böyük kitab xəzinələrinin yaranması, kitablardan istifadə edilməsi kimi

problemlərdən söz açır və yazır: ”Kitab anlayışının özünə gəlincə, bunun həm əlyazma və həm də nəşr üçün ortaq parametrləri vardır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar: 1.Kitabın formal əlamətləri, 2.Kitabın daxili (iç) əlamətləri, 3.Kitabın formal növləri, 4. Kitabın quruluşu”.

Tədqiqatçı-alim bu parametrləri ayrı-ayrılıqda açır və burada da bir sıra alimlərdən, tədqiqat işlərindən, keçmiş təcrübələrdən istifadə edərək fikirlərini konkretləşdirir. Müəllif kitabın yeddi formal əlamətini göstərir, kitabın iç əlamətlərindən: mətndən, əlyazma kitabının tərtibat üsullarından, tərtib variantlarından, mətnin yazılmasında istifadə edilən xətt növlərindən, cüng və bəyaz anlayışından, kitabın dəftərdən fərqli uzunömürlü məhsul olmasından, nəhayət, kitabın cildindən bəhs edir ki, bununla oxucu əlyazma kitabı haqqında gərəkli məlumatlar əldə edir. Kitabın formal növlərindən danışarkən müəllif istifadə kağızlarından, onların istehsal zaman və məkanından, nəhayət, əlyazma kitablarının A.fon Qabelə görə 6 növündən bəhs açır. Əlyazma kitabının quruluşuna gəlincə, “Qurani-kərimin ilkin nüsxələrinin kodeks formasında tərtibinin müsəlman kitab mədəniyyətinin təşəkkülündə mühüm rol oynadığını” diqqətə çatdıran tədqiqatçı-alim burada müxtəlif əsərləri misal göstərərək “əsər” və “kitab” terminlərini açıqlamağa çalışır və yazır: ”Özünün bütün komponentlərini əhatə edən cildlə qapanan əlyazma kitabının quruluşu aşağıdakı kimidir: 1) titul səhifəsi, 2) frontispis, 3) ünvan, 4) bəsmələ, 5) müəllif başlanğıcı, 6) əsərin əsas mətni, 7) müəllif kolofonu, 8) katib kolofonu”.

Kitabda “Əlyazma əllə yazmağın məhsulu kimi” yazısında yazının əmələ gəlməsi ilə paralel hər hansı mətni hansı material üzərinəsə həkk etmək sənətinin də meydana çıxması məsələsinə aydınlıq gətirən müəllif həkkaklıq ilə əlyaz-

manın fərqləndiyini də diqqətə çatdıaraq yazır: ”Əlyazma“ anlayışı hansısa bərk material üzərində oyma, yonma, cızma yolu ilə həyata keçirilən “həkkaklıq” işi anlayışı ilə eyniləşdirilə bilməz. Həm əlyazma, həm də həkkaklıq “yazı” anlayışı ilə birbaşa bağlıdır, lakin əlyazma əllə yazma, həkkaklıq isə əllə həkk etmə işinin məhsuludur.

Həkkaklıq sənəti sinkretik səciyyə daşımaqla həm xəttatlığın, həm də nəqqaşlığın başlıca ünsürlərini özündə birləşdirir...”. Kitabdakı “Yazı materialı” adlı yazıda müəllif yenə də yazının meydana gəlməsi ilə insanların təbii materialların üzərində həkkaklığından danışır və bu yolla ilk yazı nümunələrinin yarandığını qeyd edir, lakin getdikcə bu işin çətinliyini hiss edən insanların daha asan yollar axtararaq, yazı yazmaq üçün materiallar hazırlamaq fikrinə düşdüyünü və beləliklə, ilk süni material–gil lövhələrin hazırlandığını, sonralar isə öz yerini papiruslara, o da öz növbəsində perqamentə verdiyini, nəhayət, kağız istehsalının onları aradan çıxardığını və yazı üçün müxtəlif ölkələrdə müxtəlif kağızların istehsalına başlanıldığını göstərir. Bu yazıda tədqiqatçı-alim yazı tarixi ilə paralel yazı materiallarının da tarixini vərəqləyir və sonra filiqranlara keçir: ”Katib tarixi verilməyən yazılı abidələrin köçürülmə dövrünün müəyyən edilməsində kağızın xarici əlamətləri ilə yanaşı, daxili xüsusiyyətlərinin, başqa sözlə, onlara vurulmuş sənaye su nişanlarının (filiqranların) öyrənilməsi mühüm rol oynayır”.

Növbəti yazı “Filiqranlar və onların paleoqrafiya üçün əhəmiyyəti” adlanır. Burada ilk filiqrandan istifadə tarixini xatırladan müəllif, Avropa kağızlarında 4 mindən artıq filiqranın işləndiyini diqqətə çatdırır. Azərbaycan əlyazmalarındakı filiqranları bir neçə aspektdən təsnif etməyin mümkünlüyünü qeyd edən tədqiqatçı, onların emblem və literli

olmaqla iki yerə bölündüyünü, quruluşuna görə sadə və mürəkkəb olduğunu, emblemlərdə həm canlı, həm də cansız fiqurların əks etdirildiyini göstərir.

"Müəllif hüququ"nda müəllif hüququnun qanunlarla təsbit edildiyini diqqətə çatdıran tədqiatçı mətnşünaslıqda müəllif hüququnun qorunma yollarından bəhs edir, ayrı-ayrı əlyazma kitablarından danışaraq, əsərlərin sonunda bəzən açıq, bəzən müəmmalarla müəllifin, çox vaxt isə katiblərin adlarının göstərildiyini bildirir. Burada "Mehri və Vəfa", "Vərqa və Gülşah", "Qisseyi-Yusif " kimi əsərlərin sonunda İsa, Yusif Məddah və Qul Əli kimi müəllif adlarının olduğunu göstərən beytləri misal çəkən müəllif, digər əsərlərə də münasibətini bildirir və yazır: "İstər müəllif əlyazmalarında, istərsə də katiblər tərəfindən köçürülmüş sonrakı tam nüsxə variantlarının əvvəlində, bir qayda olaraq, mütləq əksər hallarda müəllifin adı göstərilirdi. Əlyazmanın sonunda isə: 1) müəllif kolofonunda müəllifin və əsərin adı göstərilirdi; 2) həm müəllif və həm də katib kolofonlarında müəllifin və əsərin adı göstərilirdi; 3)müəllif öz kolofonunda əsərin adını göstərdiyi halda, öz adını çəkmirdi; 4)müəllif kolofonunda müəllif və əsərin adı göstərilmədiyi halda, katib kolofonunda həm müəllifin, həm də əsərin adı qeyd edilirdi".

Kitabın bu bölümündə əlyazmalarda verilən gərəkli məlumatların itirilməsi və bizə gəlib çatmamasına təəssüfünü bildirən müəllif, bu itirilmənin obyektiv və subyektiv səbəblərini açıqlayır və əsərlərdən sitatlar verərək, fikirlərini əyaniləşdirir. Eynilə əsəin yazılma tarixi ilə bağlı faktların aşkarlanmasında da yaranan çətinliklərin səbəbi aydınlaşdırılır.

Müəllifi məlum olmayan mətnlərdə müəllifin və ya katibin milliyyətinin müəyyənləşdirilmsi üçün mətni oxumağın, onamastik vahidlər sistemini aşkara çıxarmağın, dil-üslub

xüsusiyyətlərinin, milli təfəkkür tərzinin öyrənilməsinin vacibliyini vurğulayan tədqiqatçı-alim burada əsərlərin nəşrə hazırlanma tərzlərini də diqqətə çatdırır.

Kitabın geniş həcmli və olduqca maraqlı bölümlərindən biri "Katiblər kitabın əsas yaradıcıları kimi" adlanır. Müəllif burada müxtəlif alimlərin, tədqiqatçıların fikirlərinə istinad edərək, bu mövzunu əhatə etməyə çalışır, müxtəlif zamanlarda fəaliyyət göstərən katiblərdən bəhs edir və katiblərin xarakterik cəhətlərini qeyd edir, katib xətalarını diqqətə çatdırır, müxtəlif əlyazmalardan misallar göstərir, hətta bir əlyazmanın müxtəlif nüsxələrini müqayisə edir. Katiblərin xəttat və nəssax olmaqla ikiyə bölündüyünü, "əlyazma kitablarının və tarixi rəsmi sənədlərin katibinin xəttat, arxiv qeydlərinin, həvəskar əlyazma nüsxələrinin, şagird və tələbə dəftərlərinin və bəzi hallarda sənədlərin və əlyazma kitablarının katibinin sadəcə olaraq nəssax sayıldığını" göstərir.

"Azərbaycan xətləri" adlı yazıda xətlərin keyfiyyət fərqlərindən, müxtəlif xətlərdən və onların şəkillərindən bəhs edilir. "Azərbaycan əlyazma kitabı" yazısında isə saray və rəiyyət kitablarına bölünən Azərbaycan əlyazma kitabının tərtibat baxımından adi kitablar, orta səviyyədə tərtib olunmuş kitablar və yüksək bədii tərtibatlı sənət abidələri kimi fərqləndirildiyini qeyd edən müəllif Əlyazmalar İnstitutunda saxlanılan əsərlər üzərində apardığı tədqiqatlara əsasən fikirlərini oxuculara çatdırır. Əsər nəticə və ədəbiyyat siyahısı ilə bitir. Müxtəlif dillərdə yazılmış ədəbiyyatlardan istifadə və əsərin bizə verdiyi zəngin məlumatlar göstərir ki, müəllif bu kitabı uzun illərin gərgin əməyinin nəticəsi olaraq ərsəyə gətirmişdir. Kitab tədqiqatçı-alimlər, eləcə də mətnşünaslıqla maraqlanan hər bir tələbə və aspirant üçün dəyərli vəsaitdir.

"Real-Press" qəzeti, 15.08.10.

"KİFAYEYİ-MƏNSURİYYƏ

Son zamanlar Əlyazmalar İnstitutunda tibbə aid olan əlyazmaların tədqiqi işi xeyli genişlənmişdir. İnstitutumuzun "Tərcümə və İnformatika" şöbəsinin müdürü, tarix elmləri doktoru Fərid Əəkbərovun rəhbərliyi altında bir sıra elmi-tədqiqat işləri aparılır. Onun elmi redaktorluğu ilə bu il çapdan çıxmış Mənsur ibn Məhəmməd ibn Yusif ibn İlyasın "Kifayeyi-Mənsuriyyə" əsərini həmin şöbənin əməkdaşı Zemfira Məmmədova fars dilindən tərcümə edib nəşrə hazırlamışdır.

Zemfira Məmmədova mərhum atası akademik Məcid Rəsulovun xatirəsinə ithaf etdiyi bu dəyərli kitabın ön sözündə əlyazma haqqında qısa məlumat verərək, oxucuları məlumatlandırır. Ön sözdən məlum olur ki, Əlyazmalar İnstitutunda saxlanılan 363 orta əsr tibb əlyazmasından biri olan "Kifayeyi-Mənsuriyyə" 1423cü ildə qələmə alınmış, institutda saxlanılan nüsxələrdən biri 1653-cü ildə, digəri isə 1845-ci ildə naməlum katiblər tərəfindən köçürülmüşdür. Tərcüməçi kitabı nəşrə hazırlarkən hər iki nüsxədən istifadə etmişdir.

Allahın adı ilə və Ona böyük şükürlərlə sözə başlayan Mənsur biliklərə yiyələnməklə bu əsəri ərsəyə gətirdiyini, əsərin bəyənilmək şərəfinə layiq olduğunu diqqətə çatdırır və göstərir ki, kitab iki hissədən ibarətdir. Birinci hissə nəzəri və əməli tibbdən bəhs edir, ikinci hissə dərmanlar, yeməklər və içkilər haqqındadır. Hər hissə iki fəsildən ibarətdir. Bu fəsillər yarımfəsillərə, yarımfəsillər bablara, onlar da bölmələrə ayrılır. Bu sistem üzrə yazılmış kitab demək olar ki, insan sağlamlığını qorumaq üçün–istər xəstələrin müalicəsi, istərsə də profilaktik tədbirlərin görülməsi üçün lazım olan bilgiləri əhatə edir.

Kitabda insanın anatomiyası, fiziologiyası haqqında məlumatlar da verilmişdir. Belə ki, ürək, diafraqma, ağ ciyər,

boğaz, beyin, onurğa beyni, üzdə yerləşən üzvlər, həzm sistemi üzvləri, sidik-cinsiyyət sistemi üzvləri haqqında lazımi bilgiləri buradan öyrənmək olar.

İnsan orqanizminin məzaclara görə fərqləndirilməsini və xəstəliklər zamanı buna diqqət yetirilməsinin gərəkliliyini diqqətə çatdıran müəllif ayrı-ayrı məzaclara mənsub olan insanların qidalanma gigiyenasını da açıqlayır. Burada hətta yaş dövrünə görə insanlara təsir edən fiziki amillərdən də bəhs edilir.

Müəllif insanın məruz qaldığı bir sıra patofizioloji vəziyyətlər haqqında da geniş məlumat verir. İstər ürək-qan damar sistemində, istər həzm, sidik-cinsiyyət sistemində təzahür edən patoloji hallar və onların aradan qaldırılması, eyni zamanda qarşısını almaq üçün profilaktik tədbirlərin görülməsi üçün lazım olan bilikləri buradan almaq olar. Maraqlı faktlardan biri də budur ki, müəllif hər bir hal üçün bir deyil, bir neçə üsul təklif edir. İstənilən şəraitdə, hər bir situasiyada xəstəni vəziyyətdən çıxarmaq üçün mümkün olan hər bir variant verilir.

Kitabda sinir sistemi ilə bağlı patoloji hallar, xəstəliklər və onların aradan qaldırılması yolları göstərilir. Miqren, meningit, epilepsiya, xoreya, və s. bu kimi ağır xəstəliklərin də diaqnostikası və müalicə yolları göstərilir.

Kitabda göz xəstəlikləri, qulaq, dil, diş xəstəlikləri də ayrı-ayrılıqda verilir və onların diaqnozunun qoyulması, müalicə üçün lazım olan dərman maddələrinin təyin olunması qeyd olunur.

Müəllif daxili orqanların xəsxəliklərindən, o cümlədən bu orqanlarda baş verən şiş xəstəliklərindən də söz açır və onların müalicəsi üsullarını diqqətə çatdırır. Burada mədə şişi, qara ciyər, böyrək şişi, cinsiyyət üzvlərində olan şişlər haqqında da geniş bəhs açılır və onların müalicəsi yolları göstərilir.

Maraqlı faktlardan biri də müəllifin diabet xəstəliyi haq-

qında da məlumat verməsidir. Bundan başqa kitabda bir sıra xəstəliklər haqqında da məlumat verilir: müxtəlif qızdırma xəstəlikləri, oynaq xəstəlikləri, damar genəlməsi, sınıqlar, çıxıqlar, yanıqlar, dəmrovlar, dəri və tük xəstəlikləri və s.

Müəllif bəzi heyvanların dişləməsi zamanı əmələ gələn xəstəliklərdən də bəhs edir: ilan çalması, əqrəb, arı, kərtəngələ sancması, şir, pələng, timsah, qurbağa dişləməsi, it qapması, xoruz tutması və s.

Kitabın ikinci hissəsində dərman maddələri, o cümlədən ödqovucu, bəlğəmgətirici, yumşaldıcı, qusdurucu, sidikqovucu, şiş yetişdirici, daş parçalayıcı, qarınbərkidici, köp yatırıcı, işlətmə, ağrıkəsici, yuxugətirici, qankəsici və s. dərmanlar haqqında məlumat verilir.

Burada qida maddələri, o cümlədən dənli bitkilər, tərəvəzlər, ət və süd məhsulları, meyvələr, güllər, otlar haqqında da bəhs açılır. Müəllif eyni zamanda dərman bitkilərindən dərmanların hazırlanması yollarını da göstərir. Onların tərkibi miqdarının müəyyən edilməsi, toz, həb, şirə, məlhəm və s. formada hazırlanma, istifadə olunma qaydaları haqqında da məlumat verir.

Kitabın sonunda adı gedən çəki vahidləri, əlyazmada adı çəkilən müalicə vasitələrinin lüğəti, də verilmişdir. Kitab tədqiqatçı-alimlər üçün, həkimlər, tibb təhsili alan tələbələr, habelə xalq təbabəti ilə müalicə olunmaq istəyən hər bir insan üçün dəyərli vəsaitdir. Kitabda gedən terminlər, o cümlədən adı çəkilən bitkilərin çoxluğunu nəzərə alsaq, deyə bilərik ki, bu kitabın tərcüməsi tərcüməçiyə heç də asan başa gəlməyib. Hiss olunur ki, tədqiqatçı bu tərcümə üzərində işlərkən klassik fars dilinin çətinliklərinə sinə gərməli olub, əsəri imkan daxilində oxuculara təmiz müasir Azərbaycan dilində təqdim etmək üçün xeyli zəhmət sərf etmişdir.

"Bütöv Azərbaycan" qəzeti, 11.08.10.

✦✦✦

“MİRZƏ İSMAYIL QASİR”

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun türkdilli əlyazmalar şöbəinin əməkdaşı, filologiya elmləri namizədi Aybəniz Rəhimova onlarla elmi məqalənin və bir neçə kitabın müəllifidir. Onun nəşrə hazırladığı “Battal Qazi dastanı”, eləcə də Lənkəran ədəbi mühütinin görkəmli nümayəndəsi Mirzə İsmayıl Qasir Axundovun şeirlər kitabını maraqla oxumuşam. Amma bu yazımda onun, şairin həyat və yaradıcılığını əhatə edən “Mirzə İsmayıl Qasir” adlı kitabından söz açmaq istəyirəm. Kitabın redaktoru Məmməd Adilov, xəttatı Hacı Müzafəddin Əzizovdur.

Aybəniz Rəhimova kitabın girişində ədəbiyyatımız haqqında dəyərli fikirlərilə sözə başlayır, sonra köhnə şeir kimi qələmə verilən bir sıra poeziya nümunələrinin, eləcə də onların yaradıcılarının lazımi qiymət almadığını, beləliklə, bəzi şairlərin yaradıcılığının sandıq ədəbiyyatı kimi qaldığını diqqətə çatdırır və XIX əsrin tanınmış şairləri olan Zakir və Seyid Əzimlə bir sırada gördüyü Mirzə İsmayıl Qasiri təqdim edir.

Şairin yaradıcılığını XIX əsr Azərbaycan ədəbi-mədəni mühütündə təsvir və təhlilə çalışan müəllif yazır: “Onun yaradıcılığında orta əsrlərə məxsus ənənəvi qəzəlçilik, füzuliyanə eşq-məhəbbət ünsürləri ilə yanaşı, daha qabarıq tərzdə yeni Azərbaycan ədəbiyyatı özünü göstərmişdir. Bunun ortaya çıxmasında isə dövrün ictimai-siyasi və ədəbi-mədəni mühüti xüsusi rol oynamışdır. Ayrıca qeyd etməyinə dəyər ki, XIX əsrin ictimai-siyasi mühütü Qasir yaradıcılığına təsir edib, onun püxtələşməsinə yol açmışdırsa, Qasir yaradıcılığı da özlüyündə dövrünün ədəbi-mədəni mühütünün yüksəlişinə, satiranın sonrakı inkişafına mühüm töhfə olmuşdur”.

Monoqrafiyada XIX əsr ədəbi mühütündən söz açan tədqiqatçı o dövrdə Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən ədəbi məclislərdən, o cümlədən Qasirin Lənkəranda təşkil etdiyi "Fövcül-füsəha"nın fəaliyyətindən danışır. Məclisin yaranma tarixi ilə bağlı fikir müxtəlifliyinə toxunur, dəqiqləşdirmə aparır və institutumuzun mərhum əməkdaşı f.e.n. Nəsrəddin Qarayevin dissertasiyasına müraciət edir. Məclisin o dövrdə fəaliyyət göstərən digər məclislərdən fərqini diqqətə çatdıran tədqiqatçı, onun təsvirini verməyə çalışır. Məclisin otuz beş üzvü olduğunu qeyd edir və onların adlarını çəkir, eyni zamanda Mirzə İsmayıl Qasirin təkcə sədri olduğu məclislə məhdudlaşmadığını bildirir və onun digər məclislərin, o cümlədən Şamaxıda, Bakıda, Qarabağda, Naxçıvanda, Təbrizdə fəaliyyət göstərən ədəbi məclislərin üzvləri ilə əlaqə saxladığını, məktublaşdığını qeyd edir və şairin şeirlərindən sitatlar verməklə fikirlərini əyaniləşdirir, bununla da şairin təkcə yaşadığı ədəbi mühütdə deyil, eyni zamanda kənarda da bir şair kimi tanındığını, sevildiyini göstərir.

Müəllif Mirzə İsmayıl Qasirin pedoqoji fəaliyyətini ayrıca bir bəhsdə oxuculara təqdim edir. Burada özündən əvvəlki tədqiqatçıların, şairin yalnız Lənkərandakı pedoqoji fəaliyyətini işıqlandırdıqlarını bildirir və bununla razılaşmayıb, Qasirin Lənkərana köçməmişdən əvvəl müxtəlif ailələrdə ailə müəllimi kimi fəaliyyətindən söz açır. Tədqiqatçı elmi işində xırda detalları belə nəzərindən qaçırmamış, şairin həm əsərlərindən, həm məktublarından, hətta kitablarına yazdığı avtoqraflardan istifadə edərək, fikirlərinin dəqiqliyinə çalışmışdır. Bu bəhsdə şairin pedoqoji fəaliyyətinə qiymət verən bir sıra ziyalıların fikirlərinə də istinad edən müəllif, onun pedoqoji fəaliyyətinin tədqiq olunmasının əsasən şairin ölümündən sonrakı illərə təsadüf etdiyini və bu işdə onun şagirdlərinin böyük xidməti olduğunu bildirir.

Monoqrafiyanın "Mirzə İmayıl Qasirin yazılı irsi" adlı hissəsində şairin ədəbi irsinin təsviri və nəşri tarixindən başlayan müəllif mətbuat tarixinə qısa nəzər yetirir, sonra şairin dağınıq vərəqlər halında olan və həm özü tərəfindən, həm də başqaları tərəfindən köçürülmüş əlyazmalarının nəvəsi İshaq Axundov tərəfindən Əlyazmalar İnstitutuna verildiyini diqqətə çatdırır. Buradan məlum olur ki, 1988-ci ilə qədər şairin əsərləri ayrıca kitab şəklində çap olunmamışdır. Müəllif institutdakı əsərlərin şairin irsinin yalnız bir hissəsi olması qənaətindədir. Tədqiqatçı onu də bildirir ki, Əlyazmalar İnstitutunda B-1546, Fr-1266 və Fr-1267 şifrələri altında saxlanılan əsərlərdən başqa, bir çox ziyalıların arxiv materialları içərisində də Qasirin əsərlərinə rast gəlinir.

Şairin ədəbi irsinin əsasən azərbaycanca, farsca, qismən də ərəbcə olduğunu qeyd edən tədqiqatçı institutdakı qovluqlarda olan şeir dəftərlərinin təsvirini verir. Buradan məlum olur ki, şairin əsərləri B-1546-da 104 vərəq, Fr-1266-da yeddi dəftərdə 174 vərəq, Fr-1267-də pərakəndə halda 92 vərəqdir.

Hiss olunur ki, Aybəniz Rəhimova şairin ədəbi irsini tədqiq edərkən bir mətnşünas kimi çox ciddi işləmiş, eyni zamanda özündən əvvəlki tədqiqatçıların işləri ilə də yaxından tanış olmuş, lazım gəldikcə onlara öz münasibətini bildirmişdir.

Şairin ədəbi irsini təhlilə çəkən tədqiqatçı-alim "Qasir irsinin ideya məzmunu və klassik ənənələri" adlı bölümdə yazır: "Mirzə İsmayıl Qasir öz yaradıcılığına "Məcnun" təxəllüsü ilə yazdığı farsca və azərbaycanca qəzəlləri ilə başlamışdır. Onun lirik yaradıcılığının böyük əksəriyyəti həyatının İran dövrü və Lənkərana gəlib çıxmamışdan qabaqkı illərə aid edilə bilər. Lənkəran mühütündə isə Qasir bütün gücünü-qüvvəsini maarifçiliyə, yaratdığı ədəbi məclisə, məclisçilik hərəkatının Azərbaycanda yayılıb-möhkəmlənməsinə yönəltmiş və bu

yolda çox böyük maneələrlə qarşılaşdığından onun yaradıcılığında mübarizlik, ifşaçılıq, satira əsas mövqeyə keçmişdir".

Qasiri Zakirin və Seyid Əzimin paralelində götürən müəllif, Salman Mümtazın "Qasım bəy Zakir" məqaləsinə münasibətini bildirir, Qasiri satirada ictimai cəhətdən onlardan irəlidə görür. Hər iki şairin satirik qələminə münasibət bildirən tədqiqatçı yazır ki: "Qasirdə isə vəziyyət başqa cürdür. O, Azərbaycan şeirində kapitalist münasibətlərinə toxunan və buna qarşı etiraz edən ilk şairdir". Bizcə, Zakir-Seyid Əzim-Qasir paralelində Qasiri fərqləndirən cəhət odur ki, Zakirin, Seyid Əzimin ayrı-ayrı şəxslərə ünvanlanmış həcvləri qarşısında Qasirin həcvləri ilə birlikdə ümumi neqativ halları tənqid edən satira yaradıcılığı durur və bu da irəliyə bir addım deməkdir...

Monoqrafiyanın üçüncü fəsli "Mirzə İsmayıl Qasirin sənətkarlıq xüsusiyyətləri" adlanır və müəllif şairin həm satirik, həm lirik qəhrəmanlarından ayrı-ayrılıqda söz açır. Buradan məlum olur ki, şairin satiraları Azərbaycan dilindədir, o, farsca ən çox lirik şeirlər yazmışdır və bu da çox təbiidir. Yəqin ki, o dövrdəki bütün klassik şairlər kimi öz hissini, duyğularını ifadə edən Qasirin yaradıcılığında zamanın tələbinə uyğun olaraq yeni mərhələ başlamış, şair o dövrdəki maarifçilik hərəkatına təkan verəcək şeirlər yazmaq qərarına gəlmiş, kütlələrin başa düşməsi üçün satiralarını ana dilində qələmə almışdır.

Şairin satira yaradıcılığının əsas səciyyəvi cəhətlərindən danışan tədqiqatçı, onun həcvlərindən də söz açır, müxtəlif şəxslərə yazılmış əsərlərini təhlilə çəkir və yazır: "Qasirin satirik qəhrəmanlarının bir hissəsini də konkret şəxslər deyil, ümumiyyətlə, mollalar, saysız-haesabsız mal-dövlət sahibləri, bahalıq yaradan tacirlər, cəhalətpərəst qüvvələr, alayarımçıq şairlər, şəhər qazıları, ona "babi" adı verən "kişilər" və b. təşkil edirlər".

Şairin lirikasına gəlincə, müəllif ondan çox xəsisliklə danışır, amma bu lirikanın XIX əsr epiqonçu lirikadan dünyəviliyi ilə fərqləndiyini diqqətə çatdırır.

Qasir yaradıcılığının dil və üslub xüsusiyyətlərindən ayrıca bəhs açan Aybəniz xanım, şairin şeir dilinin rəvan, axıcı poetik bir dil olduğunu, onun xalq dilindən bəhrələndiyini vurğulayır, Qasir şeirinin leksikasından, bədii təsvir və ifadə vasitələrindən söz açan müəllif şairin həm satirik, həm də lirik şeirlərindən sitatlar verərək, fikirlərini əyaniləşdirir.

Kitabın sonunda zəngin ədəbiyyat siyahısı verrilmişdir ki, bu da əsərin, tədqiqatçı-alimin böyük zəhmət və səyləri nəticəsində ərsəyə gəldiyini bir daha göstərir. Kitab XIX əsr Azərbaycan ədəbiyyatı tarixini öyrənmək istəyən tələbələr və tədqiqatçılar üçün dəyərli vəsaitdir.

"Real-Press" qəzeti, 15.08.10.

✦✦✦

"YAZILI ABİDƏLƏRİN TƏDQİQİ"

Əlyazlar İnstitutunun bu ilki nəşrləri içərisində diqqəti çəkən kitablardan biri də filologiya elmləri namizədi, ömrünü ədəbiyyatımızın tədqiqinə və təbliğinə həsr etmiş, Əlyazmalar Fondunun yaradılmasında, əlyazmaların toplanmasında böyük rolu olan, Əlyazmalar İnstitutunun ilk direktoru Məmmədağa Sultanovun məqalələr toplusudur. Klassik ədəbiyyatımıza, mədəniyyət tariximizə, təbabətə həsr olunmuş ayrı-ayrı yazıların toplandığı kitab "Yazılı abidələrin tədqiqi" adlanır. Kitabın redaktorları filologiya elmləri doktoru Nəsib Göyüşov və filologiya elmləri namizədi Qiymət Məhərrəmlidir.

Unudulmaz alimin 100 illik yubileyinə ithaf olunan bu kitabın girişində M.S.Sultanovun həyat və fəaliyyərtinin əsas göstəriciləri verilmişdir. Mübariz Əlizadənin kitaba yazdığı

"Xeyirxah, nəcib insan" adlı ön sözdə də şərqşünas alimin həyatı və elmi fəaliyyəti işıqlandırılmışdır. Gözəl insan, dəyərli tədqiqatçı-alim, tərcüməçi, şair, nasir, publisist olan Məmmədağa Sultanovun tərcümeyi-halına qısa ekskursiya edən müəllif yazır: "Filologiya elmləri namizədi Məmmədağa Sultanov eyni zamanda klassik ədəbiyyatımızın kamil bilicisi kimi bir neçə monoqrafiyanın və onlarca ciddi məqalənin müəllifidir. O, çoxlu gənc istedadın ədəbiyyatşünas, kitabşünas alim kimi yetişməsində iştirak etmiş, onların elmi rəhbəri, xeyirxah, tələbkar məsləhətçisi, rəyçisi olmuşdur.

Bu kiçik məqalədə Məmmədağanın uzun illər davam edən elmi, ədəbi, ictimai və pedaqoji fəaliyyətindən ətraflı danışmağa imkan yoxdur. Lakin onun şah əsəri olan Azərbaycan EA Əlyazmalar İnstitutu haqqında bir neçə söz deməmək olmaz..."

Kitaba daxil edilmiş ilk məqalə "Xaqani Şirvani və Yaxın Şərq ədəbiyyatı" adlanır. Bu geniş, əhatəli yazıda orta əsr Azərbaycan ədəbiyyatının, xüsusilə də Nizami və Xaqaninin Yaxın Şərq ədəbiyyatına böyük təsirini qeyd edən müəllif, Şərqin ən böyük simalarının, alim və şairlərinin Xaqani yaradıcılığına verdiyi dəyərdən söz açaraq yazır: "XII əsrin ən böyük simaları Xaqanini şəxsən tanımış və onun sənətkarlığı qarşısında heyran qaldıqlarını söyləməkdən çəkinməmişlər. Onların əksəriyyəti Xaqaninin fəzl və kamalını, alimanə fikirlərini təsdiq edərək onu filosof və "ayəti-həqiqi" adlandırmışlar". Tədqiqatçı-alim Mücirəddin Beyləqaninin, Şibli Nəmaninin, Ürfi Şirazinin, Əbdürrəhman Caminin, Lütfəli Bəy Azərin, Rzaqulu xan Hidayətin, Zəkəriyya ibn Məhəmməd Qəzvininin, Bədiüzzəman Xorasaninin, Hüseyn Danişin, eyni zamanda bir sıra müasir İran şair və alimlərinin Xaqani haqqındakı fikirlərini diqqətə çatdıraraq, Xaqaniyə verilən dəyəri açıqlayır.

XII əsrin məşhur şairləri içərisində yalnız Xaqaniyə çoxlu şeirlər yazıldığını və onun şeirlərinin təfsir, təbir edildiyini xüsusi vurğulayan müəllif, şairin əsərlərindən səmimi, oynaq parçaları misal göstərərək, öz fikirlərini əyaniləşdirir.

Xaqaninin böyük kədər və hüzn dolu mərsiyələrindən söz açan tədqiqatçı Nizaminin məşhur sözünü də qeyd edir, şairin mərsiyələrində əks olunan dərin hissi, həyəcanı təqdir edir.

Müəllif Xaqaninin "Quşların deyişməsi qəsidəsindən söz açır, quşların fikirlərini diqqətə çatdırır və Xaqani şeirinin fəlsəfi qüdrətini açmağa çalışır və bu əsəri böyük poema hesab edərək yazır: "Bu qısa deyişmə o qədər cazibədar və canlı təsvir vasitələri ilə təzyin edilmişdir ki, oxucu böyük bir poema oxuduğunu təsəvvür edir".

Şairin Müvəffəqəddin Əbdül-Qəfara yazdığı qəsidəsindəki baharın təsvirindən sitat verir və Xaqaninin bahariyyə ustası kimi də sənətkarlığını oxuculara çatdırır.

Tədqiqatçı bu yazısında şöhrəti Azərbaycan sərhədlərini aşıb Yaxın Şərqə yayılan Xaqaninin rəqiblərindən söz açır, onun bu şöhrətini həzm edə bilməyənlərin, onun əzəmət və qüdrətini kiçiltməyə cəhd edənlərin paralelində Xaqanini yüksəldən, onunla şeirləşib onun yaradıcılığı qarşısında baş əyən şairlərin etiraflarını qeyd edir. Rəşidəddin Vətvatın Xaqanini "Fəzilət dəryası və filosof", Məcməddin Xəlilinin Xaqanini imam dərəcəsinə qaldıraraq, "Əmiri-imam Xaqani yüz xaqanın tacıdır" kimi öydüklərini diqqətə çatdırır.

Məqalədə Xaqanidən bəhrələnən, özünü Xaqaniyə oxşatmaq istəyən şairlərdən və onların əsərlərindən də qeydlər vardır. Yaxın Şərqin tanınmış şairlərinə Xaqani təsirini olduqca doğru-düzgün təhlil edən müəllifin bu yazısı Xaqani haqqında yazılmış digər yazılar üçün bünövrə rolunu oynayır. Çünki, tədqiqatçı-alim Xaqani yaradıcılığının başqa

şairlərə təsirini çox əhatəli şəkildə təqdim etmişdir.

Kitabdakı ikinci yazı "Azərbaycan-İran və Azərbaycan-Türkiyə arasında mədəni əlaqələrə dair məlumat" adlanır və hər iki ölkə ilə Azərbaycanın mədəni əlaqələri ayrı-ayrılıqda verilir. Burada Azərbaycan-İran mədəni əlaqələrindən danışan müəllif XX əsrin 20-ci və 30-cu illərində Bakıda təşkil olunan "İttihad", Sabunçu qəsəbəsindəki "Təməddüd" məktəblərinin fəaliyyətindən, çap olunan klassik əsərlərdən söz açır, İran şairlərinin Azərbaycanda çap olunmuş əsərlərinin adlarını verir. Eləcə də "Azərbaycan-Türkiyə mədəni əlaqələrindən danışarkən, Bakıda nəşr olunan kitablarda, hətta dərsliklərdə türk şairlərinin də əsərlərinin işıqlandırıldığını diqqətə çatdırır.

Növbəti yazı 100 illik ölümü münasibətilə yazılmış "Mirzə Şəfi Vazeh" məqaləsidir ki, burada şairin həyatı, yaradıcılığı, əsərlərinin tərcüməsi və s. məsələlərə toxunulmuşdur.

Müəllif "Molla Nəsrəddinin prototipi kimdir" adlı məqaləsində təkcə türk xalqları arasında deyil, həmçinin Qərbi Avropada, İspaniyadan tutmuş Çinə qədər olan ərazilərdə dillər əzbəri olan, sevilən Molla Nəsrəddinin kim olduğunu aydınlaşdırmağa çalışır. Burada qədim hind təmsilləri məcmuəsi olan "Kəlilə və Dimnə"dən danışan müəllif bütün türk, fars ədəbiyyatına nəzər yetirir və yazır: "Təsadüfi deyildir ki, Şərq xalqları klassikləri də öz mənzum əsərlərində yeri gəldikcə bu lətifələrdən istifadə etmişlər. Azərbaycan ədəbiyyatı tarixində Nizami, Xaqani, Məhsəti, Füzuli, Zakir, Seyid Əzim, Məhəmməd Bağır Xalxali kimi istedadlı şairlərin əsərlərində belə ricətlər və lətifələr nəzər-diqqəti cəlb edir. Sənayi Qəznəvi, Suzəni, Cəlaləddin Rumi, Şeyx Əttar, Sədi Şirazi, Cami, Əlişir Nəvai və başqa klassik şairlərin əsərləri də belə lətifələrlə doludur. Lakin Şərqdə çox məşhur olan Molla Nəs-

rəddin lətifələri, əlbəttə, bu kitab lətifələrinə bənzəmir. Bu lətifələr xalq idrakı ilə daha da zənginləşmiş, müstəqil surətdə toplanmış və yayılmışdır. Müəllif söhbəti gətirib Nəsrəddin Tusinin üstünə çıxarır, belə məşhur ola biləcək sözlərlə tarixdə yaşayan adamın məhz Tusi olduğu qənaətinə gəlir və fikirlərini əsaslandırmaq üçün 7 fakt göstərir.

Kitabda öz həcminə və əhatəsinə görə ayrıca bir kitab təsiri bağışlayan növbəti məqalə "Orta əsr əlyazmalarında müəmma, onun tərtibi və kəşfi" adlanır. Burada klassik Şərq ədəbiyyatında geniş yayılmış, bir sıra məşhur şairlərin, o cümlədən Xaqani, Nizami, Qivam Mütərrizi, Zülfüqar Şirvani, Firdovsi, Cami, Nəvai, Füzuli və b. yaradıcılığında rast gəlinən müəmmanın XV əsrdə daha çox işləndiyini diqqətə çatdıran müəllif onun inkişafında bu dahi şair və alimlərin böyük rol oynadığını xüsusi qeyd edir. O yazır: "Əbdürrəhman Cami müəmma tərtibi və kəşfi barədə üç əsər yazmışdır. Bunlardan ən görkəmlisi "Müəmmayi-kəbir" adlanır. Əlişir Nəvainin tapşırığı ilə Kəmaləddin Hüseyn ibn Məhəmməd (Mir Hüseyn Nişaburi adı ilə məşhurdur) "Müəmma" adlı xüsusi bir əsər yazmışdır. Cami Mir Hüseynin bu əsərinə yüksək qiymət verməklə bərabər, onu ciddi tənqid etmiş və demişdir ki, nə qədər Mir Hüseyn sağdır, onun müəmmalarını kəşf edə bilməyənlər ona müraciət edə bilərlər, lakin o öldükdən sonra bu müəmmalar da onunla birlikdə ölüb gedəcəkdir. Buna görə də Mir Hüseynin şagirdi Sadıq Rükni Aşiq öz şagirdlik borcunu yerinə yetirərək, müəlliminin əsərinə "Şərhi-müəmmayi-Hüseyni" adlı izahat yazmışdır. Həmin əsəri sonralar Azərbaycan alimlərindən Ziya Ordubadi və Əbdülvahab ibn Cəlaləddin Həmədani Azərbaycan və fars dillərində yenidən şərh etməli olmuşlar".

Məmmədağa Sultanovun bu məqaləsi müəmmanı öyrən-

mək üçün çox dəyərli vasitədir. Burada əbcəd hesabı üzrə müəmma tərtibi, həndəsi rəqəmlər üzrə müəmma tərtibi, günlər üzrə, səyyarələr üzrə, bürclər üzrə, Ay və il hesabı üzrə, dil ünsürləri hesabı üzrə, təshif üzrə, təqrib, təşbih, məcaz, kinayə üzrə, kəlmənin hərfləri üzrə, hərflərin düşməsi üzrə, sinonimlər, antonimlər üzrə, kəlmə üzvlərinin birləşdirilməsi və kəlmənin parçalanması üzrə, eyham və istixrac üzrə, ali hesab, nücum, müsəlləsat, nərd, şahmat və s. üzrə müəmmanın tərtibi verilmişdir.

Müəllif "Müəmmanın kəşfi"ndə artıq praktik hesablamalar verir və müəmmaların açılışını göstərir. Nəticədə isə tədqiqatçı fikrini belə yekunlaşdırır: "Müəmmaları tədqiq etməkdə məqsəd xüsusilə orta əsrlərdə bariz şəkildə meydana çıxan və M.F.Axundov kimi sənətkarlarımız tərəfindən tənqid olunan formalizmi və say oyunlarını öyrənmək deyildir. Məlumdur ki, bəzi tarixi şəxsiyyətlərin, görkəmli şairlərin təvəllüd və vəfat tarixi, bir sıra hadisələrin baş verməsi və qədim abidələrin yaranması tarixi məhz müəmma üsullarından istifadə edilərək yazılmışdır. Həmin maddeyi-tarixlərin öyrənilməsində müəmmaları açmaq qaydaları tədqiqatçıya xüsusilə lazım olur". Məqalənin sonunda Əlyazmalar İnstitutunda saxlanılan müəmma sənətinə dair əsərlərin siyahısı verilmişdir.

Kitabdakı "Maddeyi-tarix və onun tərtibi haqqında" adlı məqalədə də klassik Şərq ədəbiyyatında rast gəlinən müxtəlif növ maddeyi-tarıxlərdən söz açılır: rəqəmlərlə göstərilən maddeyi-tarixlər, hərflərlə qeyd edilən maddeyi-tarixlər, bir kəlmə ilə ifadə edilən maddeyi-tarixlər, misranın bir hissəsi üzrə tərtib edilmiş maddeyi-tarixlər, ayrıca cümlə və ya müstəqil misra şəklində tərtib edilmiş madeyi-tarixlər, mürəkkəb və müəmma üsulu ilə yazılmış maddeyi-tarixlər.

Müəllif burada "O.L.Viçevskinin maddeyi-tarixləri haqqında bir neçə söz"də düzgün və yanlış məqamlara öz münasibətini bildirmişdir.

Kitabdakı "Nəyi və necə tərcümə etmək lazımdır" adlı məqalədə qoyulan problem və məsələnin həlli yolları bir daha Məmmədağa Sultanovun savadlı, istedadlı tərcüməçi olduğunu göstərir. Müəllif "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında bədii tərcümə problemləri ilə əlaqədar keçirilmiş söhbətin materiallarını diqqətlə oxuyur, professor Əkbər Ağayevin toxunduğu problem məsələ ilə bağlı öz fikirlərini bildirmək istəyir və nəticədə belə samballı, geniş, əhatəli bir yazı alınır və həmin yazını qəzet çap edir. Burada xarici ədəbiyyat və rus ədəbiyyatı nümunələrinin azərbaycancaya tərcüməsini alqışlayan alim ərəb və fars dilli ədəbiyyatın tərcüməsinin ləngidiyini bildirir və babalarımızın dövrün səbəbləri üzündən əsərlərini ərəb-fars dilində yazdıqlarını, lakin bu əsərlərin Azərbaycan xalqına, gərək olduğunu, onların tərcümə edilib gələcək nəslə çatdırılmasının vacib olduğunu diqqətə çatdırır və yazır: "Mahmud Şəbüstərinin "Gülşəni-raz" adlı fəlsəfi əsəri, Əssar Təbrizinin iki gəncin dostluğundan danışan, olduqca qiymətli "Mehr və Müştəri" poeması, Füzulinin ərəbcə yazdığı "Mətləül-etiqad"ı, farsca yazdığı "Rind və zahid" əsəri, Saib Təbrizinin "Qəndəharnamə"si, Arif Ərdəbilinin "Fərhadnamə"si, Mirzə Şəfi Vazehin külliyyatı, Abbasqulu ağa Bakıxanovun farsca yazdığı "Kəşfül-qəraib", "Təhzibi-əxlaq", ərəbcə yazdığı "Əşrafül-mələküt", və "Eynəlmizan" əsərləri, Seyid Əzim Şirvaninin fars divanı... hələ Azərbaycan dilinə tərcümə və nəşr edilmədiyi bir zamanda biz tərcümə işimizdən razı qala bilərikmi?..."

Müəllif məqalədə əruz vəznli poemaların "Bizim doğma vəznimiz heca vəznidir" deyə heca vəznində tərcümə olun-

masına da öz etirazını bildirir: "...guya əruz vəzni bizim doğma vəznimiz deyil. 30-cu illərdə gənc şairlərimizin əksəriyyəti əsərlərini heca vəznində yazdıqları üçün bəzi üzdəniraq ədəbiyyatşünaslar əruz vəznini hətta əksinqilabi vəzn adlandırmaq da istəmişlər. Əgər indi Azərbaycan xalqının əsrlər boyu yaranmış olduğu bütün poeziyasını nəzərdən keçirsək, adi riyazi hesablamalar göstərər ki, bu irsin böyük əksəriyyəti məhz əruz vəzninin müxtəlif bəhrlərində yaranmışdır. Deməli, biz əruzla yazılmış hər hansı bir əsəri tərcümə edərkən, onun bizə yabançı olmayan vəznini də saxlamağa çalışmalıyıq...". Müəllif burada bir sıra əruzla yazılmış əsərlərdən sitatlar verir. Mirzə Fətəlinin "Şərq poeması"nın Mikayıl Müşfiq və Böyükağa Qasımzadə tərəfindən hecada, Cəfər Xəndan tərəfindən əruzda tərcümə edildiyini qeyd edir, eyni zamanda müqayisələr apararaq, tərcümələrə münasibətini bildirir

Mətnşünas alimin "Nadir bir əlyazma" adlı məqaləsində isə alimlərin, tədqiqatçıların nəzərindən yayınan Təskin təxəllüs şairin "Sərvü gül" adlı əsərindən bəhs edilir. O, Əlyazmalar İnstitutunda saxlanılan yeganə əlyazmanın təsvirini verir və əsərdən sitatlar gətirərək, onu təhlilə cəlb edir. .

"Azərbaycan və İran ədəbi əlaqələri tarixindən"(Əttar Nişaburi və Əhmədi Təbrizi) adlı yazısında XV əsr Azərbaycan şairi Əhmədi Təbrizinin "Əsrarnamə"sinin Fəridəddin Əttarın "Əsrarnamə"sinin tərcüməsi hesab edildiyini qeyd edən tərcüməçi alim həm Əttar, həm də Əhmədi haqqında və onların yaradıcılığı haqqında danışır, "Əsrarnamə"ləri müqayisə edib Əhmədinin əsərindəki cəmi üç hekayətin Əttarın əsərindəki hekayətlərə uyğun gəldiyini bildirir. Beləliklə, Əhmədinin əsərini özünə qaytaran tərcüməçi təkcə müəllifə deyil, Azərbaycan ədəbiyyatına böyük töhfə vermiş olur.

Müəllif məqalədə Əhmədi Təbrizinin Əttarın "Müsibətnamə" sindən seçib tərcümə etdiyi 14 hekayətin qısa məzmunu verir və bununla oxuculara və Əhmədi "Əsrarnamə"-sini Əttardan tərcümə olduğunu israr edən tədqiqatçılara Əhmədinin hekayət seçimi ilə tanış olmaq imkanı verir.

Bu kitabda mənim diqqətmi daha çox çəkən yazılar qədim təbabətlə bağlı məqalələrdir. Hər üç məqalədə qədim təbabətə aid dəyərli fikirlərə rast gəlirik. "Qədim dərman bitkilərinin sirləri"ndə qədim tibb tarixinə səyahət edən müəllif yazır: "Azərbaycan SSR Elmlər Akademiyasının Respublika Əlyazmalar Fondunda mühafizə edilən iki yüzdən artıq tibb əlyazmasının, demək olar ki, hamısında dərman bitkilərinin yarpaqları, kökləri, toxumları, gülləri, meyvələri və şirələri haqqında müfəssəl məlumat vardır. Bu gün bunlar bir növ unudulmuş halda yatıb qalmaqdadır".

İkinci məqalə "Tibbə aid qədim əlyazma" adlanır və burada bir sıra tibb kitablarından söz açılır. Əbu Əli ibn Sinanın "Qanun" əsərinin XIII əsrdə yazılmış mükəmməl üçüncü cildi, Mahmud ibn İlyasın "Kitabi-tibb" əsəri, Məhəmməd ibn Yusifin şeirlə yazılmış "Tibbi-Yusifi", Füzulinin "Söhbətül-əsmar" və "Səhhət və mərəz" əsərləri, Hacı Süleyman ibn Kürd Həsən Qacar İrəvaninin "Fəvaidül-hikmət" əsəri, və s. diqqətə çatdıran müəllif Məhəmməsd Yusif Şirvaninin 1712-ci ildə azərbaycanca qələmə aldığı "Tibbnamə" sindən bəhs edir.

Tədqiqatçı alimin "Klassik təbabətin tədqiqi problemlərinə dair" məqaləsi 1970-ci il oktyabrın 21-də AEA-da Əlyazmalar Fondunda dinlənilən orta əsr təbabətinə dair mühafizə edilən əlyazmalar haqqında məruzəsi(ixtisarla)dir. Burada müəllif orta əsr tibb əsərlərindən söz açır və Əlyazmalar Fondunda saxlanılan əsərlərin nəşrə hazırlanması, çapı və tədqiq edilməsi məsələsini qarşıya qoyur. Məqalənin sonunda Akademiya Rəyasət Heyətinin qərarı da verilmişdir.

Məmmədağa Sultanovun bu məqalələri, ümümiyyətlə kitaba daxil edilən bütün məqalələri maraqlı və gərəkli tədqiqat işləridir. Kitab mətnşünaslar, ədəbiyyatşünaslar, həkimlər, bu sahələrlə məşğul olan tələbə və aspirantlar üçün dəyərli vəsaitdir.

"Real-Press" qəzeti, 16.09.10.

✦✦✦

"MÜALİCATİ-MÜNFƏRİDƏ"

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun maraqlı nəşrlərindən biri İradə Qayıbovanın fars dilindən tərcümə etdiyi Əbülhəsən əl-Marağinin "Müalicati-münfəridə" əsəridir. Kitabın elmi redaktoru tarix elmləri doktoru Fərid Ələkbərovdur. Kitabın ön sözündə tərcüməçi "Sadə müalicə üsulları" adlanan kitab haqqında qısa məlumat verərək, XVIII əsr Azərbaycan müəllifi Əbülhəsən əl-Marağinin bu əsərinin orta əsr tibb elmi tarixində dəyərli mənbələrdən biri olduğunu qeyd edir.

Kitabın girişində peyğəmbəri mədh edən müəllif Mehriban və bağışlayan Allahın adı ilə sözə başlayır: "Duaları eşidən, bəla, müsibət və zərərlərdən qoruyan Allaha həmd olsun. Peyğəmbərlərin sonuncusuna və pakların səcdəgahına salavat və salamlar olsun. Bundan sonra isə kiçik və müti bəndəniz Əbülhəsən əl-Maraği - əbədi olan Allah onun günahlarını bağışlasın–belə söyləyir ki, hicri təqvimi ilə 1139-cu ildə İbn-Konyenin "Töhfə və məfatih" ("Töhfə və açarlar") əsəri kimi ərəb dilində olan kitablar, müəyyən təzkirələr və s. əsərlərdən topladığı məlumatlar əsasında bəzi məzacların sınaq və təcrübədən çıxmış sadə dərman və vasitələrlə müalicəsinə dair müxtəsər bir əsər yatardı və onu "Sadə müalicə üsulları" adlandırdı.

Kitab baş beyin xəstəlikləri ilə başlayır və burada başağ-

rısı, günvurmadan olan başağrı, miqren, meningit, amneziya, melanxoliya, epilepsiya, apopleksiya iflic, yuxuzuzluq, letargiya, əsmə, dəlilik, zökəm və s. zamanı lazım olan dərmanlar və müalicə üsulları verilir.

Sonra göz xəstəlikləri gəlir və konyuktivit, gözdə ağlıq, gözün sulanması, göz nahiyyəsində yara, göz vəzilərinin iltihabı, çəpgözlük, itdirsəyi, gözün saralması, qaşınma, göynəmə, gecəkorluğu, görmənin pisləşməsi, xəyalat halları, (hallüsinasiya, qarabasma) və s. zamanı lazım olan tədbirlərdən, istifadə olunan dərman vasitələrindən söz açılır.

Üçüncü yerdə qulaq xəstəlikləri gəlir. Burada qulaq ağrısı, uğultu, eşitmənin ağırlaşması, qulağa su dolma, qulağa həşərat girməsi, qulağın qaşınması, qulaq qan damarının partlaması və s. zamanı istifadə olunan dərmanlar qeyd olunur.

Burun xəstəliklərindən burunun irinləməsi, burun yarası, polip, fistul, burun xərçəngi, burun tutulması, göynəməsi, burundan qan açılması, burun quruması kimi patoloji hallarda görülən tədbirlər açıqlanır.

Ağız boşluğu və ağızətrafı xəstəliklərdə isə yara-xora, ağız suyunun axması, diş ətinin iltihabı, yaraları, qanaması, dilin iltihabı, şişməsi, dadbilmənin pozulması, di lin quruması, yanması, sızanaqlar, dodağın iltihabı, çat laması, pustula və yaranın əmələ gəlməsi, diş ağrısı, dişlərin ovulması, habelə ağızdan pis qoxu gələn hallarda işlədilən dərman vasitələri təqdim olunur.

Boğaz xəstəliklərindən iltihab, şişmə, qırtlaq qapağının düşməsi, səsin xırıldaması, batması, difteriya, qanhayxırma, habelə sudabatma, boğulma, hallarında görülən tədbirlər və istifadə olunan dərman vasitələri qeyd edilir.

Sinə xəstəliklərindən astma, öskürək, qanhayxırma, vərəm, təngnəfəslik, sətəlcəm, plevrit, süd vəzilərinin iltihabı və s. zamanı patoloji prosesləri aradan qaldırma üsulları və istifadə edilən dərman vasitələri verilir.

Ürək xəstəlikləri bəhsində ürək çırpıntısı, ürəkgetmə, ürək zəifliyi, ürəyin aşağı düşməsi, anadangəlmə şişlər zamanı istifadə edilən dərman vasitələri, təpitmələr göstərilir.

Mədə xəstəlikləri bölümündə mədə ağrısı, köpmə, bərkimə, iltihab, şiş, mədə bulanması, qusma, susuzluq, ishal, həzmin pozulması, mədə xoraları, qan qusma, iştahın pozulması, qıcqırma, mədədə qurdların olması, hıçqırma, gəyirmə və s. haqqında görülən tədbirlər verilir.

Qara ciyər xəstəliklərindən qara ciyərdə ağrı, iltihab, şişmə, bərkimə, keçməməzlik, böyümə, irinləmə, su yığılma olduqda, habelə öd kisəsi ilə bağlı patoloji hallarda, sarılıqda istifadə olunan dərman vasitələri bildirilir.

Kitabda dalaq xəstəliklərindən dalağın iltihabı, şişi, dalaq ağrısı, bağırsaq xəstəliklərindən ishal və onun müxtəlif şəkilləri, bağırsaq xorası, qarın sancıları, bağırsaq keçməməzliyi, bağırsaq qurdları, gödən xəstəlikləri bölümündəki iltihab, şiş, anusun çatlaması, xaricə çıxması, babasil, böyrək xəstəlikləri bölümündəki böyrək ağrısı, iltihabı, şişi, böyrək daşları, xoralar, sidik kisəsi xəstəliklərində şəkər, xoralar, şişlər, iltihabi proseslər, qanlı ifrazat, kisənin aşağı düşməsi zamanı istifadə edilən müalicə tədbirləri və dərman vasitələri qeyd olunur.

Tənasül alətləri xəstəlikləri bölümündə xayaların iltihabi prosesləri, böyüməsi, kiçilməsi, xaya yırtığı, yarıq, kəsik, yaralar, cinsiyyət orqanının keçməməzliyi, əyriliyi, sperma ifrazında baş verən patoloji hallar, ereksiya zəifliyi, cinsi həvəsin zəifliyi, cinsi əlaqə zamanı baş verən narahatlıqlar, atoniya, iradə zəifliyi və s. zamanı lazım olan vasitələr təqdim olunur.

Uşaqlıq xəstəlikləri bölümündə isə ağrılar, şiş və iltihabi proseslər, uşaqlıq qabarıqlığı, ifrazatın gəlməsi, uşaqlıq qanaxmaları, aybaşı tsiklinin pozulması, uşaqlıq xərçəngi, xo-

ralar, uşaqlıq çatlaması və babasili, uşaqlığın aşağı düşməsi, sonsuzluq və qısırlıq, çətin doğuş, hamiləliyə mane olan hallar, qadın heç hamilə qalmadıqda, uşaqlıq daralmaları hallarında görülən tədbirlər, dərman vasitələri, habelə hamiləliyin əlamətləri, spermanın əlamətləri, ana bətnindəki uşağın cinsiyyətini bildirən əlamətlər göstərilir.

Oynaq xəstəliklərindən kürək, diz, oma, ağrıları, podaqra, işyas, fil xəstəlikləri zamanı görülən tədbirlər qeyd olunur.

Qızdırmalar bölümündə günlük qızdırma, qan, bəlğəm, sövda və səfra mənşəli qızdırmalar, qarışıq qızdırma, şiş qızdırması, vəba, qızılça, çiçək, vərəm qızdırmaları, havanın hərarətindən olan qızdırma və s. hallarda görülən tədbirlər, istifadə olunan dərman vasitələri verilir.

Bədən üzvlərinin xarici xəstəlikləri bölümündə bədənin müxtəlif nahiyələrində dəridəki şişlər, urlar, iltihablar, sızanaqlar, irinliklər, yanıqlar, çibanlar, səpgilər, ət xallar, dəmrov, qoturluq, xərçəng, sifilis kimi xəstəliklər, habelə yaralanmalar, yıxılma və zərbə, çıxıqlar, sınıqlar, tikan, iynə, sümük batma, yanma, donma, cüzam, bit-birə zamanı işlədilən vasitələr göstərilir. Burada saçı gözəlləşdirən, tükün çıxmasına mane olan, dəridəki pis qoxuları aradan qaldıran vasitələr də verilir.

Heyvan zəhərləri bölümündə əqrəb, ilan, hörümçək, arı, qırxayaq və s. həşərat sancması və kərtəngələ, qurbağa, it, canavar, şir, pələng, gəlincik, quduz it, xərçəng, hətta adam dişləməsi zamanı görülən tədbirlər göstərilir və müxtəlif kimyəvi zəhərlərlə zəhərlənmələr zamanı istifadə edilən anti maddələr qeyd edilir.

Kitabda həşəratların qovulması, ayrıca bölmədə verililmişdir. Maraqlı bölümlərdən biri də ödqovucu, bəlğəmqovucu, sövdaqovucu, qanı təmizləyici, ishaledici, rütubətləndirici, quruducu vasitələrdir. Burada ödün, qanın, bəlğəmin,

sövdanın əlamətləri, böhran halları, hətta hadisələrə dair xəbərdarlıq, insan orqanizmində üzvlərin fəqaliyyətində müsbət və mənfi hallar, dərman hazırlarkən işlədilən çəki vahidləri, bəzi xəstəliklərdə işlənən xüsusi dərmanlar, bəzi üzvləri qüvvətləndirmək üçün istifadə edilən vasitələr haqqında dəyərli məlumatlar vardır.

Məzac bölümündə əsəbləri möhkəmləndirici, sakitləşdirici, ağrıkəsici, habelə ilan və həşəratqovucu vasitələr qeyd olunmuşdur.

Müəllif bəzi bölümlərdə Əlixan həkimbaşıdan, Yusif həkimdən, Seyid Mazandaranidən nəql edir, bəzi təcrübə edlmiş və uğurlu nəticə əldə edilmiş məqamları diqqətə çatdırır. Bəzi bölümlərdə xəstəliyin səbəbi, bəzən əlamətlər, bəzən dərmanların hazırlanma qaydası verilir. Burada qeyd olunan dərmanların əksəriyyəti bitki mənşəlidir, amma heyvan mənşəli və kimyəvi maddələr də vardır.

Kitabın sonunda tərcüməçi qeydlər və şərhlər vermişdir ki, bu da bəzi qaranlıq məqamları aydınladır. Kitab xalq təbabəti ilə müalicə olunmaq istəyən insanlar üçün, eyni zamanda bu sahə ilə məşğul olan tədqiqatçılar, alimlər, həkimlər üçün dəyərli vəsaitdir. Kitabda verilən bitki, heyvan, kimyəvi maddə adlarının çoxluğu tərcüməçinin olduqca çətin bir yük altına girdiyini, böyük zəhmət çəkdiyini, qətiyyətini, elmə məhəbbətini göstərir.

"Aydın fikir" qəzeti, 04.09.10.

✦✦✦

İKİ DƏYƏRLİ KİTAB

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnsitutu respublikamızın ən hörmətli elm ocaqlarından biridir. Burada 40 mindən artıq sənəd saxlanılır ki, onların da 12 mini əlyazmalardır. Əlyazma əsərlər institutun əməkdaşları tərə-

findən çapa hazırlanıb nəşr edilir. Burada ona yaxın elmlər doktoru, otuza yaxın elmlər namizədi və çoxlu tədqiqatçı gənclər çalışır. İnstitutda hər il elmi konfrans, dəyərli alimlərin yubileyləri və s. tədbirlər keçirilir. On ildən artıqdır ki, bu institutda çalışıram, amma hələ bu vaxta kimi burada kitab təqdimatının keçirildiyini görməmişdim. Amma bu dəfəki yığıncaq doğrudan da kitab təqdimatı idi. Amma hər gün müxtəlif ədəbi ocaqlarda keçirilən kitablardan deyildi. Bu tədbirdə ana dilimizin ən dəyərli yazılı abidələrindən olan "Şeyx Səfi təzkirəsi" və Füzuli dövrünün tanınmış şairlərindən olan Ruhi Bağdadinin Divanı təqdim olunurdu.

Klassik Azərbaycan tərcümə ədəbiyyatının gözəl nümunələrindən olan "Şeyx Səfi təzkirəsi"ni tərtib edib nəşrə hazırlayanlar institutumuzun farsdilli əlyazmalar şöbəsinin əməkdaşları filoogiya elmləri doktoru Möhsün Nağısoylu, filologiya elmləri namizədi Sevər Cabbarlı və Rauf Şeyxzamanlıdır, redaktor, izahları və lüğəti hazırlayan Möhsün Nağısoyludur. Bu, XIV əsr müəllifi İbn Bəzzaz Ərdəbilinin "Səfvətüs-səfa" adlı kitabıdır ki, Məhəmməd bin Hüseyn Katib Nişasti 1543-cü ildə onu türk dilinə tərcümə etmiş və adını "Şeyx Səfi təzkirəsi" qoymuşdur. Möhsün Nağısoylu kitaba yazdığı "Ana dilimizin dəyərli yazılı abidəsi" adlı ön sözdə XVI əsr Azərbaycan ədəbiyyatının təkcə poeziya nümunələri baxımından deyil, tərcümələrə görə də zəngin olduğunu vurğulayır və tərcümə əsərlərini diqqətə çatdırır. Bu tərcümələr içərisində sambalına və həcminin böyüklüyünə, məzmun və ideya-bədii dəyərinə görə xüsusi yer tutan "Şeyx Səfi təzkirəsi" haqqında bəhs açan müəllif yazır ki, təzkirədə XIII-XIV əsrlərdə Azərbaycanda baş verən olaylar, xalqın dünyagörüşü, dövrün tarixi və etnoqrafiyası, fəlsəfə və ədəbiyyatı ilə bağlı məsələlər, bir sıra tarixi şəxsiyyətlərin həyat fəaliyyəti dolğun əksini tapmışdır və bu tərcümə ədəbi dil

tariximizin araşdlrılması üçün əvəzsiz zəngin material verir.

Təzkirə haqqında ilkin qısa biblioqrafik məlumata Rusiya İmperatorluğu Elmlər Akademiyasının Sankt-Peterburq şəhərində nəşr olunan "Melandes Asiatiqies" bülleteninin 1869-cu il sayında rast gəlindiyini diqqətə çatdıran müəllif onu da qeyd edir ki: "Nişatinin "Şeyx Səfi təzkirəsi" tərcüməsi Azərbaycan elmi ictimaiyyətinə nisbətən son dövrlərdə -keçən yüzilliyin ikinci yarısında bəlli olmuşdur. Görkəmli dilçi-mətnşünas alim prof. S.Əlizadə 1965-ci ildə tamamladığı namizədlik dissertasiyasında Nişatinin bu tərcüməsinin Leninqrad (indiki Sankt-Peterburq) şəhərindəki Saltıkov-Şedrin adına kütləvi kitabxanada saxlanılan bir əlyazma haqqında məlumat verərək, onu ilk dəfə şərti olaraq "Şeyx Səfi təzkirəsi" adlandırmışdır. Tərcümə həmin vaxtdan Azərbaycanda elə bu adla da tanınmağa başlanmışdır". Təzkirə bismilləh rübaisi ilə başlayır:

Hər namə ki, anun əvvəli bismilləhdür,
Rəhmanü rəhim anun ilən həmrəhdür.
Əncamə yetər xeyrü səlahiyyət ilə,
Bu doğru sözümğə elmi-Həqq agəhdür.

"Bismillahir-rəhmanir-rəhim"dən sonra Allaha həmdü səna, arada şeir, nəzm, kəlam və tərcüməsi, beyt, nəhayət, kitabın tərtibi haqqında məlumat verilir. Kitab müqəddimə və on iki babdır. Müqəddimə iki fəsildən, əvvəlki bab 11 fəsildən, ikinci bab 2, üçüncü bab 3, dördüncü bab 6, beşinci bab 3, altıncı bab 1, yeddinci bab 5, səkkizinci bab 27, doqquzuncu bab 2, onuncu bab 3, on birinci bab 3, on ikinci bab 2 fəsildən ibarətdir.

Ayrı-ayrı bablarda Şeyx Səfiəddinin hələ dünyaya gəlməmişdən onun gələcəyi barədə verilmiş xəbərlərdən, dünyaya gəlməsindən, vilayətindən, onun keçirdiyi qeyri-adi

hallardan, onun kəramətlərindən, dediyi kəlamlardan, onunla bağlı rəvayətlərdən, mücahidəsindən, rizayətindən, fərasətindən, dualarının icabətindən, təqvasından, qənaətindən, yəqinindən, səbrindən, şükründən, heybətindən, himmətindən, vəfasından, xülqündən, dünyadan köçməsindən, onun həyatından sonra zahir olan kəramətlərindən, onun müridlərindən və s. söz açılır. Əsərdə o dövrə məxsus nəsr və şeirlə növbələşmə var. Əsərin dili o qədər də çətin deyildir, o dövrdə yazılan digər əsərlərə baxanda, nisbətən sadədir. Əsərdə verilən hekayətlər həm tarixilik baxımından, həm də tərbiyəvi əhəmiyyətinə görə qiymətlidir. Burada bir sıra alimlərdən, şairlərdən, filosoflardan məlumatlar da diqqətəşayandır. Ən çox sufi alim və şairlərə müraciət olunur. Əsər özü bütövlükdə sufizmin öyrənilməsi cəhətindən də əhəmiyyət kəsb edir. Əsərin sonunda verilən izahlar və lüğət də onun oxunmasını xeyli asanlaşdırır. Kitab mətnşünaslar, dilçilər, filosoflar, habelə bu sahədə çalışan tələbələr və aspirantlar üçün maraqlı, dəyərli vəsait ola bilər.

Əlyazmalar İnstitutunun türkdilli əlyazmalar şöbəsinin müdürü Azadə Musabəylinin "Ruhi Bağdadi: mühüti, həyatı, poetikası və Divanı" kitabının elmi redaktoru filologiya elmləri doktoru Məmməd Adilov, redaktoru Mehmet Rıhtım, rəyçiləri filologiya elmləri doktorları Kamandar Şərifli və Möhsün Nağısoyludur. Kitaba Nazim Hiklətin şeirini epiqraf secən müəllif ön sözdə klassik şeir tariximizə qısa ekskursiya edir, tədqiqat işində qarşıya qoyulan problemləri sadalayır və dörd bölümdən ibarət olan kitabın qısa təsvirini verir. Kitabın birinci bölümü "Bağdad ədəbi mühüti, azərbaycanlılar və Ruhi Bağdadi" adlanır.

"Bağdad ədəbi mühüti və azərbaycanlılar" yarımbölümündə Bağdad, onun tarixi, mədəniyyəti haqqında məlumat verən müəllif, orada yetişən tarixi şəxsiyyətlərdən, o cümlədən

şairlərdən söz açır. Füzuli, Əhdi Bağdadi, Şəmsi Bağdadi, Hüsni Bağdadi, Rindi Bağdadi, Zöhdi Bağdadi, Muradi Bağdadi, Hüzni Bağdadi, Fəzli Bağdadi, Elmi Bağdadi, Kəlayi Bağdadi, Zaeyi Bağdadi, Zehni Bağdadi və Həsiri ilə bağlı, onların həyatı, yaradıcılığı haqqında məlumat verir və şeirlərindən nümunələr göstərir. Burada Bağdad ədəbi mühütində yetişən şairlərin bir-biri ilə əlaqələri, bir-birinə münasibətləri, bir-birindən bəhrələnmələri və s. tərəflər işıqlandırılır.

Müəllif "Ruhi Bağdadinin həyatı və sənəti ilə bağlı bilgilərə və əsərlərinin nəşri problemlərinə bir nəzər" yarımbölümünü belə başlayır: "Ruhi bağdadi və ədəbi irsi dövründən başlayaraq araşdırıcıların diqqətini cəlb etmişdir. "Ruhi" təxəllüsü ilkin olaraq türkdilli təzkirələrdə Səhi bəyin 1538-ci ildə Türtkiyədə qələmə aldığı "Həşt behişt"in səkkizinci təbəqəsində, müəllifə nisbətən gənc, həm dıə qabiliyyətli şairlər sırasında anılır. Səhi bəyin "Mevlana Ruhi" kimi təqdim etdiyi şair Müfti Ali Çələbinin oğludur, adl Fazil, doğum yeri İstanbuldur. Müəllifin son dərəcə istedadlı və gözəl olması, Hicaz səfəri və s. ilə bağlı bəzi yazdıqlarına sonralar Ruhi Bağdadi haqqında söylənilənlərdə təsadüf olunur. Sözü gedən Ruhinin İstanbulda vəfat etməsi də məlumdur. Sadəcə, 1538-ci ildə yazılmış təzkirədəkiləri Ruhi Bağdadiyə aid etmək məntiqi və tarixi baxımdan düzgün sayıla bilməz (158, 15-16, 219-220). XVI-XVIII yüzilliklərdə yazılmış təzkirələr ondan məlumat verməkdədir". Sonra müəllifin müxtəlif mənbələri araşdırdığının və Ruhi Bağdadi ilə bağlı çox çətin, əziyyətli tədqiqatlardan sonra dəqiqləşmə aparıb həqiqi tarixləri müəyyən etdiyinin şahidi oluruq. Burada Əhdi Bağdadinin "Gülşəni-şüəra"sında, Kınalızadə Hasan Çələbinin "Təzkirə"sində, Şeyx Qalibin topladığı və Məhəmməd Əsrar Dədənin tamamladığı "Təzkireyi-şüərayi-mövləviyyə" və ya Əsrar Dədə "Təzkirə"sin-

də Ruhi Bağdadi haqqında olan maraqlı məlumatları müqayisə edib öz münasibətini bildirən müəllif, Ruhinin adına digər müəlliflərin, o cümlədən Ətainin "Hədiqətül-həqayiq fi təkmilətüş-şəqayiq"ində, Qazıəskər Məhmət Emin Salim "Təzkirə"sində, Katib Çələbinin məşhur "Kəşfüz-zünun"unda da rast gəlindiyini bildirir.

İkinci bölüm "Ruhi Bağdadinin əlyazma irsi və "Divan"ının tekstoloji tədqiqi" adlanır və üç yarımbölümdə təqdim olunur. Müəllif müxtəlif cünglərdə, məcmuələrdə, toplularda olan şeirlər haqqında sistemli şəkildə bilgi verir. Hətta əsərlərin olduğu mənbələri təsvir edir, az şeir olanlardan bir neçə beyt, bəzilərindən beyt, bir cüngdə 133 şeir olduğu üçün şeirlərin ilk misralarını verir. Sonra şairin "Divan"ının əlyazma nüsxələrinin elmi-paleoqrafik təsvirini təqdim edən müəllif, burada İstambul nüsxələrini, Konya, Berlin, Vatikan, Sankt-Peterburq nüsxələrini ayrı-ayrı diqqətə çatdırır. Daha sonra Ruhi Bağdadi "Divan"ının tekstoloji tədqiqini verən müəllif fonetik, leksik, ifadə, misra, beyt və mətn parçalarındakı dəyişiklikləri diqqətə çatdırır.

"Ruhi Bağdadinin poetikası və sənəti rakursunda həyatı" adlı üçüncü bölüm bizə şairin həyatı, dövrünün şairləri ilə münasibəti, yaradıcılıq xüsusiyyətləri haqqında dəyərli məlumatlar verir. Buradan məlum olur ki, Ruhi Bağdadi klassik şeirimizin bir sıra növlərində və əruzun on bəhrində əsər yazmışdır. Şair klassik ənəməni layiqincə davam etdirmiş və ədəbiyyat tariximizdə özünəməxsus yer tutur.

Kitabın dördüncü bölümündə Ruhi Bağdadinin "Divan"ının transfoneliterasiyası verilmiş, kitabın sonuna müəllifin son sözü, qaynaqlar və ədəbiyyat, ingilis dilində xülasə daxil edilmişdir. Kitab tədqiqatçı alimlər, tələbələr, aspirantlar, habelə klassik şeir həvəskarları üçün dəyərli mənbədir.

"Real-Press" qəzeti, 31.08.10.

✦✦✦

“KİTABÜN-NƏSAYEH”

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun son nəşrlərindən biri Mirzə Nəsrulla Didənin “Kitabün-Nəsayeh” (“Nəsihətlər kitabı”) əsəridir. F.e.d. Möhsün Nağısoylunun və Tutu Sadıqovanın nəşrə hazırladıqları və f.e.d. Azadə Musayevanın redaktorluğu ilə çap olunan bu kitab əxlaqi-didaktik mövzuda olub, gənc nəslin təlim-tərbiyə məsələlərinə həsr olunmuşdur. Möhsün Nağısoylu kitaba yazdığı “Mirzə Nəsrulla Didə və onun “Kitabün-nəsayeh” əsəri adlı ön sözdə XIX əsrin istedadlı şairi, maarifçi ziyalısı Mirzə Nəsrulla Qurbanbəyovun həyatından qısa epizodlar verir. Buradan məlum olur ki, Mirzə Nəsrulla Didə 1797-ci ildə Şamaxının Fit dağı adlanan ərazisində ziyalı ailəsində anadan olub. Atası Qurban bəy Şirvan xanı Mustafa xanın (1792-1820) sarayında katib vəzifəsində çalışmış, küçə savaşında öldürüldüyündən uşaqlarını Mustafa xan öz himayəsinə götürmüşdür. Mustafa xan Nəsrullanın istedadını görüb, onu Təbrizə oxumağa göndərir. Orada mükəmməl təhsil alan, ərəb-fars dillərini öyrənən Nəsrulla Şamaxıya qayıtdıqdan sonra da savadını artırır, rus dilini öyrənir. Seyid Əzim Şirvani təzkirəsində onu “sahibi-mənsəb və sahibnişin kimsə” adlandırmışdır. Mirzə Nəsrulla dövlət qulluğunda çalışmış, təqaüdə çıxdıqdan sonra bir məhəllədə məktəb açıb orada müəllim olmuş, 1875-ci ildə Şamaxıda vəfat etmişdir.

Didənin ədəbi irsi aşiqanə və ictimai məzmunlu şeirlərdən və “Kitabün-nəsayeh”dən ibarətdir. Möhsün Nağısoylu ön sözdə bu kitab haqqında geniş məlumat verir.

Kitab Əlyazmalar İnstitutunda saxlanılan yeganə əlyazma əsasında nəşrə hazırlanmışdır. Dibaçə, “Əhsən sifatə şa-

mildir” və “Yaman sifətlərə müstəməldir” adlı iki fəsil və xatimədən ibarətdir. Hər fəsildə 12 bab vardır. Kitabın sonunda böyük lüğət verilmişdir.

“Ədəbiyyat qəzeti”, 03.07.09.

✦✦✦

“MƏCMƏÜL-XƏVAS”

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəşri olan Sadiq bəy Əfşarın “Məcməül-xəvas” təzkirəsi institutun əməkdaşı, filologiya elmləri namizədi Əkrəm Bağırovun tərtibatı və AMEA-nın müxbir üzvü Teymur Kərimlinin redaktorluğu ilə çap olunmuşdur. Əkrəm Bağırov kitaba yazdığı “Sadiq bəy Əfşar və onun təzkirəsi” adlı ön sözdə həm Sadiq bəy haqqında, həm də onun təzkirəsi ilə bağlı maraqlı məlumatlar verir. Əsərin Təbriz əlyazma külliyyat nüsxəsi əsas götürülərək, doktor Əbdürrəsul Xəyyampurun Təbrizdə çap etdirdiyi mətn ilə müqayisə edilib nəşrə hazırlanan bu kitab XVI-XVII əsr Azərbaycan şairi, ədəbiyyatşünası, rəssamı və kitabdarı Sadiq bəy Sadiqinin Azərbaycan oxucularına tanıdılması üçün sanballı vəsaitdir. Əsər səkkiz məcmuədən, müqəsddimə və xatimədən ibarətdir. Müəllif müqəddimədə yazır: ”O böyük Allaha həmd və dua etdikdən sonra Sadiqi kitabdar fats və türk müəlliflərinin yazdıqları bu təzkirələri böyük hörmətlə yad edir: Əbdürrəhman Caminin “Baharıstan” əsərinin bir rövzəsi, Əlişir Nəvainin “Məcalisün-nəfais”, Dövlətşah təzkirəsi, “Töhfeyi-Sami. Müəllif burada əsəri I Şah Abbas dövründə bitirdiyini qeyd eytmişdir.

Təzkirənin birinci məcmuəsində şairlik istedadı olan müasir padşahlardan söz açılır və onların əsərlərindən nümunələr verilir. Burada Adil, Fəhmi, Adili, Mühibbi, Sipehri və s. təxəllüs müxtəlif şahların şeirləri ilə tanış oluruq.

İkinci məcmuədə isə bir sıra şahzadələr və onların şeir

nümunələri təqdim olunur: Bəhram Mirzə, Alxas Mirzə, Sam Mirzə və s.

Üçüncü məcmuədə səltənət sütunu olan türklər haqqında, onların soyları, hansı şahlarla qohumluqları, hansı sənət sahəsində məşhur olmaları haqqında məlumat əldə edirik. Təkəlu, Fiqari, Qüyuri, Məzaqi, Çavuşlu, Qumri, Əmani təxəllüs şairlərin şeirlərindən nümunələri oxuyuruq.

Dördüncü məcmuədə yüksək mənsəbli iranlıllar haqqında, onların nəsilləri, sənətləri, mövqeləri barəsində məlumat alırıq. Burada Cahan, Səlman, Əşrəf, Əfzəl, Münşi, Qərari, Salehi, Qazi, Feyzi, Məsihi, Şəfai, Kaşi, Kami, Mərdümi, Ricai, Niyazi, Ərşi təxəllüs şairlərin şeirlərindən nümunələr verilmişdir.

Kitabın beşinci məcmuəsi səltənət sütunu olan türklərin və iranlıların övladlarına həsr olunmuşdur. Burada bir sıra xanlar və bəylər haqqında bilgilər verilmiş və Qəşəmi, Sadiq, Şüştəri və s. təxəllüs şairlərin şeirlərindən nümunələr təqdim olunmuşdur.

Altıncı məcmuə peyğəmbər nəslindən olan şairlər haqqındadır və burada onların Suni, Hüzuri, Əşki, Razi, Həzini, Ələvi, Kəskəni, Valehi, Kərəndudi, Kaşi, Qürbi, Nəcəfi, Bəqai, Munha, Cəzmi, Bəzmi, Yəzdi, Sadiq, Məhvi, Dürdi, Füzuni, Füruği, Nəcdi, Qüdsi kimi mümayəndələrinin şeirləri və haqqında məlumat verilmişdir.

Yeddinci məcmuədə türk, fars, ərəb dillərində söz demək qüdrətinə malik olub, ərəb və əcəmdə şöhrət tapmış türk şairləri və onların yaradıcılığı haqqında bəhs açılmış, ilkin sırada Məhəmməd Füzuli təqdim olunmuşdur. Daha sonra Meyli, Ənisi, Haləti, Müqimi, Sani, Füsuni, Rumi, Baqqi, Rəğmi, Kərami, Şəkibi, Bali, Şəmsi, Dürdi, Tənhayi və s. şairlər haqqında məlumat verilmişdir.

Səkkizinci məcmuə əcəmin müasir fəsahət və bəlağət sahibləri haqqındadır.

Xatimədə müəllif təvazökarlıqla öz şeirlərini təqdim edərək yazır: ”Bu təzkirənin müəllifi Sadiqi rəva görmədi ki, bu şairlər cərgəsindən kənarda qalsın və bu səbəbdən də öz şeirlərindən bir neçə beyti acizanə üzr və təvazökarlıqla şeir əhlinin xidmətinə çatdırır və ümüd edir ki, özünütərif və özünüöymə kimi qiymətləndirilməyəcək”.

Kitabın sonunda Sadiq bəy Əfşarın Təbriz əlyazma külliyyatına əlavə olunmuş türk-osmanlı şairlərinin siyahısı, ədəbiyyat siyahısı, adlar göstəricisi və əlyazma nümunələri verilmişdir.

“Ədəbiyyat qəzeti”, 24. 04.09.

✦✦✦

ÖTƏN İLİN SON NƏŞRLƏRİNDƏN

Əlyazmalar İnstitutunun ötən ilin son nəşrlərindən biri filologiya elmlri namizədi Paşa Kərimovun və Arif Ramazanovun nəşrə hazırladıqları İmadüddövlə Mirzə Məhəmməd Tahir Vəhid Qəzvininin “Divan”ıdır. Paşa Kərimov kitaba yazdığı Vəhid Qəzvini və onun divanı” adlı geniş həcmli ön sözdə XVII əsrin görkəmli dövlət xadimi, tarixçi və şair kimi tanınmış Vəhid Qəzvininin həyatından, fəaliyyətindən və yaradıcılığından söz açır, onun haqqında məlumatlar və yaradıcılığından nümunələr olan mənbələrdən danışır, külliyyatının məlum nüsxələri saxlanılan xəzinələri diqqətə çatdırır. Buradan məlum olur ki, Vəhid Qəzvininin farsca və türkcə divanları, hesab elminə dair dərsliyi, sonuncu hissəsi “Abbasnamə” kimi məşhurlaşan Riyazəti-təvarix” (Tarixlər bağçası) adlı tarixi əsəri, “Münşəat”ı, “Xəlvəti-raz”, “Nazü niyaz”, “Gülzariə Abbasi”, “Dər vəsfi-Humayun tərə”, “Dər tərifi-nərd”, “Fəthnameyi-Qəndəhar”, “Dər zikri və məsrəfi-ədəvati-cəngi” adlı farsca poemaları vardır. Müəllif Lütfəli bəy Azərin, Şeyx Məhəmməd Həzininin,

Nəsrabadinin, Məhəmmədəli Tərbiyətin və digər tədqiqatçı və təzkirə müəlliflərinin dolğun, dəyərli məlumatlarına istinad edərək, qəzvininin ədəbi irsiə çıraq tutur və irsin Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda, Berlin Dövlət Kitabxanasının əlyazmalar xəzinəsində, Təbriz Milli Kitabxanasında və digər əlyazma xəzinələrində qorunub saxlandığını diqqətə çatdırır. Paşa Kərimov Qəzvininin əsərlərinin əlyazma nüsxələrini və onun haqqında olan məlumatları müqayisəli şəkildə tədqiqata cəlb etmişdir. Ön sözə əlavə olunmuş ədəbiyyat siyahısına nəzər yetirdikdə müəllifin əhatəli tədqiqat işi apardığının şahidi oluruq. Ön sözdə, demək olar ki, Vəhid Qəzvininin həyat və yaradıcılığının əsas nöqtələri, türkcə divanı haqqında dolğun məlumat oxuculara çatdırılır.

Vəhid Qəzvininin bu kitabda təqdim olunan türkcə "Divan"ı 140 beytlik məsnəvi, 3 qəsidə, qəzəllər, qitələr, nəzmlər və təkbeytlərdən ibarətdir. Kitab tədqiqatçılar, habelə klassik şeir həvəskarları üçün dəyərli töhfədir.

Dəyərli nəşrlərdən biri də instittumuzun digər əməkdaşı Raqub Kərimovun "Abdulla bəy Asinin həyatı və yaradıcılığı" adlı kitabıdır. Kitabın redaktoru filologiya elmləri doktoru Möhsün Nağısoylu, rəyçiləri filologiya elmləri doktoru Nəsib Göyüşov və dosent Sabir Rüstəmoğludur. Burada müəllifin Abdulla bəy Asinin həyat və yaradıcılığını əks etdirən monoqrafik yazısı, həm də şairin şeirləri verilmişdir. Şairin həyat və yaradıcılığına güzgü tutan müəllif şairi oxuculara təqdim etmək üçün Mir Möhsün Nəvvab, Firudin bəy Köçərli, Salman Mümtaz, Müctəhidzadə, Seyid Əzim Şirvani kimi təzkirə müəlliflərinin və tədqiqatçıların məlumatlarını araşdırmışdır. Müəllifin verdiyi məlumatdan aydın olur ki, Asinin bir şair kimi yetişməsində ana babası Qasım bəy Zakirin xüsusi rolu olmuşdur. Qarabağın dilbər

guşəsi olan Şuşada anadan olub boya-başa çastan Asi, xan ailəsinə yaxın olsa da, məşəqqətli bir həyat tərzi keçirmişdir. Onun həyatı haqqında o qədər də geniş məlumat yoxdur. Raqub Kərimov müxtəlif mənbələrdən əldə edilən məlumatları tutuşdurmuş, müqayisələr apararaq konkret nəticə əldə etməyə çalışmış, şairin yaradıcılığından bəhs edərkən fəlsəfi məqamlara da diqqət yetirmişdir. O müxtəlif bölgə şairlərinin Asiyə verdiyi qiyməti də diqqətə çatdırmış, o cümlədən Şirvan şairlərinin ona rəğbətini qeyd etmişdir. Müəllif şairin yaradıcılığından danışarkən onun bəhri-təvil yaradıcılığı üzərində də dayanmış, dəyərli fikirlərini bildirmişdir. Bir sözlə, müəllif istər klassik şeirimizin, istərsə də aşıq şeirimizin ənənələrini sədaqətlə davam etdirən Abdulla bəy Asinin sələflərindən bəhrələndiyini və xələflərinə örnək olacaq səviyyədə sənətkar olduğunu diqqətə çatdırmışdır.

Kitabın ikinci hisasəsində Asinin şeirləri verilmişdir ki, burada qəzəllər, müxəmməslər, tərcibəndlər, təcnislər, bəhri-təvillər, mərsiyələr, həcvlər, məktublaşmalar, şairin cığatay dilində şeirləri vardır. Kitaba şairin avtoqraflartı və farsca şeirlərinin fotofaksimilesi də daxil edilmişdir. Kitab klassik şeiri sevənlər üçün dəyərli hədioyyədir.

"Ədəbiyyat qəzeti", 05.02.10

✦✦✦

KLASSİK ŞEİR HƏVƏSKARLARI ÜÇÜN XVII ƏSR AZƏRBAYCAN LİRİKASI

Əlyazmalar İnstitutunun son zamanlar oxuculara təqdim etdiyi dəyərli kitablardan biri "XVII əsr Azərbaycan lirikası"dır. 24 şairin ədəbi irsindən nümunələrin və həmin şairlər haqqında qısa məlumatların daxil edildiyi bu antologiya bizə bir sıra az tanınan müəllifləri təqdim etmək baxımından təqdirəlayiqdir. Kitabın tərtibçiləri və ön söz

müəllifləri f.e.n. Paşa Kərimov və Məhəmmədəli Hüseyni, redaktoru f.e.d. Məmməd Adilovdur.

Kitabın ön sözündə qısa tarixi arayış verən müəlliflər, haqqında söz açdıqları şairlərin öz dövrlərindəkı fəaliyyətinə də nəzər yetirmiş, bu zaman bir sıra müəlliflərin tədqiqatlarına müraciət etmişlər. ”Danişməndani-Azərbaycan” təzkirəsinin müəllifi Məhəmmədəli Tərbiyətin, Məhəmməd Fuad Köprülüzadənin, Salman Mümtazın, İsmayıl Hikmətin, Həmid Araslının və b. tədqiqatçıların fikirlərinə istinad edilərək, bəzi ədəbiyyat tarixinə düşməyən şairlər haqqında maraqlı məlumatlar verilmişdir. Həm rus, həm türk, həm də azərbaycandilli ədəbiyyatlardan istifadə edən müəlliflər bütün əsri əhatə etməyə çalışmış və ortaya sanballı bir antologiya qoymuşlar.

Kitaba daxil edilmiş əsərlər içərisində istər Fədainin “Bəxtiyarnamə”sindən parça, istər Sadiq bəy Əfşarın, Rəhmətinin, Məsihinin, Zəfərin, Tərzi Əfşarın, Müsahib Gəncəvinin, Məczubun, Saleh Təbrizinin, Məlik bəy Avçının, Vaiz Qəzvininin, Səfinin, Mürtəzaqulu Sultan Şamlunun qəzəlləri və eləcə də tanınmış klassiklərimizdən Qövsi Təbrizinin, Saib Təbrizinin, aşıqlardan Abbas Tufarqanlının, Sarı Aşığın müxtəlif janrlarda şeir nümunələri oxucular üçün maraqlıdır.

Əlyazmalar İnstitutunun nəşri olan İsmayıl bəy Nakamın “Fərhad və Şirin” əsərini f.e.n. Yolçu Piriyev nəşrə hazırlamışdır. Kitabın redaktoru f.e.n. İsmayıl İsmayılovdur. Yolçu Piriyev kitaba yazdığı “Nakamın “Fərhad və Şirin” poeması haqqında” adlı ön sözdə həm şairin həyatı, həm də yaradıcılığı haqqında söz açır, qismən də olsa, oxucuları məlumatlandırır. Ön sözdən məlum olur ki, İsmayıl bəy Nakam(1839-1906) klassik üslubda qəzəl, qəsidə, qitə, mənzum hekayətlər yazmış, sağlığında əsərləri çap olunmamış, ancaq əlyazma şəklində köçürülüb yayılmışdır. Şairin

əsərləri Əlyazmalar İnstitutunda, eyni zamanda xarici ölkə kitabxanalarında qorunub saxlanılır.

"Fərhad və Şirin" poeması da şairin "Mərifət xəzinəsi" və "Məcnun və Leyli" əsərləri kimi Nizami Gəncəvinin poemasına nəzirə olaraq yazılmışdır. Ön sözdə bu əsər haqqında bəhs açan müəllif sözünü belə yekunlaşdırır: "Göründüyü kimi, İsmayıl bəy Nakam XIX əsr Azərbaycan poeziyasında klassik ənənələri davam etdirməklə yanaşı, həm də öz dövrünün hadisələrinə münasibət bildirmiş, dil, üslub və sənətkarlıq baxımından maraqlı bir irs qoyub getmiş, beləliklə də öz əsrinin poeziyasının zənginləşməsinə öz töhfəsini vermişdir."

Əsər girişlə başlayır, sonra Allaha müraciət, Münacat, daha sonra peyğəmbərin nəti, meracnamə və kitabın yazılma səbəbini açıqlayan hissə gəlir. Əsər o qədər də böyük həcmdə deyildir, amma ön sözdə deyildiyi kimi dövrünün olaylarına münasibətdə diqqətçəkici məqamlar baxımından daha maraqlıdır. XIX əsrdə də belə əsərlərin yazılması bir də o cəhətdən dəyərlidir ki, keçmiş klassik ənənələr unudulmur, zaman-zaman yaşadılır.

Vasif Quliyevin redaktorluğu ilə çap olunmuş Məşədi Məhəmməd Bülbülün "Əsərləri"nin ön söz, tərtib və tərcüməsi dosent Raqub Kərimovundur. Kitabın elmi redaktorları f.e.d. Möhsün Nağısoylu və Ruqiyyə Nağıyevadır.

Ön sözdə müəllif şairin həyat və yaradıcılığından, onun ədəbi irsindən, şair haqqında aparılan tədqiqatlardan danışır. Ən çox tədqiqatçı Firuzə Həsənovanın məlumatlarına, tədqiqatlarına istinad edir. Kitaba həmin tədqiqatçının "Məhəmməd Bülbülün həyat və yaradıcılığı" adlı məqaləsi də daxil edilmişdir. Bu yazı şair haqqında daha ətraflı məlumat verir. Kitabda elmi redaktorun qeydindən bilinir ki, şairin əlyazmasında olan azərbaycanca şeirləri Firuzə xanım

transfoliterasiya etmişdir, farsca şeirlərin tərcüməsi isə Raqub Kərimova məxsusdur. Kitabda da əvvəlcə azərbaycanca, sonra farsca şeirlər verilmişdir. Kitabdakı əsərlərin böyük əksəriyyəti azərbaycanca şeirlərdir ki, bunlar da qəzəllər, iki qəsidə, bir mənzum məktub, bir tərcibənd, üç rübaidən, farsca şeirlər isə qəzəllər, rübailər, məsnəvilər, tərcibənd və mərsiyədən ibarətdir. Kitabın sonunda isə əlyazmaların fotofaksimilesi verilmişdir. Kitab klassik şeir həvəskarları üçün olduqca dəyərli hədiyyədir.

"Ədəbiyyat qəzeti", 11.09.09.

✦✦✦

ƏLYAZMALAR İNSTİTUTUNUN YENİ NƏŞRLƏRİNDƏN

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun oxuculara təqdim etdiyi kitablardan biri f.e.d. Cənnət Nağıyevanın "Həsən bəy Zərdabi arxivinin təsviri" kitabıdır. Kitabın redaktoru Arxivlər şöbəsinin müdiri f.e.n. Mehri Məmmədovadır. Cənnət xanım "Həsən bəy Zərdabinin arxivi haqqında" adlı yazısında institutda saxlanılan əlyazmalar, o cümlədən şəxsi fondlar haqqında qısa arayış verdikdən sonra birbaşa arxiv haqqında məlumat verir. Daha sonra arxivin təsviri ilə tanış oluruq.

Kitabda ən əvvəl Zərdabinin "tərcümeyi-hal"ları, məqalələri, felyetonları təsvir edilmişdir. Sonra müxtəlif şəxslərə yazdığı məktubların təsvirini görürük ki, bunlar Mirzə Fətəli Axundova və naməlum şəxsə yazılmışdır.

Kitabda Həsən bəy Zərdabiyə göndərilmiş 89 məktubun təsviri yer alır ki, bunların arasında Mirzə Kazım Abdinov, Əsgər Gorani, Abdulla ağa Bakıxanov, Nəcəf Vəzirov, Əli bəy Qutqaşinski, Q.Edel, Məhəmməd Tağı Əlizadə, Zeynal

bəy Yeqanbəyov, A.Yegizarov, Abdulla Mehmandarov, V.Moseviç, Seyid Əzim Şirvani, X.Sink, Səid Ünsizadə, İsgəndər xan Xoyski, İsay Sultan Şaxtaxtinski, və başqalarının məktubları vardır.

Oxucular kitabda Həsən bəy Zərdabinin şəxsiyyətinə aid müxtəlif sənədlərin təsviri ilə də tanış ola bilərlər: arxiv sənədləri, diplom, attestat, vəsiyyətnamə, matəm lenti, təliqə, şəhadətnamələr, Qafqaz Senzura komitəsinin icazə sənədləri və s.

Həsən bəy Zərdabinin vəfatı münasibəti ilə Hənifə xanıma göndərilmiş teleqramlar və məktublar da ayrıca bölmədə təsvir olunmuşdur. Burada Jukovların, Peterburq müsəlmanlarının, Peterburqdakı müsəlman tələbələrin, Pələvəndovların, Şapayevlərin, Amarzi, Əfəndiyev, Axund Tuqayev, İbrahim Urusbayev və başqalarının teleqramları, Ömər bəy Əhmədbəyovun, İ.İsgəndərovun, Həqqinin və b. məktubları vardır.

Kitaba daha sonra "Əkinçi" qəzetinə göndərilmiş 57 məktub, məqalə və hekayənin təsviri daxil edilmişdir. Burada Abbas bəy Qarabaği, Əsgər Gorani, Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Əzudi Əbu Saleh, Məhbus Dərbəndi, Xəlil bəy Sadıqbəyov, Hadiül-Müzillin Qarabaği, Həsən Əl-Qədari, Şeyxülislam Axund Əhməd Hüseynzadə və başqalarının yazıları vardır. Son bölümdə isə 21 müxtəlif sənədin təsviri yer alır. Kitab Həsən bəy Zərdabinin həyatı, fəaliyyəti ilə bağlı məlumatlar almaq baxımından maraqlananlara yaxından kömək edə bilər.

Yeni nəşrlərdən biri də f.e.n. Tahirə Nurəliyevanın "Vəqf olunmuş əlyazmalar kataloqu" kitabıdır. Bu hələlik birinci cilddir. Kitabın elmi redaktoru f.e.d. Nəsib Göyüşov, redaktoru Firəngiz Xəlilova, rəyçiləri filologiya elmləri doktorları Cənnət Nağıyeva və Kamandar Şərifovdur. Ərəbcə vəqf qeydlərini Arif Ramazanov tərcümə etmişdir. Kitaba

instituta bağışlanmış əlyazmaların təsviri daxil edilmişdir. Müəllif kitaba geniş müqəddimə yazmış, burada "vəqf" anlayışına da açıqlama gətirmiş, kataloqun əsər adına görə əlifba sırası ilə tərtib olunduğunu, əsərin göstəricilərinin qeyd olunduğunu və kataloqda Müqəddəs Quran nüsxələrinin təsvirinin əvvəldə verildiyini diqqətə çatdırmışdır.

Kitabda əvvəldə ərəb dilində altı Quranın, on yeddi ayrı-ayrı cüzvün, Quranın axırıncı surəsinin müxtəsər şərhinin və Fatihə surəsinin təfsirinin əlyazmalarının təsviri verilmişdir. Sonra müxtəlif dillərdə bir sıra əsərlərin əlyazmasının təsvirini görürük ki, bunların sırasında fars dilində Sədinin "Gülüstan"ı, "Bustan"ı, Hafiz Şirazinin "Divan"ı, Nizaminin "Xəmsə"si, Əbdürrəhman Caminin "Divan"ı, Əlişir Nəvainin özbək dilində "Divan"ı, Şah İsmayıl Xətainin türk dilində "Divan"ı, ərəb dilində müxtəlif elmi, dini, tarixi əsərlər vardır.

Kitabın sonunda möhürlərin, vəqf qeydlərinin fotosurətləri, vəqf sahiblərinin adları da verilmişdir. Kitabın tərtibindən görünür ki, müəllif bu işə uzun illər və gərgin əmək sərf etmişdir. Çünki, kitabda gedən təsvirlərdə əhatəli məlumat vardır. Belə ki, müəllif əlyazmaların ölçülərini, həcmlərini, vərəqlərin rəngini, yazının xəttini, hansı rəngdə mürəkkəblə yazıldığını, ara-sıra mürəkkəbin dəyişildiyini, cildin materialını, rəngini, sonradan bərpa olunub-olunmamasını belə diqqətlə izləmiş, qələmə almış və əlyazmaların tarixlərini, eləcə də müəlliflərin və katiblərin adlarını dəqiqləşdirməyə çalışmış, istədiyinə nail olmuşdur. Kitab mətnşünaslığa dəyərli hədiyyədir. Yeni əlyazmalarla işləmək istəyənlər üçün gözəl bələdçi ola bilər.

"Ədəbiyyat qəzeti", 16.10.09.

✦✦✦

ƏSKİ ÇAP KİTABLARI KATALOQU
(I – II cildlər)

Əlyazmalar İnstitutunun diqqəti cəlb edən dəyərli işlərindən biri də kataloqların nəşrə hazırlanması və çap etdirilib oxuculara çatdırılmasıdır. Ərəbdilli, farsdilli, türkdilli əlyazma kataloqları, vəqf olunmuş əlyazmalar kataloqu haqqında oxucuları məlumatlandırmışdıq. Bu yazımızda isə institutun nəşrlərindən olan "Əski çap kitabları kataloqu"ndan söz açmaq istəyirik. Birinci cilddə institutun əski çap kitabları bölməsində saxlanılan türkdilli kitabların təsviri yer almışdır. Kitabların elmi-paleoqrafik təsvirini mərhum mətnşünas filologiya elmləri doktoru Əzizağa Məmmədov hazırlamış, kitabın redaktoru və tərtibçisi isə filologiya elmləri doktoru Məmməd Adilovdur.

Redaktorun kitabın əvvəlində verilmiş yazısında Əzizağa Məmmədovun həyat və yaradıcılığı haqqında qısa məlumatla tanış oluruq. Burada həm də kitabın alimin yubileyi günlərinə töhfə olaraq nəşr olunduğu vurğulanır. Məmməd Adilov daha sonra institutdakı əski çap kitablarından söz açır, "Türk, ərəb, fars, rus və Avropa dillərində nəşr olunmuş bu kitabların əksər hissəsi hazırda nadir nəşrlər səviyyəsində özündə əlyazmalar qədər qiymətli informasiya daşıyır." qənaətini bildirir. Kitabların dünyanın böyük mədəniyyət mərkəzləri olan İstanbul, Təbriz, Daşkənd, Qahirə, Moskva, London, Vyana və s. şəhərlərdə nəşr olunduğunu diqqətə çatdıran müəllif bu qiymətli incilərin qeydə alınıb kataloqlaşdırılmasını və kataloqların nəşrini Əlyazmalar İnstitutunun qarşısında duran əsas vəzifələrdən hesab edir.

Kataloqun tərtibi kitabların əhatə etdiyi sahələrə görə

qruplaşmasına əsaslanır: bədii ədəbiyyat, dilçilik və leksikoqrafiya, ədəbiyyatşünaslıq, tarix, ilahiyyat, fəlsəfə, dərsliklər və dərs vəsaitləri, bioqrafik əsərlər, ictimaiyyət, pedaqogika, etika, təzkirələr, münşəat, coğrafiya, səyahətnamələr, asariətiqə, kataloqlar və müxtəlif mövzularda kitablar. Burada A. Şaiqin, M.Sidqinin, C.Məmmədquluzadənin. M.F.Axundovun, Ə.Müznibin, Y.Çəmənzəminlinin, M.Ə.Sabirin, H.Cavidin, Ü.Hacıbəyovun, Xalidə Ədibin, Rəşad Nurinin və s., xarici yazarlardan F.Minard, M.Tven, P.N.Polevoy, E.Renan, L.Tolstoy, A.Düma, C.Zeydan, V.Hüqonun kitabları, eləcə də "Kitabi-Dədəm Qorqud" , "Oğuznamə" və s. əski əlifbada çap olunmuş kitabların təsviri yer alır. Dilçilik bölümündə əsasən lüğət kitablarının üstünlük təşkil etdiyini görürük, bunlar da Bakı və İstanbul çaplarıdır. Ədəbiyyatşünaslıqda F.Köçərlinin, M.F.Axundovun, İ.Hikmətin, M.F. Köprülüzadənin, N.Vəzirovun, M.Fəhminin, S.Fəhminin və bir sıra folklorla bağlı kitabların təsvirləri verilmişdir. Tarix bölümündə Əhməd Cövdət paşanın, Doktor Rza Nurinin, Əhməd Rəfiqin, Əhməd Rasimin, Təbəri Əbu Cəfər Məhəmməd ibn Cəririn, Məhəmməd Muradın, Əli Rəşadın, Hammerin, Leone Qaetaninin, Kamalın, Xeyrulla Əfəndinin, Zakir Süleymanın, Əhməd Raşidin və s. alimlərin daha çox kitabları ilə tanış oluruq. İlahiyyat bölümündə Hacı Şeyx Həsən Mollazadə Gəncəvinin, Ə.Axundzadənin, M.H.Bakuvinin və s. din xadimlərinin kitabları yer alır.

Digər bölümlərdə kəmiyyət azlığı müşahidə olunur. Amma bütün sahələrdə dəyərli kitabların olduğunu görürük. Burada müəlliflərin adlarını uzun-uzadı sıralamaqda məqsədimiz budur ki, mütəxəssislər onlara lazım olan kitabları harada axtaracaqlarını bilsinlər. Bu kataloqa daxil edilmiş elə kitablar var ki, onları oxumağa, hətta əski əlifbadan

çevirib çap etməyə də dəyər.

Əski çap kitabları kataloqunun ikinci cildində farsdilli kitabların təsvirləri verilmişdir. Kataloqun tərtibçisi tarix elmləri namizədi Tahirə Həsənzadədir. Tərtibçi kitaba yazdığı ön sözdə ümumi kitab çapı ilə bağlı qısa məlumatından sonra Əlyazmalar İnstitutunda saxlanılan əski çap kitablarından söz açır və "...Əlyazmalar İnstitutu farsdilli kitablar xəzinəsindəki ilk nəşrlərinə görə keçmiş SSRİ-nin bir sıra kitab xəzinələrini kölgədə qoya bilər..." deyə öz qənaətini bildirir. Müəllif instituta daxil olan ilk farsdilli çap kitablarının nə zaman, kimlər tərəfindən verildiyini və hansı mənbələrdən alındığını da diqqətə çatdırır.

Kataloqda müəllifi olan kitablar müəllif adlarına görə, müəllifi olmayan kitablar isə adlarına görə əlifba sırası ilə verilmişdir. Burada kitabları nəşrə hazırlayanların adı, çap olunduğu şəhərin adı, kitabın daşbasma və ya yeni çap üsulu ilə nəşri, eləcə də kitabların çap tarixləri (hicri və miladi tarixlərilə) verilmişdir. Burada divanlar, külliyyatlar, dastanlar, habelə tarixi və elmi kitablar vardır. Tədqiqatçıların istədikləri kitabları tez və asanlıqla əldə etməsi üçün bu kataloq əvəzsiz rol oynaya bilər.

"Ədəbiyyat qəzeti", 27.11.09.

✦✦✦

"HƏDİSİ-ƏRBƏİN"İN TƏRCÜMƏSİ

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun son nəşrlərindən biri, filologiya elmləri doktoru Möhsün Nağısoylunun "Həzininin "Hədisi-ərbəin" tərcüməsi" kitabıdır. Kitabın elmi redaktorları f.e.d Azadə Musayeva və ilahiyyat elmləri namizədi Zəkiyyə Əbilovadır. Klassik Azərbaycan-Türk tərcümə ədəbiyyatının dəyərli nümunələrindən olan

"Hədisi-ərbəin(qırx hədis)" XVI əsr abidəsidir. Həzini təxəllüslü şair-tərcüməçinin ərəb dilindən çevirməsi üzərində Möhsün Nağısoylunun apardığı filoloji-tekstoloji araşdırma giriş, 3 fəsil və nəticədən ibarətdir. Ön sözdə müəllif Azərbaycan ədəbi tarixində hadisə olan tərcümə ədəbiyyatının əhəmiyyətindən danışır, dəyərli abidələrdən söz açır və onların milli ədəbiyyatımızda oynadığı mühüm rolunu qeyd edir. Sonra Həzininin "Hədisi-ərbəin" tərcüməsi"ndən bəhs edir. Ortaya qoyduğu monoqrafiyanın bu əsər haqqında ilk müstəqil monoqrafik araşdırma olduğunu və burada əsərin Bakı nüsxəsini aşkara çıxarıb araşdırdığını, tədqiqat işində Bursa nüsxsəsindən istifadə etdiyini, bu mənada əsərə yeni parçalar əlavə olunduğunu bildirir.

Monoqrafiyanın "Həzininin "Hədisi-ərbəin" tərcüməsi"-nin filoloji-tekstoloji tədqiqi" adlı birinci fəslində bütün şərq ədəbiyyatında olan "40 hədis" toplularından bəhs açır, ən mötəbər topluların Əl-Buxarinin, Müslümün, Ən-Nəsainin, İbn Macənin hədis topluları olduğunu qeyd edir və hədis topluları arasında 40 hədisdən ibarət olan "hədisi-ərbəin"in daha məşhur olub geniş yayıldığını bildirir. Burada professor Ə.Qaraxanın araşdırmalarını tədqiq edən müəllif "40 hədis" kitablarının nəsrlə, nəzmlə və nəsrlə nəzmin növbəlşməsi şəklində hazırlandığını qeyd edir. Sonra müxtəlif müəlliflərdən, müxtəlif toplulardan söz açır, daha sonra Həzininin tərcüməsi üzərində dayanır və orijinalın müəllifi haqqında da məlumat verir. Tərcümənin ideya-məzmun xüsusiyyətlərindən söz açan müəllif hər hədis haqqında ayrıca fikir söyləyir. Tərcümənin ayrı-ayrı əlyazma nüsxələrini müqayisəli təhlilə cəlb edən tədqiqatçı fonetik, orfoqrafik, qrammatik və leksik fərqləri diqqətə çatdırır.

Monoqrafiyanın ikinci fəslində tərcümənin leksik xüsu-

siyyətləri geniş araşdırılır. Burada tərcümənin dil-üslub xüsusiyyətlərindən söz açan müəllif, türk, ərəb, fars mənşəli sözlər, sinonimlər, antonimlər üzərində ayrıca dayanır, təbii ki, türk mənşəli sözlər arasında geniş araşdırma aparır.

Üçüncü fəsil isə tərcümənin frazeologiyasına həsr olunur. Monoqrafiyanın sonuna əlavə olunan Azərbaycan, türk, rus, ingilis və ərəb dilində ədəbiyyat siyahısından görünür ki, bu araşdırma böyük zəhmət sahəsində ərsəyə gəlmişdir. Monoqrafiyadan sonra kitaba "Hədisi-ərbəin" tərcüməsi" nəzmlə bütöv daxil edilir. Sonda həmin hədislərin nəsrlə tərcüməsi və lüğət verilmişdir. Kitab həm klassik şeir həvəskarları, həm də dindarlar üçün maraqlıdır. Monoqrafiya öz elmi əhəmiyyətinə görə təqdirəlayiqdir.

"Real-Press" qəzeti, 24.06.09.

✦✦✦

ƏMİRŞAH SƏBZƏVARİNİN "DİVAN"I

XV əsr Azərbaycan şeirinin görkəmli nümayəndəsi Ağaməlik bin Cəmaləddin Əmir Şahi Səbzəvari (1385-1453) əsərlərini fars dilində qələmə almışdır. Onun haqqında ilk məlumat Dövlətşah Səmərqəndinin təzkirəsində verilmişdir. Şahinin yaradıcılığı XV əsrin nəhəng şairləri sayılan Əbdülrəhman Cami və Əlişir Nəvai tərəfindən yüksək dəyərləndirilmişdir. Özündən əvvəlki şairlərin bədii fikirlərini yaradıcılığında inkişaf etdirən Şahi bəşəri hissləri tərənnüm etmiş, onun əsərlərinə bir çox şairlər nəzirələr yazmışlar. Şahinin ədəbi irsi həmişə diqqəti cəlb etmişdir.

Əlyazmalar İnstitutunda Şahi Divanının qədim nüsxələri saxlanılır. F.e.d.Kamil Hüseynoğlu həmin nüsxələr və eyni zamanda Sankt-Peterburq, Daşkənd və Düşənbə əlyazmaları əsasında Şahi Divanının elmi-tənqidi mətnini çapa hazır-

lamışdır. Kitab bu yaxınlarda işıq üzü görmüşdür. Kitabın redaktoru mərhum alimimiz f.e.d.Qulamhüseyn Beqdeli, rəyçiləri mərhum alimlərimizdən f.e.d. Rüstəm Əliyev və f.e.d Həmid Məmmədzadə olmuşdur. Tərtibçi-müəllif kitaba geniş ön söz yazmış və burada şairin həyatı, yaradıcılığı haqqında ətraflı məlumat vermişdir. Ön sözdən məlum olur ki, hələ XVI əsrdə tanınmış türk filoloqu Şəmi Şahinin Divanına şərhlər yazmış, Divanın mətni XV-XVI əsrin məşhur xəttatları Sultan Əli Məşhədi, Mir Əli Harəvi, Mir İmad Qəzvini və b. tərəfindən köçürülmüş və nəfis əlyazma kitabları şəklində tərtib edilmişdir.

Tərtibçi-müəllif qeyd edir ki, Şahi yaradıcılığına maraq XIX-XX əsrlərdə də azalmamış və şairin Divanı daşbasma üsulu ilə bir neçə dəfə İstanbulda və Bombeydə nəşr edilmişdir. Daha sonra şairin əsərləri 1962-ci ildə İsveçrədə, 1969-cu ildə isə Tehranda çap olunub. Amma şairin divanının elmi-tənqidi mətni ilk dəfədir ki, nəşr edilir. Müəllif elmi-tənqidi mətni çapa hazırlayarkən on bir əlyazmanı tədqiqata cəlb etmişdir. Bunlardan beşi bizim Əlyazmalar İnstitutunda, ikisi Tacikistan EA Şərqşünaslıq İnstitutunda, üçü Sankt-Peterburq Dövlət kütləvi kitabxanasında, biri Özbəkistan EA Şərqşünaslıq İnstitutunda saxlanılır. Mətnin tərtibində iki çap nüsxəsindən də istifadə edilmişdir. Tərtibçi-müəllif ön sözdə istifadə etdiyi əlyazmaların təsvirini vermiş, onlarda olan əsərlərin janra görə sayını qeyd etmişdir. Müəllif həmçinin tekstoloji müqayisələr apararaq səhvlərə də öz münasibətini bildirmişdir.

"Ədəbiyyat qəzeti", 08.02.08.

"ƏRƏBDİLLİ ƏLYAZMALAR KATALOQU"

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda müxtəlif dillərdə 12 mindən artıq əlyazma saxlanılır ki, bunların da əksəriyyəti türk, ərəb və fars dillərindədir. İnstitutda hər il onlarla kitab nəşr olunur və eyni zamanda əlyazmalar kataloqlaşdırılıb kitab şəklində çap edilir.

Ərəbdilli əlyazmalar kataloqunun birinci cildi 1984-cü ildə C.Qəhrəmanov (baş redaktor), H.Araslı, Z.Bünyadov, M.Cəfərov, Q.Əliyev, A.Əliyev, N.Qarayev, K.Məmmədova və C.Nağıyevanın daxil olduğu redaksiya heyəti tərəfindən nəşrə hazırlanaraq çap olunub. Bu cilddə 1002 əlyazma haqqında qısa məlumat verilmişdir. Kataloqun ikinci cildi A.Əliyev və K.Şərifovun tərtibçiliyi ilə 2000-ci ildə "Elm" nəşriyyatında nəşr olunmuşdur. Bu cilddə 613 əlyazma haqqında məlumat vardır.

Ərəbdilli əlyazmalar kataloqunun üçüncü cildi bu yaxınlarda "Nurlan" nəşriyyatında çap olunub. Cildin tərtibçisi və redaktoru ərəbdilli əlyazmalar şöbəsinin müdiri f.e.d. Kamandar Şərifovdur. Kitaba yazılmış ön sözdə əvvəlki cildlərdə olduğu kimi Əlyazmalar İnstitutu haqqında, orada saxlanılan əsas əlyazmalar barəsində qısa məlumat verilmişdir. Kataloqa 582 əlyazma daxildir. Kitaba əvvəldə qısa biblioqrafik siyahı, sonunda müəlliflərin və katiblərin siyahısı əlavə olunmuşdur. Üçcildlik rus dilindədir.

"Ədəbiyyat qəzeti", 25.01.08

✦✦✦

YENİ TƏRCÜMƏLƏR

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda rus, fransız, ərəb, xüsusilə də fars dilindən xeyli əsər tərcümə edilib nəşrə hazırlanmış və bəziləri artıq işıq üzü görmüşdür. Son za-

manlar çap olunan üç tərcümə əsərini diqqətə çatdırmaq istəyirik.

Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz (Sirlər bağçası)" əsərini f.e.d. Möhsün Nağısoylu fars dilindən filoloji tərcümə etmiş, kitaba ön söz yazmışdır. Əsərin redaktoru f.e.n. Nəsib Göyüşovdur. Bu əsər Azərbaycanın görkəmli alimi Mahmud Şəbüstərinin (1287-1320) ən məşhur əsəri hesab olunur. Əsərin filoloji tərcüməsi ilk dəfədir ki, nəşr olunur. M.Nağısoylu kitaba yazdığı "Gülşəni-raz" təsəvvüfün ana qaynaqlarından biridir" adlı ön sözdə Mahmud Şəbüstərinin həyatından, elmi-fəlsəfi fəaliyyətindən söz açmış, onun elmi-bədii irsinin fars dilində yazmış olduğu "Həqqülyəqin" (İnamın gerçəkliyi), "Miratül-mühəqqiqin" (Araşdırıcıların güzgüsü), "Səadətnamə" (Səadət kitabı) və "Gülşəni-raz" kimi dörd məşhur əsərdən ibarət olduğunu vurğulamışdır. Tədqiqatçı-alimin əsərlərinə istinad edərək onun sufizmin görkəmli nümayəndəsi, "vəhdəti-vücud" təliminin banisi İbn Ərəbi məktəbinin davamçısı olduğunu diqqətə çatdıraraq, "Gülşəni-raz" əsərinin təsəvvüf ədəbiyyatında işlənən bir sıra anlayış və istilahların, incə mətləb və rəmzlərin açıqlanmasına həsr olunduğunu göstərir, bu əsərdən sonra yazılan əsərlər müəlliflərinin məhz bundan bəhrələndiyini qeyd edir və əyani sübut kimi "Gülşəni-raz"ın çoxlu sayda qədim əlyazmalarını və bu əsərə yazılan orta əsr şərhlərini göstərir. Eyni zamanda "Gülşəni-raz"ın təsirilə yazılmış İbrahim Tənnurinin "Gülzarnamə"sini, osmanlı müəlliflərindən Sarı Abdullahın ana dilində yazdığı "Səmərətil-fuad" kimi nümunələri misal çəkir. Ön sözdən aydın olur ki, "Gülşəni-raz" XIX əsrdə artıq Avropada tanınmağa başlamış, alman alimi Toluk 1821-ci ildə Berlində nəşr etdirdiyi "Sufizm" adlı kitabına "Gülşəni-raz"dan müəyyən parçalar daxil etmişdir. Hammer Purqstal isə 1838-ci

ildə "Gülşəni-raz"ı tam şəkildə alman dilində nəşr etdirmişdir. 1880-ci ildə Vinfild əsəri ingilis dilinə çevirib çap etdirmişdir. Sonralar isə əsər italyan və fransız dillərində çap olunmuşdur. 1944-cü ildə Əbdülbaqi Gölpınarlı əsəri türkcəyə çevirib nəşr etdirmiş və bu filoloji tərcümə sonralar təkrar-təkrar çap olunmuşdur. Sadiq Yalsızuçanlar isə əsəri nəsrlə türkcəyə çevirmiş, bir qədər bədii şəkildə 1999-cu ildə nəşr etdirmişdir. Daha sonralar əsər urdu və rus dilinə çevrilmişdir. Nəhayət, Azərbaycan alimi Qurbanəli Məhəmmədzadə 1962-ci ildə əsəri Azərbaycan dilinə çevirmiş, lakin bu əlyazma ərəb əlifbasında institutda saxlansa da, çap olunmamışdır. Əsərin haqqında danışdığımız filoloji tərcüməsini M.Nağısoylu Q.Məhəmmədzadənin hazırladığı elmi-tənqidi mətn əsasında hazırladığını və digər tərcümələrdən də bəhrələndiyini bildirir.

Pənahi Semnaninin "Fətəli şah Qacar" kitabını fars dilindən f.e.n. dosent Raqub Kərimov tərcümə etmişdir. Kitabın elmi redaktoru f.e.d. Möhsün Nağısoyludur. İran tarixindən bəhs edən bu əsərdə Azərbaycanla bağlı məqamlar da işıqlandırılmışdır. Kitabın əvvəlində Fətəli şah Qacar haqqında müxtəlif mənbələrdən götürülmüş qeydlər, daha sonra isə müəllifin qeydləri verilmişdir. Əsər 18 fəsildən ibarətdir.

Kitab tədqiqat xarakteri daşıyır. Müəllif yeri gəldikcə müxtəlif mənbələrə müraciət etmiş, bəzi əsərlərdən sitatlar vermişdir. Kitab tariximizi yenidən vərəqləmək baxımından maraqlıdır.

Əlişir Nəvainin "Mizanül-övzan" əsərini f.e.d. Tərlan Quliyev çığatay dilindən tərcümə etmişdir. Kitabın elmi redaktoru MEA-nın müxbir üzvü, professor Tofiq Hacıyev, rəyçilər filologiya elmləri doktorları Möhsün Nağısoylu və Cənnət Nağıyevadır.

Tərlan Quliyev əsərin əlyazma nüsxələrinin Türkiyədə

Topqapı sarayında, Süleymaniyyə kitabxanasında, Parisdə, Özbəkistanda, Sankt-Peterburqda saxlandığını və Özbəkistanda qorunan nüsxələr əsasında "Mizanül-övzan"ın ilk dəfə 1949-cu ildə özbək alimi İzzət Sultanov tərəfindən çap olunduğunu, 1993-cü ildə isə doktor Kamal Əraslanın əsərin elmi-tənqidi mətnini tərtib edib çap etdirdiyini bildirir.

"Ədəbiyyat qəzeti", 11.01.08.

✦✦✦

ƏLYAZMALAR İNSTİTUTUNDA

Bu yaxınlarda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda XIX əsrin tanınmış alimi, pedaqoq və kitabşünas Əbdülqəni Nuxəvinin 190 illiyinə həsr olunmuş elmi sessiya keçirildi. İnstitutun direktoru f.e.d. Məmməd Adilov Əlyazmalar İnstitutunda görkəmli alimin kitabxanasından əldə edilmiş 2000-dən çox materialın saxlandığını qeyd etdi, alimin mətnşünaslıq fəaliyyətindən söz açaraq, Azərbaycan əlyazma kitabının inkişafındakı rolundan danışdı. İnstitutun şöbə müdirləri–elmi fəaliyyətinin böyük bir hissəsini Əbdülqəni əfəndinin irsinin öyrənilməsinə sərf etmiş, f.e.d. Kamandar Şərifov, professor Azadə Musayeva, tarix elmləri namizədləri Tahirə Həsənzadə, Aydın Xəlilov, ilahiyyət elmləri namizədləri Zəkiyyə Babayeva və Nailə Süleymanova, f.e.n. Tahirə Nurəliyeva və b. çıxış edərək Əbdülqəni əfəndinin alim, pedaqoq, mətnşünas-kitabşünas kimi fəaliyyətini işıqlandırdılar. Tədbirdə alimin nəslindən olan yaxın qohumları da iştirak edirdilər. Onlar minnətdarlıqları ilə yanaşı görüləcək işlərlə əlaqədar təkliflərini də bildirdilər.

Tədbirdə Kamandar Şərifovun Əbdülqəni Nuxəvinin həyat və yaradıcılığından bəhs edən, onun mətnşünaslıq, kitabşünaslıq fəaliyyətini işıqlandıran "Alim, pedaqoq və

kitabşünas” adlı monoqrafiyası iştirakçılara təqdim olundu. Kitab bir neçə hissədən ibarətdir. “Şəki XIX yüzillikdə” bölümündə müəllif Əbdülqəni Nuxəvinin yaşadığı dövrün səciyyəsini vermiş, o dövrün görkəmli adamları haqqında danışmışdır. “Ulu nəvənin ulu nənəsi” adlı bölümdə Əbdülqəni əfəndinin nənəsi Xalisə qarı haqqında, onun ailəsi, övladları haqqında, gördüyü işlər, yaratdığı kitabxana, hazırladığı məcmuə barəsində söz açılır. “Ulu nənənin ulu nəvəsi” adlı bölümdə isə müəllif Əbdülqəni əfəndi Xalisəqarızadə haqqında danışır, onun nənəsinin adını özünə təxəllüs götürməsindən tutmuş, yaratdığı zəngin kitabxanaya kimi, elmi, ədəbi fəaliyyətindən söz açır, şəxsi həyatından, övladlarından bəhs edir. “Elm və maarif carçısı” adlı bölümdə onu bir pedaqoq kimi verən müəllif onun məktəb və mədrəsələrdəki nöqsanlara qarşı çıxmasını, tədris üsullarını islah etməsini, onları yeni, mütərəqqi üsullarla əvəzləməsini qeyd edir. Əbdülqəni əfəndi bir çox kitablar tərtib etmiş, bir sıra dərsliklər yazmışdır. Müəllif onun bu sahədəki fəaliyyətini də oxuculara çatdırmışdır.

“Mətnşünas alim” adlı bölümdə Əbdülqəni Nuxəvi Azərbaycan mətnşünaslığının bünövrəsini qoyan bir alim kimi təqdim edilir. Kitaba Əbdülqəni əfəndinin bəzi əlyazmalarından nümunələr də daxil edilmişdir.

“Elm xəzinəsindən əldə edilmiş bəzi abidələr” bölümündə isə alimin yaratdığı kitabxanadakı əlyazmalardan söhbət açılır. Müəllif bu əlyazmalarla məşğul olan tədqiqatçıların işini də qiymətləndirmişdir.

Kitab görkəmli Azərbaycan alimi, mütərəqqi pedaqoq, mətnşünas, kitabşünas Əbdülqəni Nuxəvi Xalisəqarızadə haqqında əhatəli bilgi verir.

“Ədəbiyyat qəzeti”, 28.12.07.

✦✦✦

TARİXİMİZ ƏLYAZMALARDA

Bu yaxınlarda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı Rauf Şeyxzamanlı əlyazmalar xəzinəsindən üzə çıxardığı daha iki kitabı oxucuların ixtiyarına verib.

İbrahim Rəhimzadə Hərimi "Osmanlı qoşunlarının Azərbaycana yürüşləri" adlı əsəri XVI əsrin sonunda qələmə almışdır. F.e.d. Möhsün Nağısoylunun elmi redaktorluğu ilə çap olunan bu kitaba müəllifin üç əsəri daxil edilmişdir. Tədqiqatçının kitaba yazdığı ön sözdən məlum olur ki, İbrahim Hərimi Osmanlı ordusunda çavuş vəzifəsində çalışıb, qələmə aldığı hadisələrin də şahidi olub. Onun yazdığı üç müstəqil əsər–"Zəfərnameyi-həzrət Sultan Murad xan", "Qönçeyi-bağı-Murad", "Kitabi-gəncineyi fəthi-Gəncə" bir ad altında çapa hazırlanıb. Bu əsərlərdə XVI əsrin sonunda Osmanlı qoşunlarının Qafqaza və Təbrizə yürüşləri əks olunmuşdur. Burada tariximizin müəyyən səhifələri açıqlanır. Birinci əsər 1577-1580-ci illərdə Mustafa paşa tərəfindən Tiflisin, Çıldırın və Şirvanın işğal olunmasını və Qars qalasının tikilməsini, ikincisi Təbrizin zəbt edilməsini, üçüncüsü isə Osmanlı qoşunlarının 1583-1586-cı illərdəki Şərq səfərlərini və 1590-cı ilə qədər sərhəd boyu hərbi diplomatik hadisələri əks etdirir.

Kitaba daxil edilmiş hər üç əsərin eyni katib–Əhməd bin Həsən əl-Qaramani tərəfindən köçürüldüyünü və İstanbul Universitetinin kitabxanasında saxlandığını qeyd edən müəllif, həm katibə görə, həm də əsərlərdə təsvir olunan hadisələrin məkan-zaman baxımından bir-birini tamamladığını nəzərə alaraq İbrahim Həriminin üç əsərini bir kitabda nəşr

etməyi məqsədəuyğun saymışdır. Kitab Əlyazmalar İnstitutunda saxlanılan fotosurət əsasında çapa hazırlanmışdır. Əsərlərdə nəzm və nəsr hissələri bir-birini növbələyir. Hər bir əsər bir neçə bab və fəsillərdən ibarətdir.

Rauf Şeyxzamanlının nəşrə hazırladığı ikinci kitab "Nadir şah Əfşarın məktublaşması" adlanır. Redaktoru f.e.d. Möhsün Nağısoyludur. Kitaba Nadir şahın müxtəlif vaxtlarda dövlət rəhbərləri ilə yazışmaları daxil edilmişdir. Tədqiqatçı ön sözdə Nadir şah haqqında qısa məlumat verir və onun döyüş fəaliyyətinin bəzi məqamlarını açıqlayır. Daha sonra kitabı Əlyazmalar İnstitutunda saxlanılan iki əlyazma əsasında çapa hazırladığını bildirir.

Kitaba daxil edilən on səkkiz məktubdan on beşi Nadir şahın müxtəlif şahlara, valilərə yazdığı məktublardır. Üç məktub isə Nadir şaha göndərilən məktublardır. Nadir şaha yazılan və kitaba daxil edilən son iki məktub—Rum padşahı Sultan Murad xanın göndərdiyi məktub türk dilindədir. Qalan on altı məktubu Rauf Şeyxzamanlı fars dilindən tərcümə etmişdir. Bunlar Sultan Mahmud xana, Hindistan şahı Məhəmmədə, rus padşahına, Xarəzm valisinə, Rum padşahının baş vəziri Əli paşaya, Təbriz naibinə, İbrahim xana, Məhəmməd Hüseyn xana yazılmış məktublardır.

Məktublar əsasən nəsrlə yazılmışdır, amma bəzilərində müxtəlif şeir parçalarına rast gəlinir.

Çıxarışlarda bir sıra açıqlamalar vardır. Sonda isə anlaşılması çətin olan adların şərhi verilmişdir.

Hər iki kitab tariximizin bəzi qaranlıq səhifələrinə işıq gətirə biləcək dəyərdədir. İstər tranliterasiya, istərsə də tərcümə işində böyük zəhmət sərf olunmuşdur.

"Ədəbiyyat qəzeti",26.10.07.

✦✦✦

ƏLYAZMALAR XƏZİNƏSİNDƏN

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan əlyazmalar zaman keçdikcə üzə çıxarılıb çap olunur və oxucuların ixtiyarına verilir. İstər folklorumuz, istərsə də yazılı ədəbiyyatımız bu yeni əsərlərin hesabına ilbəil zənginləşir. Haqqında bəhs edəcəyimiz üç kitab da öz dəyərinə, sanbalına görə ədəbi aləmin diqqətini çəkə biləcək nəşrlərdir.

XI əsr şairi İsanın "Mehri və Vəfa" adlı əsərini institutun əməkdaşı Aysel Şərifova çapa hazırlayıb. Gənc tədqiqatçı əsəri latın qrafikalı Azərbaycan əlifbasına çevirmiş, elmi-tənqidi mətnini tərtib etmişdir. Kitabın redaktoru M.Nağısoylu, rəyçisi A.Musayeva, xəttatı M.Əzizovdur.

A.Şərifovanın kitaba yazdığı "Dilimizin və ədəbiyyatımızın nadir abidəsi" adlı ön sözdən məlum olur ki, İsanın "Mehri və Vəfa" əsərinin cəmi iki əlyazması bizə gəlib çatmışdır. Bunlardan biri 1827-ci, digəri 1834-cü ildə köçürülmüşdür. Məhəmməd Kəminə tərəfindən köçürülmüş birinci nüsxə 1490, Əbdülqəni Nuxəvi tərəfindən köçürülən ikinci nüsxə isə 1574 misradır. Əsərin XI əsrə aid olduğu Məhəmməd Kəminə tərəfindən köçürülən nüsxənin sonunda verilmiş dörd misrada açıqlanır.

Əsər əsasən Rum padşahının oğlu Vəfa ilə Əmman sultanının qızı Mehri arasındakı məhəbbət macərasından bəhs edir. Əsər quruluşuna görə məhəbbət dastanlarını xatırladır. Məsnəvi "Əvvəl Allah adını yad edəlüm" misrası ilə başlanır.

Kitabın tərtibi belədir: ön söz, məsnəvi, lüğət, ərəb qrafikasında elmi-tənqidi mətn. Əsər ana dilimizin tarixini öyrənmək baxımından dəyərli mənbədir.

Şamil Cəmşidin çapa hazırladığı "Dədə Qorqud dastan-

ları” isə uşaqlar üçün nəzərdə tutulmuşdur. Kitabın redaktoru Möhsün Nağısoylu, kitaba daxil edilmiş rəngli şəkillərin müəllifi rəssam Fəxrəddin Məmmədvəliyevdir. Müəllif kitaba yazdığı müqəddiməni on iki hissəyə ayırmışdır. Hər bir hissədə əsər haqqında, onun yazıldığı zaman, məkan, hərbi sistem, qəhrəmanların mənsub olduğu el-oba, əlyazmaların saxlandığı yerlər, əlyazmaların fərqli, oxşar cəhətləri və s. barədə məlumatlar verilmşdir.

İsmayıl bəy Nakamın “Məcnun və Leyli” kitabını f.e.n. Yolçu Piriyev nəşrə hazırlayıb. Kitabın redaktoru f.e.n. İsmayıl İsmayılovdur. Tədqiqatçı kitaba yazdığı “XIX əsr Azərbaycan şairi İsmayıl bəy Nakam” adlı ön sözlə şairin həyat və yaradıcılığı haqqında məlumat verir. Yazıdan məlum olur ki, Nakam əslən şamaxılı olsa da, 1839-cu ildə Şəki şəhərində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, ərəb-fars dillərini mükəmməl bilmiş, sonralar isə üç il xüsusi müəllim yanında rus dilini öyrənmişdir. Tədqiqatçı İsmayıl bəy Nakam haqqında Firudin bəy Köçərlinin, Əliabbas Müznibin, akademik Feyzulla Qasımzadənin, Cəfər Xəndanın, Nəsrəddin Qarayevin tədqiqatlarına müraciət etmiş, özündən əvvəlki alimlərin fikirlərini diqqətə çatdıraraq, onlara öz münasibətini bildirmişdir. İsmayıl bəy Nakamın “Divani-bədii”, “Xəyalati-pərişan” adlı divanları, “Gəncineyi-ədəb”, “Fərhad və Şirin”, “Məcnun və Leyli” adlı poemaların, nəsrlə yazılmış “Dörd əfəndi” və “Lətifənamə” adlı əsərlərin müəllifi olduğunu qeyd edən Yolçu Piriyev ayrı-ayrı müəlliflərin bu əsərlər haqqındakı fikirlərindən bəzi misallar da vermişdir. Ön sözdə poema haqqında, onun məzmunu, ideyası, ədəbi-bədii xüsusiyyətlərindən söz açan müəllif poemadan gətirdiyi sitatlarla fikirlərini təsdiqləyir.

Nakamın “Məcnun və Leyli” poeması digər “Leyli və

Məcnun” poemaları kimi bir süjet üzrə inkişaf edən ayrı-ayrı əhvalatlardan ibarətdir. Əsər “Müqəddimeyi-dastani-Məcnun və Leyli” ilə başlayır. Əsərin dili nisbətən sadədir. Müəllif əsəri dastan adlandırmış, onu dövrünün dilinə uyğun yaratmağa çalışmışdır.

“Ədəbiyyat qəzeti”, 24.08.07.

✦✦✦

“DİVAN”LAR

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda son illər bir sıra görkəmli şairlərin divanları nəşrə hazırlanıb çap edildmişdir. Bəzi divanlar sadəcə transliterasiya edilib çap olunmuş, bəziləri üzərində tədqiqat işləri aparılmış, monoqrafiyalar yazılmış, bəzilərinin elmi-tənqidi mətnləri hazırlanmışdır. Bu yazımızda son vaxtlar işıq üzü görən üç Divanı oxuculara təqdim etmək istəyirik. Belə ki, Qövsi Təbrizinin ədəbi irsi ilk dəfə tam şəkildə oxuculara çatdırılmışdır.

Əlyazmalar İnstitutunun direktor müavini f.e.n. Paşa Kərimov şairin müxtəlif əlyazmaları üzərində tədqiqatlar aparmış, Qövsi “Divan”ının elmi-tənqidi mətnini hazırlamış və bu kitab həmin mətn əsasında çapa hazırlanmışdır. Kitabın redaktoru Əlyazmalar İnstitutunun direktoru f.e.d. Məmməd Adilovdur. Paşa Kərimov kitaba yazdığı “Qövsi Təbrizinin Divanı” adlı ön sözdə şairin doğulduğu, yaşadığı dövr, o dövrün ədəbi mühütü, şairin ədəbi irsi, onunla məşğul olan tədqiqatçılar haqqında məlumat verir, müqayisələr aparır və fikirlərə münasibətini bildirir. Şairin lirikasından söz açan tədqiqatçı onun şeirlərindən sitatlar verir, şərhlərlə şairin yaradıcılığı haqqında təsəvvür yaradır. Müəllif Salman Mümtazın, Firudin bəy Köçərlinin, Yusif Seyidovun və Samət Əlizadənin fikirlərinə istinad edərək,

Qövsinin ədəbiyyat tariximizdəki yerini müəyyənləşdirir. Burada Qövsi bir çox şairlərlə müqayisə olunur, onun sələfləri və xələfləri arasında tutduğu mövqe açıqlanır.

Paşa Kərimov şairin xarici ölkələrdə olan əlyazma nüsxələrindən də söz açır, təəssüflə bəzi nüsxələrin əldə edilməməsini vurğulayır və gələcəkdə bu nüsxələrin də əldə ediləcəyinə ümüd edir.

İlk dəfə çap olunan bu "Divan"a 543 qəzəl, 2 tərkibbənd, 2 tərcibənd, 1 müsəddəs, 5 müxəmməs, 1 mürəbbe və 1 rübai daxil edilmişdir.

Sağəri Qarabağinin "Divanı"nı Əlyazmalar İnstitutunun elmi işçisi Gülər Əmirəhmədova nəşrə hazırlamışdır. Kitabın redaktoru f.e.d. Azadə Musayeva, rəyçisi f.e.d. Ömər Okumuşdur. Tərtibçinin kitaba yazdığı "Molla Zeynalabdin Sağəri Qarabağinin şəxsiyyəti, həyatı, yaradıcılığı; türkcə Divanı, onun bəzi imla xüsusiyyətləri və transfonoliterasiya problemləri" adlı ön sözdə oxuyuruq: "Ərəb qrafikalı Azərbaycan əlifbasından transfonoliterasiya edilib nəşrə hazırlanan bu abidə–Molla Zeynalabdin Sağəri Qarabağinin türkcə Divanı özünün ədəbi, fəlsəfi, paleoqrafik xüsusiyyətləri ilə yanaşı, həm də ona görə diqqətəlayiqdir ki, o, Azərbaycanın hazırda qarı düşmən caynağında əzab çəkən, məscidləri dağıdılan, sərvətləri talanan, heykəlləri güllələnən dilbər guşəsi Dağlıq Qarabağ bölgəsinin qəlbi Şuşa şəhərində yaranmışdır..."

Tədqiqatçı Sağəri Qarabağinin (1791-1854) ədəbi irsini Mirmöhsün Nəvvabın "Təzkireyi-Nəvvab"ında, Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirəsində həyatı, yaradıcılığı haqqındakı məlumatları, cünglərdəki əsərlərini belə araşdırmış, şairin ədəbi irsini imkan daxilində tam şəkildə bir yerə toplamışdır. Əsas mənbə isə Əlyazmalar İnstitutunda saxla-

nılan, Nəsrulla ibn Musa Rza Mərəndi adlı katibin köçürdüyü türkcə divandır.

Gülər Əmirəhmədova Sağəri Qarabağinin həyat və yaradıcılığının XX əsrin sonlarında araşdırılmağa başladığını qeyd edir, Cavad Heyətin "Azərbaycan ədəbiyyatına bir baxış" kitabını və Cahangir Qəhrəmanovun, Zəminə Hacıyevanın, Paşa Kərimovun, Vasif Quliyevin məqalələri olduğunu diqqətə çatdırır.

Kitaba ədəbiyyat siyahısı, statistik sözlük, 3 əlyazma faksimilesi daxil edilmişdir.

"Divan"a 346 qəzəl, bir müəşşər-tərcibənd, hər biri altı beytdən ibarət olan beş hissəli Saqinamə, 4 müxəmməs, 77 rübai daxildir.

Tədqiqatçının ön sözdə dediyi kimi, bu əsərin nəşri Azərbaycanın türk ölkəsi olduğunu danmaq, "Böyük Ermənistan" yaradıb onun tarixini yüzilliklərə, minilliklərə çevirmək istəyən nankor "qonaq"lara yeni bir zərbədir.

Mürtəzaqulu xan Şamlunun "Divan"ını f.e.n.Paşa Kərimov nəşrə hazırlamış, kitabın redaktoru Arif Ramazanovdur. Paşa Kərimovun kitaba yazdığı "Mürtəzaqulu xan Şamlu Zəfər və onun divanı" adlı ön sözdən məlum olur ki, şair şah Səfi və II şah Abbasın hakimiyyəti dövründə müxtəlif dövlət vəzifələrində işləmişdir. Onun haqqında ilkin məlumatlar və əsərlərindən nümunələr Anarın "Min beş yüz ilin Oğuz şeiri" və Cavad Heyətin "Azərbaycan ədəbiyyatına bir baxış" kitablarından alınır. Daha geniş məlumatı isə Almaniyada yaşayan həmyerlimiz göndərmişdir. Paşa Kərimov yazır: "Almaniyada yaşayan həmvətənimiz Məhəmmədəli Hüseyninin bizə göndərdiyi məlumatdan və professor İsmayıl Hikmət Ertaylanın 1965-ci ildə nəşr edilmiş "Divani-türkiyi-Zəfər" kitabından bəlli olur ki, Mürtəzaqulu xan

Azərbaycan türkcəsində və farsca çoxsaylı şeirlər müəllifidir və onun ana dilimizdə divanı həmin dövr poeziyamız haqqında əlavə məlumatlar əldə etməyə imkan verir".

Paşa Kərimov ön sözdə şairin divanından nümunələr verir, onu başqa şairlərlə müqayisə edir. Burada şairin türkcə divanını ən azı 74-80 yaşlarında yazdığını, həyatda uzun ömür yaşadığını bildirir.

Tərtibçi yazır: "Mürtəzaqulu xan Şamlu Zəfərin yeni çap edilən divanı bir daha göstərir ki, ədəbiyyat tariximizin hələ çox səhifələri üzə çıxarılmayıb, tədqiqatdan kənarda qalıb. İnanırıq ki, bu divan ədəbiyyat və dil tariximizlə məşğul olan mütəxəssislər, o cümlədən klassik ədəbiyyat həvəskarları tərəfindən maraqla qarşılanacaqdır".

Doğrudan da XVII əsr ədəbiyyat tariximizə bir şairin də adının əlavə olunması sevindirici haldır. Amma bu sevinc burada bitmir. Əlyazmalar İnstitutunun xəzinəsində oxuculara məlum olmayan onlarla Divan var. Yəqin ki, yaxın gələcəkdə xəzinəmizdə olan bütün dəyərli əlyazmalar üzə çıxarılıb oxuculara çatdırılacaqdır.

"Ədəbiyyat qəzeti", 10.08.07.

✦✦✦

ARXİVLƏR TƏQDİM OLUNUR

Son vaxtlar Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda bir sıra arxiv materialları nəşrə hazırlanıb çap olunmuşdur. Mehri Məmmədovanın "Müslüm Maqomayev arxivinin təsviri", Mərziyə Paşayeva ilə Zahidə Hacıyevanın "Salman Mümtaz arxivinin təsviri", Mehri Məmmədovanın çapa hazırladığı "Əzim Əzimzadənin şəxsi arxivi" və Mehri Məmmədova ilə Arif Ramazanovun nəşrə hazırladığı "Həsən bəy Zərdabinin bioqrafiyası və epistolyar irsi" adlı

kitablar adı çəkilən şəxsiyyətlərin həyat yolu və fəaliyyəti ilə bağlı maraqlı məlumatlarla, bilgilərlə zəngindir.

Mehri Məmmədovanın "Müslüm Maqomayevin şəxsi fondunun izahlı təsvirinin tərtibi haqqında" yazısında müəllif əsas prinsipləri diqqətə çatdırır, hansı materialın harada verilməsini, mövzu dairəsinin əsas götürülməsini, xronoloji ardıcıllığın izlənilməsini, rus dilində sənədlərin Azərbaycan dilinə tərcüməsini və s. qeyd edir. "Müslüm Maqomayevin şəxsi fondu haqqında" adlı yazıda fondun Əlyazmalar İnstitutuna hissə-hissə daxil olması, əksər materialların avtoqraf olması, bu materialların əsasən hansı sənədlərdən, yazılardan ibarət olması oxuculara çatdırılır. Arxiv sənədləri içərisində müəlliflərin öz tərcümeyi-hallarını da yazıb saxladıqlarını adəti hal olduğunu qeyd edən müəllif təəssüflə bildirir ki, Müslüm Maqomayevin arxivi bu cəhətdən qənaətbəxş deyildir. Amma hər halda buradakı materiallardan onun harada doğulduğu, təhsil aldığı, nə zaman musiqiyə həvəs göstərdiyi aydınlaşır. Təsvirçi arxiv materialları içərisində bəstəkarın topladığı Azərbaycan musiqi folkloru hissəsində nota alınmış el nəğmələrinin üstünlük təşkil etdiyini də nəzər-diqqətə çatdırır. Burada bəstəkara sənət dostlarının yazdığı məktubların olması faktı da qeyd edilir. Maraqlı faktlardan biri də materialların çoxvariantlı olmasıdır. Məsələn, "Şah İsmayıl" operasının 27, "Xoruz bəy" musiqili komediyasının 8, "Nərgiz" operasının 15 və s. Kitabda Üzeyir Hacıbəyovla Müslüm Maqomayevin birlikdə işlərindən "Azərbaycan türk el nəğmələri", "Xalq mahnıları" və s. diqqəti çəkir. Bəstəkarın əsas əsərlərinin mətnləri, o cümlədən mahnılar, marşlar, rəqslər, oyun havaları, kiçikhəcmli musiqi əsərlərinin mətnlərinin təsviri də diqqətə çatdırılmışdır.

Kitabda, həmçinin Müslüm Maqomayevin ədəbi fəaliyyətinə aid materiallar, məruzə vərəqləri, müxtəlif təşkilatlara ünvanlanmış sənədlər, bəstəkarın yazdığı məktublar (ailəsinə, Badyuda, Cəmilə, Məmmədə, Camala), bəstəkara yazılan məktublar (Hənəfidən, Üzeyir bəydən, Tuqanovdan, Pavel İvanoviç Amiraqodan, Klinsondan, Nəbidən) və fərqli adamların müxtəlif ünvanlara yazdığı məktublar təsvir edilmişdir. Bəstəkarın şəxsiyyətinə aid sənədlər bölümündə şəxsi vərəqə, sorğu vərəqi, gündəliklər, xatirə, xasiyyətnamə, arayış və b. sənədlər də kitabda təsvirini tapır. Arxivdə başqa şəxsiyyətlərə aid olan materiallar da vardır ki, müəllif kitabda bunların təsvirinə də yer ayırmışdır.

"Salman Mümtaz arxivinin təsviri" adlı kitaba yazılmış "Salman Mümtazın şəxsi fonduna bir nəzər" adlı yazıdan məlum olur ki, bu fondun əsası 1934-cü ildə qoyulmuş, sonralar get-gedə zənginləşmişdir. Müəlliflər ədəbiyyatşünasın arxivini üç hissədə təqdim edirlər: əlyazmalar, məktublar və çap kitabları. Təsvir zamanı əlifba sırasından istifadə edilmişdir. Şəxsi fond sənədləri 689 saxlama vahidi ilə işlənib hazırlanmış və üç bölmədə kodlaşdırıldığından təsvir bu cür aparılmışdır. Ön sözdə Salman Mümtaz haqqında qısa qeydlər və bəzi qabarıq görünən detallar oxucuların diqqətinə çatdırılmışdır.

Kitabın ən geniş hissəsini əlyazmaların təsviri tutur. Vaxtilə bu əlyazmaların bir çoxu ilə tanış olduğumdan, bəzilərini hətta müasir əlifbaya çevirdiyimdən, eləcə də məqalələrimdə haqqında bəhs etdiyimdən, bu arxiv materialları mənə çox tanışdır. Dəfələrlə ələk-vələk etdiyim bu kataloqda nə sirr vardısa, adam hər dəfə bir materialı işləyəndə, yenisini tapır, tədqiqata cəlb etmək istəyir. O qədər zəngin arxivdir ki, kənar dura bilmirsən. Əlyazmalar İnstitutunda

mənim bəlkə bütün arxivlərdən yararlandığım nəsə bir material var, amma ən çox iki arxivə borcluyam. Bakı-Abşeron şairlərinin yaradıcılığını araşdırarkən, nə qədər gəzibdolansan, yenə də gedib ya Əli Abbas Müznibin, ya da Salman Mümtazın arxivinə çıxırsan. Bu cəhətdən Salman Mümtazın arxivinin təsvir olunub çap edilməsini böyük bir iş sayıram. Mənə elə gəlir ki, bu vaxta kimi qədim, orta əsrlər, ümumiyyətlə, sovet dövrünə qədər ədəbiyyatımız haqqında nə yazılıbsa, bünövrəsi bu iki arxiv materiallarından götürülüb. Çünki bu iki arxivdə ədəbiyyat tarixindən tanıdığımız bütün yazıçılar haqqında materiallar, əsərlərindən nümunələr vardır.

"Əzim Əzimzadənin şəxsi arxivi"nə Mehri Məmmədovanın yazdığı ön sözdən məlum olur ki, rəssamın dəyərli yaradıcılıq məhsullarının əsas hissəsi arxivdə təmsil olunmamışdır və həmçinin sənətkarın şəxsiyyətinə aid aşağıdakı sənədlər kitaba salınmamışdır: mandatlar, vəsiqələr, dəvətnamələr, bilet, təliqə, məramnamə və kataloq. "Tərcümeyi-hallar" bölümündə "Gözəl sənətkar–Əzim Əzimzadə", "Bioqrafiya t. Azim-zadə", "Avtobioqrafiya" və b. təqdim olunur.

"Xatirələri" bölümündə rəssamın xatirələrini əks etdirən "Mənim səfərim" adlı geniş bir yazısı verilmişdir ki, bu da kitabın əsas hissəsini təşkil edir. "Məktublar" bölümündə Əzimzadənin Məmmədəli Sidqizadəyə, Mirzə Cəlilin Əzimzadəyə ünvanladıqları məktublar verilmişdir. "Müxtəlif sənədlər" bölümündəsə rəssama rəsmi adın verilməsi ilə əlaqədar sənəd, rəssamın yubileyi ilə bağlı materiallar verilmişdir. Kitab Əzim Əzimzadənin fəaliyyətinin 20 illiyi münasibətilə yazılmış şeirlə bitir. Kitabdakı arxiv materialları həm rus, həm də azərbaycanca yazıldığı dillərdə verilmişdir.

"Həsən bəy Zərdabinin bioqrafiyası və epistolyar irsi"

kitabına gəlincə, annotasiyadan məlum olur ki, Zərdabinin şəxsi arxivi Əlyazmalar İnstitutunda 3-cü fondda saxlanılır və s/v 20 şifrəsi altında mühafizə edilən material keçən əsrin əvvəllərinin tanınmış dilçi alimi və pedaqoqu Fərhad Ağazadə tərəfindən Həsən bəyin "Əkinçi" qəzetinin 50 illiyi münasibətilə əski əlifbada yazılmış bioqrafiyasını əhatə edir. Bu kitaba həmin əsərin tam mətni və eyni zamanda, Zərdabinin epistolyar irsi daxil edilmişdir. Bəzi materiallar fars dilindən tərcümə edilmiş, bəzilərinin dil və imla xüsusiyyətləri olduğu kimi saxlanmışdır.

Fərhad Ağazadənin "Həsən bəy Məlik Zərdabinin bioqrafiyası" məqaləsi belə başlayır: "Əkinçi" qəzetinin əlli illiyi münasibətilə Azərbaycan ziyalılarının tarixini öyrənmək istəsək, şübhəsiz ki, Həsən bəy Məlik Zərdabidən başlamalıyıq. Ondan irəliki türk ziyalılarının işlərindən tarix bizə bir şey göstərmir..." Bu yazıda Zərdabinin atası Səlim bəylə, babası Rəhim bəylə tanış oluruq, onların şairlərlə dostluqlarını, qonaqlıqlarını və Zərdabinin məhz belə bir mühütdə böyüməsini, yetişməsini görürük. Müəllif hər şeyin səbəbini öyrənmək istəyən Zərdabinin hələ uşaqkən davranışlarının, maraq dairəsinin geniş olduğunu qeyd edir. Onun təhsili, fəaliyyəti haqqında oxucuları məlumatlandırır. Nəhayət, gəlib "Əkinçi"yə çıxır. Məqalədə Həsən bəyin ömrü boyu özündən və uşaqlarından ötrü deyil, məhz xalqı üçün yaşadığı vurğulanır. Burada bir cümlə diqqəti çəkir: "Cənazənin üstündə bir natiq demişdi ki, Həsən bəy Bakıya ac gəlmişdi, ac da getdi". Bizcə, bu bir cümlə Zərdabi ömrünün yaşam tərzini gözəl açıqlayır.

Kitaba daxil edilən sənədlər məktublardan ibarətdir. Bu məktublar rus və Azərbaycan dillərində yazılmışdır. Məktublar müxtəlif ünvanlardan göndərilmişdir, müxtəlif

məzmunlardadır. Burada Seyid Əzim Şirvaninin Həsən bəyə göndərdiyi şeir də diqqəti cəlb edir.

Əlyazmalar İnstitutunun çapa hazırlayıb oxuculara təqdim etdiyi bu nəşrlər hər bir ədəbiyyat, sənət adamının stolüstü kitabları ola bilər. Buradakı materialların böyük əksəriyyəti yenidir, ilk dəfə olaraq oxuculara çatdırılır. Əlyazmalar İnstitutunun bir gözəl ənənəsi də budur ki, çap olunan kitablar oxuculara hədiyyə edilir. Əməkdaşların gördüyü çətin, əzablı işi nəzərə alsaq, bəlkə elə doğrudan da bu kitabların üstünə qiymət yazmaq, onların qiymətini hesablamaq olmaz. Nə yaxşı ki, bu qiymətli və dəyərli kitablar ədəbiyyat adamlarına, mütəxəssislərə hədiyyə olunur.

"Ədəbiyyat qəzeti", 29.06.07.

✦✦✦

"İBN XƏLDUN VƏ BAŞQALARI"

Elə kitablar var ki, əlinə alanda sevinirsən, haqqında yazanda da düşünürsən ki, müəllifini sevindirəcəksən. Əlimdəki kitabı ilk dəfə görəndəsə məni sevincqarışıq bir kədər bürüdü. Bu vəhdətdə kədərin rəngi daha tünd idi. Sevindim ki, Azərin kitabı çıxıb, kədərləndim ki, Azərə "təbrik edirəm" deyə bilmirəm. Hər dəfə bir kitabım çıxanda məni təbrik edən Azərə, hər dəfə bir qəzetdə məqaləsi çap olunanda sevinclə mənə qəzet verən Azərə. Yazılarını oxuyandan sonra mütləq mübahisəmiz düşürdü. Razılaşdığımız məqamlar da olurdu, lap yuxarı çıxdığımız vaxtlar da. Amma o qədər səmimi idi ki...

Kitabı əlimə alıb üz qabığını çevirəndə Azərin şəkli adamı tutub saxlayır, üzündə elə bil acı bir təəssüf var. Amma həyatda çox nikbin adam idi, həmişə salamlaşanda üzündə təbəssüm olurdu. Bəlkə də bu şəkil kitaba təsadüfi

verilməyib, bəlkə heç Azər bu şəkli təsadüfi bir anı tutub saxlamaq üçün də çəkdirməyib. Bir il əvvəl bizimlə olan Azərin bu gün yoxluğunu düşünmək, son təsəlli kimi ondan yadigar qalan əsərlərini bir kitab şəklində görmək də təsadüfə bənzəmir. Azərin "Ekspres" qəzetinin əməkdaşı Xanəmirə verdiyi müsahibəsində maraqlı fikirləri var. Bir yerdəsə "Sən bəzən Mir Həmzə Seyyid Nigaridən də sitatlar gətirirsən. Mən də onu çox sevirəm, səncə, onu niyə unutmuşuq? – sualının cavabında Azərin "Nigarinin divanı Türkiyədə dəfələrlə çap olunub. Burda da sovet vaxtı olmasa da sonuncu dəfə 1912-ci ildə Tiflisdə çap olmuşdu. Budur, sovet yıxılan kimi də Bakıda çox nəfis şəkildə nəşr eləyiblər, sağ olsunlar. Bunamı deyirsən unutmaq?" – təqdirinin şahidi oluruq. Yəqin ki, indi Azər öz yazılarının da belə gözəl kitab şəklində işıq üzü görməsindən xəbərdardır və yəqin ki, bu işi görən adamların qədirşünaslığını da yüksək qiymətləndirir.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda hər kəsi yada salmağa çalışırlar, hər bir qiymətli tapıntını oxuculara çatdırmağa səy edirlər. İnstitutun bütün mərhum əməkdaşlarının əlyazmaları imkan olduqca çap olunur. Azər Mehdioğlunun "İbn Xəldun və başqaları" kitabı kimi. Kitabın redaktorları f.e.d. Məmməd Adilov və f.e.n. Paşa Kərimov kitaba Azərin dostları adından bir kiçik yazı da əlavə ediblər. "Aramızda bir filosof vardı" adlanan bu yazı bizə Azər haqqında çox şey deyir. Kitaba Azərin "İbn Xəldun və onun fəlsəfəsi" adlı namizədlik dissertasiyası əsasında yazdığı monoqrafiya, yarımçıq qalmış "Azərbaycanın məşhur sufiləri" adlı kitabdan bir hissə və müxtəlif illərdə çap olunmuş məqalələri daxil edilmişdir.

Monoqrafiyaya yazılmış ön sözdən məlum olur ki, Əbu Zeyd Əbdürrəhman Məhəmməd ibn Xəldun elm aləmində məşhur "Müqəddimə" müəllifi kimi tanınır, son dövrlərdə isə ona tarixi fəlsəfənin və sosiologiya elminin banisi kimi

baxılır. Müəllif bu tədqiqat işini yazarkən bir sıra rus, Azərbaycan və türk mənbələrindən və bu dillərə tərcümə edilmiş ərəb-fars və Qərbi Avropa müəlliflərinin əsərlərindən istifadə etdiyini diqqətə çatdırır. Burada azərbaycanlı müəlliflərin əsərlərinə müraciət də qeyd olunmuşdur. Əsər üç böyük hissədən ibarətdir. "İbn Xəldunun həyatı və yaradıcılığı" adlı bölümdə müəllif ümumilikdə on dördüncü əsr islam dünyasına nəzər yetirir, sonra İbn Xəldunun həyatından bəzi məlumatları bizə çatdırır və elmi yaradıcılığına keçir. Burada İbn Xəldunun elm aləminə məlum olan səkkiz əsəri qeyd edilir. "Müqəddimə" əsərində Allahın və peyğəmbərin tərifi ayrıca diqqətə çatdırılır. Müəllif tədqiqat obyektinə səthi yanaşmır, "İbn Xəldunun elmi araşdırma metodu" adlı ayrıca yazıda tarixi araşdırma metodundan bəhs edərək, İbn Xəldunun özündən əvvəlki metodlarla razılaşmayaraq, ondakı qüsurlara tənqidi yanaşaraq yeni metodologiya işləyib hazırladığını bildirir.

"Ümran elmi, ümranın tərifi və ümran-mədəniyyət müqayisəsi", "İbn Xəldunun əsabiyyət təlimi", "İbn Xəldunun nəfs haqqında fikirləri" adlı yazılarda da müəllifin incə araşdırmalarına, dəyərli fikirlərinə şahid oluruq. Müəllif yazır: "İbn Xəldunun "Müqəddimə" əsərini oxuyan, elmin hər hansı bir sahəsinə mənsub olan araşdırıcı orada öz ixtisasına uyğun sanballı nəzəriyyələrə, fikir və mülahizələrə rast gəlir. Təsadüfi deyildir ki, İbn Xəldunun elmi irsi araşdırılmağa başlanan vaxtdan bir çox məşhur alimlər, o cümlədən filosoflar, sosioloqlar, tarixçilər, psixoloqlar və b. "Müqəddimə" üzərində öz elmi mövqelərindən araşdırmalar apararaq, sanballı elmi əsərlər yazmışlar..."

Monoqrafiyanın "İbn Xəldunun dini və sosioloji görüşləri" fəslində müəllif "Müqəddimə" əsərində sosioloji baxışlar"dan, İbn Xəldunun təsəvvüfi görüşlərindən, İmam Qəzali ilə müqayisəli şəkildə, İbn Xəldunun vəhdəti-vücud fəlsə-

fəsində münasibətindən İbn Ərəbi ilə müqayisəli şəkildə söhbət açır. Burada İbn Xəldunun təsəvvüfə verilən təriflər haqqındakı fikirləri, təkamül haqqındakı düşüncələri, islam cəmiyyəti, onun formaları və onların xüsusiyyətləri, iqtisadi həyat və ictimai struktur münasibətləri haqqındakı fikirləri açıqlanmış, bu fikirlərə münasibət bildirilmişdir.

Monoqrfiyanın "İbn Xəldunun siyasət fəlsəfəsi" bölümündəsə siyasət, dövlət əsabiyyət anlayışları açıqlanmış, sosial həyatın nizamlanmasında dövlətin rolundan, dövlətin təkamülündən danışılmışdır. Müəllif İbn Xəldunun siyasət fəlsəfəsini araşdırarkən, dərin fikirlərə istinad etmiş, inandırıcı şəkildə öz fikirlərini açıqlamağa çalışmışdır.

"Azərbaycanın məşhur sufiləri" əsərində təsəvvüf kəlməsini açmağa, şərh etməyə çalışan müəllif onun etimologiyasına varır, təsəvvüfə verilən təriflər ətrafında fikirlərini qeyd edir, təsəvvüfi düşüncənin tarixinə enir, ümumiyyətlə, təriqətlərin yaranmasından çöz açır, təsəvvüfün "Quran"a əsaslanması haqqındakı fikirlərə müraciət edir onun islam düşüncə tərzindəki mövqeyini və xüsusiyyətlərini diqqətə çatdırır. Burada zahir-batin anlayışı, onun təsəvvüflə əlaqəsi, təsəvvüfdə eşq və digər anlamlarla bağlı fikirlər də maraq doğurur.

Azər Mehdioğlunun kitaba daxil edilmiş "Eşq şəhidi-Mənsur həllac", "Mistisizm-təsəvvüf. Eyniliklər və özəlliklər", "Təriqət", "XV-XVII əsr türkdilli əlyazmalarda təsəvvüf", "Çağdaş dünyada mədəniyyət böhranı və sufizm", "Nəqşbəndilik", "Təqlid təsəvvüfün əsasıdır" kimi məqalələrindəki fikirlər, müraciət etdiyi obyektlər, müəllifin düşüncə tərzi, mövqeyi, yanaşması diqqəti çəkir.

Kitabı əlimə alanda kədərim sevincimi üstələmişdisə də, oxuyub qurtaranda əksinə, sevincim kədərimə qalib gəldi. Artıq Azərin onu yaşadacaq dəyərli bir kitabı var. Demək Azər yaşayır...

"Ədəbiyyat qəzeti", 01.06.07.

DÜNƏNÇÜN MƏŞHUR, BUGÜNÇÜN YENİ İMZALAR

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda hər il onlarla kitab işıq üzü görür. Bu kitablar başqalarından onunla fərqlənir ki, illər uzunu arxivlərdə, sandıqlarda qalıb qadağalar üzündən aşkara çıxarılmayıb, məhz bugünkü demokratik şəraitdə, müstəqil Azərbaycanda oxuculara tanınmaq imkanı qazanıb. Öz dövründə məşhur olan, bu gün üçünsə yeni imza kimi səslənən bu adlar bizim institutun elmi əməkdaşları tərəfindən aşkar edilir, əsərləri əski əlifbadan müasir əlifbaya çevrilib, dövrümüzün oxucusuna təqdim olunur. Bu yazımızda üç imza sahibindən söz açmaq istəyirik: Mirzə Məhəmməd Katib, Nəcəfqulu bəy Şeyda və Şərəf xanım.

Mirzə Məhəmməd Katibin "Şeirlər" kitabını Samirə Gəncəli çapa hazırlayıb. Kitabın elmi redaktoru Paşa Kərimovun yazdığı ön sözdən məlum olur ki, şair haqqında ilkin məlumat institutumuzun mərhum əməkdaşı Nəsrəddin Qarayevin "Poetik məclislər" kitabında verilmişdir. Şuşada anadan olub, burada təhsil alan, "Məclisi-fəramuşan"ın üzvü olan Katibin qəsidə, müxəmməs, mürəbbe, müstəzad, həcv və qəzəllərinin ümumi həcmi təxminən iki min beyt olduğu qeyd edilir. Kitabda Əliabbas Müznibin və Salman Mümtazın Mirzə Məhəmməd Katib haqqındakı məqalələri də yer almışdır ki, bunlar da şair haqqında oxuculara xeyli məlumat verir. Nəşrdə şairin heca vəznində yazdığı şeirləri, əruz vəznində qəzəlləri və bir həcvi verilmişdir. Qoşmalarında Vaqif ruhu hiss olunur. Qəzəlləri o dövrün klassik şeir əhatəsində özünəməxsus yer tutur. Şair öz dövründə həm də xəttatlıqla məşğul olmuş, katiblik etmiş, bir sıra kitabların üzünü köçürmüş və elə təxəllüsünü də buradan almışdır. Müznib onu zamanının görkəmli şairlərindən hesab edir. Salman Mümtaz isə onun

Mirzə Fətəli ilə dostluğundan, onunla məktublaşmalarından bəhs edərək, Mirzə Fətəlinin Katibi Tiflisə "Məclisi-xas"ə dəvət etdiyini vurğulayaraq, bununla onun necə dəyərli insan, yaxşı şair olduğunu diqqətə çatdırır. Yəqin ki, gələcəkdə Katib haqqında dolğun məlumatlar və şairin yeni şeirləri əldə edilib oxuculara çatdırılacaqdır.

İkinci müəllif də Şuşada anadan olmuş, tanınmış ailənin övladı sayılan Nəcəfqulu bəy Şeydadır. O, təhsilini Şuşada almış, "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinin fəal üzvü olmuşdur. Şairin "Şeirlər" kitabını institutumuzun əməkdaşı Nailə Mustafayeva nəşrə hazırlamış, kitabın redaktoru Paşa Kərimov ona ön söz yazmışdır. Bu yazıdan görünür ki, şair haqqında məlumat azdır və əldə edilən məlumatların əksəriyyəti də məhz şairin əsərlərindən alınmışdır. Şairin əsərlərindən ibarət olan dəftərdə xeyli qəzəl, qitə, müxəmməs, müsəddəs, mustəzad, rübai və müxtəlif şeirlər vardır. Şeirlərin yazılma tarixinin 1886-1936-cı illər əhatəsində olduğundan, Paşa Kərimov şairin azı 78 il yaşadığını qeyd edir. Ön sözdən görünür ki, şairin yaradıcılığı üç dövrə təsadüf edir: çarizm, demokratiya və sovet dövrü. Şair hər dövrə öz münasibətini bildirmiş, əsərlərində tənqid və təqdirlə bunu oxuculara çatdırmışdır. Nəcəfqulu bəy Şeydanın bu kitabına qəzəllər, rübailər, dubeytlər, qoşmalar və müxtəlif adlar altında şeirlər daxil edilmişdir. Şairin mənzum hekayətləri maraq doğurur. Ümumiyyətlə, heca vəznində yazdığı şeirlər sənətkarlıq baxımından əruz vəznində yazılmış nümunələri üstələyir. Çünki əruz şeirlərində xətalar çoxdur, bir növ sərbəst əruzu xatırladır, amma sərbəst əruz deyildir. Ola bilsin şair qələmini sınamaq istəyib, ya da qəzəlləri musiqi üstündə bədahətən deyib, ona görə də yazıya alınanda qusurlar meydana çıxıb. Bu məsələ ilə əlaqədar kitabın redaktoruna müraciət etdikdə Paşa Kərimov əlyazmadan olduğu kimi

köçürüldüyünü bildirdi. Ümumiyyətlə, şeirlərin mövzuları rəngarəngdir, məzmunca maraqlıdır. "Hekayələr və əfsanələr" başlığı altında verilən şeirləri də tərbiyəvi məsələlər diqqəti çəkir. Şairin Mövləvidən, Vəhşidən, Şeyx Sədidən, Xacə Hafizdən tərcümələri kitaba daxil edilmişdir. Kitab şairin ömrünün sonunda qələmə aldığı "Tövbənamə"si ilə bitir.

Növbəti kitab XIX əsr türk divan ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi öz dövründə tanınmış, Mövləvi təriqətinə mənsub olan, gözəl sənət nümunələrinin müəllifi Şərəf xanımın "Qəzəllər" kitabıdır. Vaxtilə dəyərli ədəbiyyatşünas, tədqiqatçı, şair Əliabbas Müznibin toplayıb nəşrə hazırladığı bu qəzəllər toplusunu institutumuzun əməkdaşı Samirə Əliyeva müasir əlifbaya köçürmüşdür. F.e.d. Azadə Musabəylinin redaktorluğu ilə çap olunan bu kitaba şairin 189 qəzəli daxil edilmişdir. Samirə xanımın kitaba yazdığı ön sözdən məlum olur ki, bir sıra Osmanlı-Türkiyə mənbələrində Şərəf xanım haqqında məlumatlar verilmiş, XX əsrin qırxıncı illərindən başlayaraq, onun ədəbi irsi tədqiqata cəlb olunmuşdur. İlk dəfə Həmdi Ertək tərəfindən "Şair Şərəf xanım" adlı otuz səhifəlik monoqrafiya çap olunmuş, əsrin sonunda isə Yusif Mardin şair haqqında geniş həcmli kitab nəşr etdirmiş, 2002-ci ildə isə professor Mehmet Arslan Şərəf xanımın bütün külliyyatını çapa hazırlamış, şairin divanını tədqiqata cəlb etmiş, onun həyat və yaradıcılığı haqqında geniş məlumat vermişdir. Azərbaycanda isə Əliabbas Müznib bir sıra şairlərin ədəbi irsini nəşrə hazırladığı kimi, Şərəf xanımın qəzəllərini də İstanbul çapından köçürüb nəşrə hazırlamışdır. Amma bir çox kitablar kimi bunu da çap etdirmək imkanı tapmamışdır.

Cəmi əlli üç il ömür sürən şairin istər sənətkarlığında, istərsə də həyat fəaliyyətində, dövrünün ziyalıları ilə əlaqələrində yüksək mövqeyi, səciyyəvi xüsusiyyətləri elə bu kiçik

kitabda verilən qəzəllərindən də aydın görünür. Qəzəllər istər əruz texnikası baxımından, istər mövzu baxımından, istərsə də batini fikirlərin verilməsi, ürfani rəmzlərin işıqlandırılması baxımından diqqəti cəlb edir və Şərəf xanımı bir böyük sənətkar kimi bizə tanıdır. Amma çox qəribədir ki, qəzəllərin dili sadədir, yəni o dövrə görə qəliz sözlərə, izafətlərə rast gəlinmir. Demək olar ki, osmanlı türkcəsinə məxsus sözlərə də təsadüf olunmur. Buradan belə çıxır ki, şair azəri türkcəsində yazmışdır, ya da Əliabbas Müznib şairin şeirlərini nəşrə hazırlayarkən, azəri türkcəsinə çevirmişdir, çünki bu qəzəllərin dili bizim XX əsrin əvvəllərində yaranan qəzəllərin dilinə uyğundur.

Təqdim etdiyimiz hər üç kitab böyük zəhmətlər bahasına başa gəlmişdir. Əlyazmada bəzən bir sözü oxumaq üçün saatlar, bəzən günlər lazım gəlir. Ancaq hər hansı bir şairin illərlə sandıqlarda qalan əsərlərini kitab halında oxuculara təqdim edəndə bütün bu əziyyətlər yaddan çıxır və əzabların yerini sevinc tutur: bu zaman düşünürsən ki, belə əzablara qatlaşmağa dəyər. Biz inanırıq ki, institutumuzun əməkdaşlarının səyi ilə işıq üzü görən kitablar ədəbiyyatımızın zənginləşməsinə xidmət edir.

"Ədəbiyyat qəzeti", 18.05.07.

✦✦✦

SÜLEYMAN ÇƏLƏBİNİN "VƏSİLƏTÜN-NİCAT" ƏSƏRİ

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda son vaxtlar çap olunan kitablar içərisində diqqəti çəkən əsərlərdən biri də Lamiyə Süleymanovanın nəşrə hazırladığı və tədqiqata cəlb etdiyi gərəkli bir əsərdən bəhs edən "Süleyman Çələbi Bursalının "Vəsilətün-nicat" əsərinin tekstoloji tədqiqi və elmi-tənqidi mətni" adlı kitabıdır. Kitabın elmi

redaktoru f.e.d. Azadə Musayeva, redaktoru Rübabə Şirinova, rəyçiləri f.e.d. Möhsün Nağısoylu və f.e.d. Kamandar Şərifovdur. Azadə Musayevanın kitaba yazdığı "Azərbaycanda "Vəsilətün-nicat"la bağlı ilkin araşdırma" adlı ön sözdən məlum olur ki, Süleyman Çələbinin bu əsəri indiyədək tədqiqata cəlb olunmamış və türk əlyazmaları şöbəsinin elmi işçisi Lamiyə Süleymanovanın bu sahədəki işləri ilkin araşdırmadır. Azadə xanımın fikrincə, "Monoqrafiya orta çağlar Türk xalqları ədəbiyyatının, onun islamla birbaşa bağlılıqlarının, mətnşünaslığın, paleoqrafiyanın və s. öyrənilməsində, elmi-tənqidi mətnlərin hazırlanmasında nəzəri və təcrübi mənbələrdən ola bilər."

Kitab iki hissədən ibarətdir. Birinci hissədə tədqiqat işi, ikincidə isə əsərin elmi-tənqidi mətni verilmişdir. Mətn yazıldığı ərəb qrafikalı əlifbada çap olnmuş, səhifələrin sonunda müqayisə olunan mənbələr göstərilmişdir. Tədqiqat işindən görünür ki, müəllif olduqca gərgin əmək sərf etmiş, böyük zəhmət bahasına bu kitabı ərsəyə gətirmişdir. Çünki, "Süleyman Çələbinin el arasında "Mövludi-şərif", "Mövludi-nəbi" kimi tanınan "Vəsilətün-nicat" əsərinin elə bizim Əlyazmalar İnstitutunda 29 nüsxəsi vardır və bunlardan ikisi daşbasma, qalanı əlyazmadır. Yəqin ki, Lamiyə xanım bu əsərlərin hamısını oxumuş, tutuşdurmuş, müqayisələr aparmış və əsərin elmi-tənqidi mətnini tərtib etmişdir. Məhəmməd peyğəmbərə həsr olunmuş bu əsərin bir çox nüsxələri Fransanın, İtaliyanın, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin və s. məmləkətlərin kitabxanalarında saxlanılır. Bu da əsərin dünya şöhrətli bir əsər olduğunu açıqlayır. XV əsr türk-islam ədəbiyyatının görkəmli mütəfəkkir şairi sayılan Süleyman Çələbinin həyatı və yaradıcılığı haqqında Türkiyədə və Avropanın müxtəlif yerlərində xeyli araşdırmalar aparılmışdır. Lamiyə Süleymanova öz tədqiqat işində müəl-

lif haqqında bu vaxta qədər aparılan elmi-tədqiqat işlərinə imkan daxilində müraciət etmiş, müəllif haqqında dolğun məlumat əldə etməyə, onun həyatı və yaradıcılığı haqqında oxuculara daha çox söz deməyə çalışmışdır.

Əsərin birinci fəslində müəllif bütünlüklə türk ədəbiyyatındakı mövludnamələrdən söz açmış və Süleyman Çələbinin "Vəsilətün-nicat" əsərinin nəzəri məsələlərinin daha qabarıq diqqətə çatdırılmasına çalışmışdır. Oxucular üçün anlaşıqlı olsun deyə, tədqiqatçı əvvəlcə, ümumiyyətlə, ədəbiyyat tarixindəki mövludnamələrdən bəhs açmış, hətta mövlud mərasimlərindən, insanların buna münasibətindən, şairlərin bu mövzuya müraciətindən, mövludnamələrin yaranmasından əhatəli danışmışdır. Sonra isə Süleyman Çələbinin "Vəsilətün-nicat" əsərini tədqiq edərək, yeri gəldikcə sitatlar vermiş, müqayisələr aparmış, öz fikirlərini açıqlamışdır.

Tədqiqat işinin ikinci fəslində müəllif həm "Vəsilətün-nicat" əsərinin əlyazma nüsxələrinin elmi-paleoqrafik tədqiqini vermiş, həm əski əlifbada, həm də müasir əlifbada nümunələr göstərmiş, eyni zamanda "Vəsilətün-nicat"ın təsiri ilə yazılmış digər mövludnamələrin əlyazma nüsxələrinin də elmi-paleoqrafik təsvirini vermişdir.

Tədqiqatın üçüncü fəslində isə "Vəsilətün-nicat"ın əlyazma nüsxələrinin tekstoloji tədqiqi və tənqidi mətninin tərtibi prinsiplərindən danışılır.

Kitaba daxil edilmiş zəngin ədəbiyyat siyahısından görünür ki, müəllif müxtəlif Azərbaycan, türk, rus və s. dillərdə olan ədəbiyyatlardan və xeyli əlyazma əsərlərdən istifadə etmişdir. Kitab doğrudan da böyük zəhmətin nəticəsidir və ümüd edirik ki, bu sahədə tədqiqat aparan gənc alimlərin yaxın köməkçisi olacaq.

"Ədəbiyyat qəzeti", 04.05.07.

✦✦✦

“AZƏRBAYCANDA MEMUAR ƏDƏBİYYATININ TARİXİ”

Keçən il Əlyazmalr İnstitutunda qırxdan artıq kitab işıq üzü görüb ki, bunlar kataloq, lüğət, ayrı-ayrı tarixi şəxsiyyətlərin arxivləri, klassik şeir nümunələrini özündə toplayan divanlar, şeir kitabları, müxtəlif tərcümə əsərləri və elmi-tədqiqat işlərindən ibarətdir. İnstitutumuzun əməkdaşı, filologiya elmləri namizədi Nailə Səmədovanın doktorluq işi ilə əlaqədar, professor Teymur Əhmədovun redaktorluğu və elmi məsləhətçiliyi ilə nəşr olunan “Azərbaycan memuar ədəbiyyatı tarixi” adlı monoqrafiyası da öz sanbalı ilə diqqəti cəlb edir. Azərbaycan ədəbiyyatında ilk dəfə hərtərəfli tədqiqata cəlb olunmuş memuar ədəbiyyatı monoqrafiyada sistemli şəkildə araşdırılmış, burada demək olar ki, Azərbaycanın görkəmli ədəbiyyat, elm və sənət adamlarının gündəlikləri, xatirələri, tərcümeyi-halları və məktubları əhatə olunmuşdur.

Kitabın “Memuarlar bir janr kimi” adlı bölümündə müəllif memuar janrı və onun növlərindən danışmış və bütövlükdə dünya ədəbiyyatındakı memuar janrına öz baxışı çərçivəsində diqqət yetirmişdir. Müəllifin qeyd etdiyi kimi, memuarlar digər əsərlərdən onunla fərqlənir ki, burada müəllif şəxsiyyəti özünün daxili aləmi ilə ön plana çəkilir.

Monoqrafiya müəllifin fikrincə, real həqiqətlərin istiqamətləndirilməsi, keçmişin mənzərəsinin daha mükəmməl canlandırılması memuar ədəbiyyatının əsas xüsusiyyətləridir. Memuarların səciyyəvi cəhətlərini araşdıran müəllif belə nəticəyə gəlir ki, “Memuarların ən başlıca cəhətləri–onun təşkilati-struktur prinsipinin şəxsi-subyektiv başlanğıcı, ha-

disələrin keçmişə çevrilmiş xarakterinin canlandırılması və onların spesifik vasitəsinin yaddaş olmasıdır".

Dünya ədəbiyyatında memuar janrına nəzər salan tədqiqatçı "memuar" sözünün fransızcadan olduğunu və ilk dəfə burada nəzər-diqqəti cəlb etdiyini əsas tutaraq "Memuarların vətəni Fransadır" fikrini qəbul edir. Memuarların ən kamil nümunələrinin məhz burada yarandığını qeyd edərək, XVII əsrdə böyük məna kəsb edən memuar ədəbiyyatının ilk təcrübələrinin XIII əsrdə yarandığını bildirir. Fransızların anlayışında tarix hesab olunan dövrün əsas nümayəndələrindən F.Kommin, F.Laroşfukon, Russo, Sen-Simon, R.Rolan və L.Araqonu misal göstərir.

Sonra memuar ədəbiyyatının inkişaf tarixini izləyən tədqiqatçı N.V.Hötenin, P.Nerudanın, A.S.Puşkinin, A.N.Gertsenin və b. rolunu da qeyd edir və onların tarixə düşən memuar əsərlərindən söz açır. Rus memuaristikasının kəmiyyət və keyfiyyətindən danışan müəllif XIX əsrin ikinci yarısını xüsusilə qeyd edir və N.N. Panayevin, P.V.Annenkovun, D.V.Qriqoryeviçin layiqli yerini qeyd edir. Daha sonra rus tənqidçisi B.Q.Belinskinin, yazıçılardan L.N.Tolstoyun, M.Qorkinin əsərlərindən bəhs edir, habelə V.Kateyevin, K.Paustovskinin, N.Ostrovskinin və b. adlarını qeyd edir və bu janrın tarixində onların da payının olduğunu bildirir. XX əsr rus memuar janrının tarixinə də ötəri nəzər salır.

Monoqrafiyanın əsası "Azərbaycan ədəbiyyatında memuar janrı" olduğundan, kitabın xeyli hissəsi bu janrın tarixinə həsr edilmişdir. Bu bölüm iki hissədən ibarətdir: orta əsr klassiklərinin əsərlərindəki memuar rüşeymlər və XIX əsr memuar ədəbiyyatı. "Orta əsrlərdə müəlliflər xatirələr, ayrıca tərcümeyi-hallar yazsalar da, bir çox əsərlərində, eləcə də münşəatlarında özlərinin və ya başqalarının,

xüsusən də müasirlərinin həyat və fəaliyyətlərindən bəhs etmişlər. Belə əlamətlərə Nəsirəddin Tusi, Əbülüla Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi və digər klassiklərin əsərlərində təsadüf edilir. Lirik şeir növü olan fəxriyyələrdə şairlər öz istedad, bilik və qabiliyyətlərini tərif və tərənnüm etmişlər. Bu baxımdan fəxriyyələrdə avtobioqrafik məzmun vardır. Azərbaycan ədəbiyyatında salnamə, kitabə, yol qeydləri ilk memuar nümunələrindən sayıla bilər",- yazan müəllif Əbülüla Gəncəvinin Xaqaniyə yazdığı şeirdən, Xətib Təbrizinin qeydlərindən, Sam Mirzənin atası Şah İsmayıl Xətai haqqında, habelə Həbibinin həyatından bəhs edən qeydlərindən, Dövlətşah Səmərqəndinin "Təzkitətüş-şüəra"sındakı məlumatlardan, Əhdi Bağdadinin "Gülşəni-şüərasındakı qeydlərindən, Nizaminin əsərlərindəki avtobioqrafik məlumatlardan, Xaqaninin "Töhfətül-İraqeyn" əsərindəki memuar qeydlərdən, Füzuli divanının dibaçəsindəki məlumatlardan, habelə Məhəmmədəli Tərbiyətin, Mirzə Yusif Qarabağinin toplularındakı orta əsr şairləri haqqında yazılardan söz açır və bunları orta əsr ədəbiyyatımızda memuar rüşeymləri hesab edir.

XIX əsr Azərbaycan memuar ədəbiyyatından danışarkən Abbasqulu Ağa Bakıxanovun "Xəyalın uçuşu" poemasını xüsusi qeyd edən müəllif, onun "Ərzi-hal", "Firəng məclisi" kimi əsərlərindən də danışır və Əlyazmalar İnstitutunda saxlanılan arxiv materiallarından da qeydlərini verir. Bu dövrdə memuar janrının nümayəndəsi kimi ikinci yerdə Mirzə Fətəli Axundovdan söz açan tədqiqatçı yenə də çap materialları ilə paralel institutda saxlanılan arxiv materiallarına da istinad edir. Daha sonra bu dövrün nümayəndələrindən Seyid Əzim Şirvaninin, Mirzə İsmayıl Qasirin, Mirzə Rəhim Fənanın, daha sonra Həsən bəy Zərdabinin, Abdulla Şaiqin, M.T.Sidqinin, Məmməd Səid Ordubadinin,

Nəcəf bəy Vəzirovun və başqalarının xatirələrindən, tərcümeyi-hallarından və s. danışan tədqiqatçı XIX əsr Azərbaycan memuar ədəbiyyatını hərtərəfli işıqlandırmağa çalışmış, bu zaman xüsusilə arxiv materiallarına müraciət etmişdir ki, bu da müəllifin daha ciddi, daha dəqiq işlədiyini göstərir.

XX əsr Azərbaycan memuar ədəbiyyatından danışarkən müəllif yenə də arxivlərə istinad edir və burada ən maraqlı faktlardan biri sənət adamlarının dostları, tərəf müqabilləri və digər görkəmli şəxsiyyətlər haqqında xatirələrinə müraciətdir. Əlyazmalar İnstitutunun şəxsi arxivlər şöbəsində bir sıra sənətkarların əlyazmaları saxlanılır. Bunların da müəyyən qismini memuarlar təşkil edir. Hüseynqulu Sarabskinin, Mirzağa Əliyevin, Sidqi Ruhullanın, Hacıağa Abbasovun, Əhməd Anatollunun, Əhməd Qəmərlinin, Mirmahmud Kazımovskinin və başqalarının onlarla xatirə yazılarında maraqlı, diqqəti çəkən məqamlar, dəyərli məlumatlar vardır.

XX əsr Azərbaycan memuaristləri içərisində də yazıçılar xüsusi yer tuturlar. A.Şaiqin, A.Səhhətin, Ə.Nəzminin Hadi haqqında, Ordubadinin Hadi, Zərdabi, Mirzə Cəlil, Sabir, Səhhət, Şaiq, Vahid, C.Cabbarlı haqqında, Əliabbas Müznibin özü, mühütü, onu əhatə edən yaxınları haqqında xatirələri diqqıəti çəkir.

Müəllifin fikrincə, memuar ədəbiyyatımızın ən zəngin nümunələri Cəlil Məmmədquluzadənin, Ömər Faiq Nemanzadənin, Əli Nəzminin, Abdulla Şaiqin, Yusif Vəzir Çəmənzəminlinin, Məmməd Səid Ordubadinin, Əziz Şərifin xatirələridir. Müəllif bu şəxsiyyətlərin yazılarından nümunələr verir, sitatlara söykənərək fikirlərini əsaslandırır. Burada əsasən kitab şəklində təqdim olunan memuarlardan söhbət açılır: Ordubadinin "Həyatım və mühütim", Cəlil Məmmədquluzadənin "Xatiratım", Ə.Nəzminin "Keçmiş günlərim",

A.Şaiqin "Köhnə dünya", Çəmənzəminlinin "Həyatımın 20 ili" və s.

Müəllif "Xatirələrdə insan, zaman və mühütün lirikası" bölümündə əsasən Ordubadinin "Həyatım, mühütüm" memuarından söhbət açır.

Kitabın hər bir ədəbiyyat adamı və ədəbiyyatsevərlər tərəfindən maraqla qarşılanacağına inanırıq.

"Ədəbiyyat qəzeti", 30.03.07

✦✦✦

FRANSIZ VƏ HOLLAND SƏYYAHLARI

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Tərcümə və informasiya şöbəsində, yarandığı üç ildə xeyli səmərəli işlər görmüşdür. Tarix elmləri doktoru Fərid Ələkbərovun rəhbərlik etdiyi bu şöbənin əməkdaşları bir sıra əsərlər tərcümə etmişlər ki, bunların da çoxu artıq işıq üzü görmüşdür. Bu yaxınlarda "Nurlan" nəşriyyatında Fərid Ələkbərovun redaktorluğu ilə çap olunmuş Pyer Davit: "Dünya və ya onun dörd tərəfinin ümumi təsviri", Kornel Lö Brən: "Moskoviya, İran və Şərqi-hind adalarına səyahət" kitabını fransız dilindən institutun elmi işçisi Sayalı Əliyeva tərcümə etmişdir.

Bu kitabda XVII-XVIII əsrlərdə Azərbaycanda olmuş fransız və holland səyyahlarının bir sıra dəyərli qeydləri diqqəti çəkir. Bu qeydləri vaxtilə görkəmli ədibimiz Yusif Vəzir Çəmənzəminli adı çəkilən əsərlərdən götürmüşdür. Həmin əlyazma Əlyazmalar İnstitutunda Çəmənzəminlinin arxivində saxlanılır. Sayalı Əliyeva bu əlyazmanı çapa hazırlayarkən orijinala da baxmış, Çəmənzəminlinin qeydə almadığı Azərbaycanla bağlı digər məlumatları da tərcümə edib kitaba daxil etmişdir. Sayalı Əliyevanın kitaba yazdığı

ön sözdən aydın olur ki, tərcüməçi təkcə Çəmənzəminlinin işi ilə kifayətlənməmiş, özü də xeyli zəhmət çəkərək kitabın daha sanballı olmasına çalışmışdır. Müəllif ön sözdə qeyd edir ki, Pyer Davitin və Kornel Lö Brənin əsərləri Azərbaycan tarixini öyrənmək baxımından maraqlı faktlarla zəngindir. Bununla yanaşı, həmin əsərlərdə bir sıra doğru olmayan məlumatlara və çoxsaylı təhriflərə də rast gəlinir. Müəllif həmçinin Pyer Davitin qeydlərinin tarixi ardıcıllıqla deyil, pərakəndə sıralandığını bildirir. Bütün bunlara baxmayaraq, müəllif kitabın tariximizin araşdırılmasında müəyyən xidməti olacağına ümüd bəsləyərək, onun oxucuara təqdim olunmasını gərəkli sayır.

Pyer Davitin qeydləri üç böyük başlıqda verilmişdir: Sofi dövləti, Midiya Atropati və ya Şirvan, Böyük Midiya və Adərbayan. Bu yazılarda tarixi faktlar, adət-ənənələr, ümumi xüsusiyyətlər, sərvətlər, ölkənin idarəetmə üsulu, dini inanclar haqqında məlumatlar vermişdir.

Kornel Lö Brənin qeydləri Pyer Davitin qeydlərindən qat-qat çoxdur. Burada müəllif ayrı-ayrı tarixlərdə gördüklərini, düşündüklərini qeydə almışdır. Əsasən Dərbənd, Şamaxı, Xəzər dənizi, Bakı, Gəncə, Gülüstan dağı, Ərdəbil haqqında məlumat vermişdir. Müəllif diqqətlidir, xırda şeylər belə gözündən yayınmayıb, əhatəli təsvirlər verib. Burada məbəd, körpü, karvansara, müxtəlif qəbirlər haqqında da məlumatlar vardır. Müxtəlif mərasimlər belə müəllifin diqqətini cəlb etmişdir. O hətta buradakı qida məhsullarının bahalığından belə söz açmış, tarixdən ta adi məişətə qədər hər şeyi əhatə etməyə çalışmışdır. Qeydlərə İran hökmdarlarının siyahısı da daxil edilmişdir. Müəllif Qəzvin, Zəncan şəhərləri haqqında da ayrıca bəhs edir və farsların törətdikləri zorakılıqlardan da danışır. Kitabda 25 şəkil verilmişdir ki,

bunların arasında Kornel Lö Brənin şəkli, adı çəkilən şəhərlərin şəkilləri və s. diqqəti çəkir. Bir sözlə, burada oxucular qədim Azərbaycanı bir də yenidən görmək, tanımaq imkanı əldə edə bilərlər.

Sayalı Əliyeva tərcümə zamanı olduqca dəqiq iş aparmış, müəllifin səhvlərini diqqətlə izləmiş, müəmmalı olan məlumatların açıqlanmasına çalışmış və səhifələrin sonunda qeydlərini etmişdir. Tərcüməçinin işi olduqca təqdirəlayiqdir.

"Ədəbiyyat qəzeti", 02.03.07.

✦✦✦

"ƏLYAZMA KOLLEKSİYALARI KATALOQU"

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu bu yaxınlarda daha bir kitabı oxucuların ixtiyarına vermişdir. Filologiya elmləri namizədi Tahirə Nurəliyevanın ərsəyə gətirdiyi "Əlyazma kolleksiyaları kataloqu" bizə verdiyi məlumatlar baxımından öz sanbalı ilə başqa kitablardan çox fərqlənir. Kitabın elmi redaktoru f.e.d. Cənnət Nağıyeva, rəyçisi f.e.d. Möhsün Nağısoyludur. Müəllif müqəddimədə kitabın tərtibi, əlyazmaların təsviri, tərcümələr, izahlar haqqında geniş məlumat vermişdir. T.Nurəliyeva bacarıqlı bir mətnşünas kimi bütün kolleksiyaları araşdırmış, əsasən ərəb, fars, türk, özbək dillərində olan əlyazmalardan istifadə etmişdir.

Burada Abbasqulu Ağa Bakıxanovun, Bəhmən Mirzə Qacarın, Mirzə Fətəli Axundovun, Hüseyn Əfəndi Qayıbovun, Məhəmməd Tağı Sidqinin, Novruz Ağayevin, Abdulla Şaiqin, Həbibulla Səmədzadənin, Məhəmməd Əbdüləzəl oğlu Dəmirçizadənin kolleksiyalarına daxil olan əlyazmalardan bəhs olunur. Tahirə xanım hər bir kolleksioner haqqında qısa məlumatdan sonra onun kolleksiyasına daxil olan

əlyazmalara keçir, hər bir əlyazmanın ölçüsünü, həcmini, hansı xətlə, hansı mürəkkəblə yazıldığını qeyd edir. Əlyazmanın avtoqraf, ya katib yazısı olduğunu, tərcümə edildiyini, kimdən alındığını, hətta qısa məzmununu da diqqətə çatdırır. Bəzən bir əlyazmanın üstündə bir neçə adamın adı, möhürü olur. Tərtibçi bunları da nəzərdən qaçırmamış, bütün adları, hətta o adamların əlyazmanı əldə edən vaxt kitaba yazdıqları bir-iki cümləlik avtoqrafları belə tərcümə edib, oxuculara açıqlamışdır. Bu avtoqraflar içərisində hikmətli sözlərə və kiçik şeir parçalarına da rast gəlmək mümkündür ki, bunlar da diqqəti çəkir. Məsələn, Bakıxanovun "İndi mənimdir, sonra qeyrilərinin olacaq", "Kitab ürək açan nemətdir, Allahın köməyi ilə istənilən şəxsə verirəm" sözləri, eləcə də M.Ə.Dəmirçizadənin kolleksiyasına daxil olan ibn Movlana Şücainin əlyazmasının titul vərəqində yazılmış müasiri Əhməd ibn Musa Xəyalinin üç fərdi diqqəti çəkir:

Xəyalinin xəyalini xəyal etməz müxəyyələr,
Xəyal olar, xəyal etsə xəyalini.

Xəyalinin xəyalini xəyal etdim, xəyal imiş,
Xəyala gəlməyən şeylər yazıldı gül xəyalilə.

Xəyalinin xəyalini müxəyyələr xəyal etməz,
Xəyali öz xəyalini xəyalında xəyal etməz.

T.Nurəliyeva "Kolleksionerin xəttinə müxtəlif qeydlərin olması əlyazmanın qiymətini artırır, onun keçdiyi tarixi yolu öyrənməyə kömək edir" fikrində böyük həqiqət vardır. Əlyazmalara yazılan haşiyələr, qeydlər həqiqətən də bizə çox şey deyir. Tahirə xanımın çətin, əziyyətli işinin bəhrəsi olan bu kitab isə bu günün ədəbiyyatsevərlərinə, kitabsevərlərinə, həqiqi ədəbiyyat adamına daha çox şey deyə bilər.

"Ədəbiyyat qəzeti", 28.04.06.

QARŞIMDA ÜÇ KİTAB VAR

Şəlalə Hümmətlini hələ Əlyazmalar İnstitutuna yenicə gələndən tanıyıram. On ilə yaxın bir müddətdə onu həmişə işində prinsipial, çalışqan, özünə qarşı tələbkar bir elmi işçi kimi tanımışam. Akademiyada keçirilən tədbirlərdə oxuduğu və ara-sıra mətbuatda "Ana" təxəllüsü ilə çap etdirdiyi şeirləri ilə həzin, kövrək bir şair kimi tanınan Şəlalə, repressiya qurbanlarımızdan olan görkəmli ədib Yusif Vəzir Çəmənzəminlinin tədqiqatçısıdır. Müxtəlif sənət adamları haqqında yazdığı publisistik məqalələri oxucular tərəfindən maraqla qarşılansa da, Şəlalə elmi yazıları ilə elmi tədqiqat sahəsində daha gərəkli olduğunu sübuta yetirir.

Qarşımda Şəlalənin neçə ilin gərgin əməyi sayəsində ortaya qoyduğu üç kitabı durur.

Haqqında danışacağım üç kitabdan birincisi Yusif Vəzirin "Hədərən-pədərən" adlı felyetonlar kitabıdır. Elmi redaktoru tanınmış çəmənzəminlişünas, professor Tofiq Hüseynoğlu olan bu kitaba Əlyazmalar İnstitutunun əməkdaşları f.e.doktorları Cənnət Nağıyeva və Məmməd Adilov rəy vermişlər. Şəlalə Hümmətli kitaba o qədər də geniş olmayan bir ön söz yazmış, Çəmənzəminlinin gizli imzalarından, müxtəlif mətbuat orqanlarında çap olunmuş felyetonlardakı tənqid hədəflərindən söz açmış, müəllifin ana dilimizin saflığı uğrunda daim mübarizə apardığını və bəzi felyetonlarında bu vacib problemin həllinə toxunduğunu qeyd etmişdir. Ön sözdə müəllifin belə bir qeydi diqqətimizi çəkir: "Hədərən-pədərən"lərdən ikisi – "Yazmaq istəmirəm" və "Zahir və batin" adlı felyetonlar 1967-ci ildə "Ədəbiyyat qəzeti"ndə çap olunduğu üçün kitaba daxil etmədik. "Y.V.Çəmənzəminli "Hədərən-pədərən" (felyetonlar) adlı

bu kitabda toplanan felyetonların əksəriyyəti çəmənzəminlişünaslara tanış olsa da, müasir oxuculara ilk dəfədir ki, təqdim olunur. Kitaba daxil edilən "Fərhad və Şirin" adlı felyeton isə çəmənzəminlişünaslıq üçün də yenidir". Kitaba daxil edilmiş on yeddi felyeton və eyni zamanda, tədqiqatçının qeydləri nəinki bu sahədə çalışan tədqiqatçılar üçün, elə oxucular üçün də maraqlıdır və yəqin ki, yazıçının yeni nəşr olunacaq üçcildliyinə bunların da daxil edilməsi zəruridir.

Şəlalə xanımın bizə təqdim etdiyi ikinci kitab "7 kitabdan biri, yaxud saliklikdən arifliyədək" adlanır. Şəlalə qeyri-adi insanlar haqqında düşünməyi və yazmağı çox sevir. Öz ruhuna yaxın saydığı sənət, ədəbiyyat adamlarının həyat yolunu öyrənmək, yaradıcılığını araşdırmaq istəyindən doğan bir arzudur bu yeddi kitab. Yeddi kitabdan birincisi tanınmış ekstrasens, münəccim, yazıçı və ədəbiyyatşünas, filologiya elmləri namizədi Firudin Qurbansoya həsr edilmişdir. Kitabın elmi redaktoru Vasim Məmmədəliyev, rəyçiləri Möhsün Nağısoylu və Nəzakət Məmmədlidir. Vasim müəllimin və Möhsün müəllimin kitaba yazdıqları "ön söz"lərdə də Firudin Qurbansoy haqqında dəyərli fikirlərlə tanış oluruq.

Şəlalə Hümmətlinin oxuculara təqdim etdiyi üçüncü kitab "Biz kimik?" adlanır. Kitabda Yusif Vəzir Çəmənzəminlinin məqalələri toplanmışdır. Kitaba ön söz yazan tədqiqatçının məlumatına görə bura daxil edilən bəzi məqalələr hətta çəmənzəminlişünaslıq üçün də yenidir. Tədqiqatçı bu kitabı ərsəyə gətirmək üçün illərlə Əlyazmalar İnstitutunun arxivlərində saxlanılan əlyazmaları araşdırmış, yeni tapdığı materialları çap olunmuş yazılarla tutuşdurmuş, yazıçının ədəbi irsindən olan yeni əsərlərin oxuculara çatdırılmasında gərgin əmək sərf etmişdir.

Tədqiqatçı yazıçının arxivini araşdırarkən orada müxtəlif

sənədləri aşkara çıxarmış və oradakı bir sənəddə Çəmənzəminlinin çap olunmuş kitablarının və məqalələrinin siyahısını əldə etmişdir. Burada yazıçının "İqtisadi xəbərlər" məcmuəsində çap olunmuş "Bizdə xalıçılıq", "Bizdə pambıqçılıq", "Neftin keçmiş və hal-hazırkı mənası" adlı məqalələrinin "Zərəsb" imzası ilə çap olunduğunu aşkara çıxarmışdır ki, bu da çəmənzəminlişünaslıq üçün yeni tapıntıdır. Tədqiqatçı yazır: "Bu günəcən gizli qalan "qızıl at" mənasını verən bu gizli imza ilə Yusif Vəzirin həmin məcmuədə müxtəlif illərdə dərc edilən digər məqalələrini də aşkar etdik: "Meşələrimizin islahı yolunda", "Qoyunçuluq", "Bizdə südçülük" və s. İqtisadiyyatın müxtəlif sahələrinə dair maraqlı məlumatlarla, tarixi faktlar və statistik rəqəmlərlə zəngin olması baxımından əhəmiyyətli olan bu məqalələrin hər biri Y.Vəzirin ensiklopedik biliyə, hərtərəfli dünyagörüşünə malik bir şəxsiyyət olduğuna bir daha sübutdur".

"Ədəbiyyat qəzetu", 22.04.05.

✦✦✦

GÖZƏLLƏR SƏRVƏTİ

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu son illər ərəb, fars və türk dilli mənbələrdən bir çox qiymətli əsərləri nəşrə hazırlayıb, oxucuların istifadəsinə vermişdir. Bu il çap olunan kitablar sırasında çox maraqla qarşılanan bir kitab diqqəti cəlb edib.

Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin "Xeyrati-Hesan" ("Gözəllər sərvəti") adlı kitabının türk və Azərbaycan qadınlarına aid olan hissələrini fars dilindən tərcümə edib ayrıca kitab şəklində nəşrə hazırlayan tarix elmləri namizədi Tahirə xanım Həsənzadə kitaba ön söz yazmış, bir çox göstəriciləri və qeydləri də bura daxil

etmişdir. Kitabın elmi redaktoru AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, perofessor Nailə xanım Vəlixanlı, tərcümənin redaktoru isə Arif Ramazanovdur. Kitaba 159 azərbaycanlı və türk qadın haqqında məlumat daxil edilmişdir. Burada bizə tanış olan bir çox adlara rast gəlinsə də, tanış olmayan xeyli qadın haqqında da dəyərli məlumatlar alırıq. Ön sözdə müəllifin verdiyi məlumatdan görtünür ki, Etimadüssəltənənin bu kitabı bütün Şərq qadınlarını əhatə etmişdir. Yəni, burada ərəb, fars, türk, azərbaycanlı, həbəş, hind qadınlarından ən layiqlilərindən, öz dövründə hansı cəhətinə, qabiliyyətinə görəsə başqalarından fərqlənən xanımlardan bəhs açılır. Kitabda adlar əlifba sırası ilə verilmişdir. İlk xanım Aminə-Yəhədullahdır. Tahirə xanım bu kitabın "Məşahürün-nisa" adlı kitabdan iqtibas olunduğunu, lakin müqayisələr zamanı ciddi dəyişikliklərin müşahidə edildiyini göstərir, qeyd edir ki, Məhəmməd Zehni əfəndinin "Məşahirün-nisa" kitabında Məhəmməd (s) peyğəmbərin anasının adı doqquzuncu səhifədə olduğu halda, Etimadüssəltənənin "Xeyrati-hesan" əsərində birinci səhifədə verilmişdir. Müəllifin fikrincə, Etimadüssəltənə kitaba xeyli əlavələr etmiş, öz yaxınları, doğmaları olan layiqli xanımların hqqında da məlumat vermişdir. Zehni əfəndinin kitabı iki cilddə olmuş, Etimadüssəltənənin kitabı isə üç cilddə çap olunmuşdur.

Kitabda verilən məlumatlardan görünür ki, bu xanımlar içərisində şairlər, dövlət işlərində yaxından iştirak edən xanımlar, mərd, döyüşkən qadınlar vardır. Şairlərin şeirlərindən nümunələr verilmişdir.

Bəzi xanımlar haqqında bir neçə cümlə, bəziləri haqqında isə yarım səhifəlik məlumat vardır. Kitab həm ədəbi cəhətdən, həm də tarixilik baxımından qiymətlidir. Keçmişimizi,

analarımızın, nənələrimizin mərdliyini, dəyanətini, şücaətini və intellektual səviyyəsini, ağıl-kamalını əks etdirən bu məlumatlar bizə çox şey deyir. Hər bir azərbaycanlı–türk gənc qızın stolüstü kitabı ola biləcək bu toplunun işıq üzü görməsi çox təqdirəlayiq haldır. Uzun müddətin, böyük zəhmətin bəhrəsi olan belə bir kitabı tərcümə edib oxuculara çatdırdığı üçün Tahirə xanıma təşəkkürümüzü bildiririk və ona bu çətin və müdrük işində yeni uğurlar, yeni kitablar arzulayırıq.

"Paklıq" qəzeti, 25.10.03.

✦✦✦

"RƏŞİD BƏY AXUNDOV"
(məktublar, sənədlər, tərcümələr, məqalələr)

Son illər AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda əlyazma kitablarının, arxiv materiallarının, qiymətli sənədlərin çap olunub üzə çıxarılması sahəsində ciddi işlər görülür. Hər il onlarla kitab institutun vəsaiti hesabına çap olunub oxuculara çatdırılır. Görülən işlərdə institutun direktoru Məmməd Adilovun böyük zəhməti vardır. Bu yaxınlarda Mirzə Fətəli Axundovun və oğlu Rəşid bəy Axundovun arxiv materiallarını əks etdirən "Rəşid bəy Axundov (məktublar, sənədlər, tərcümələr, məqalələr)" adlı sanballı bir kitab işıq üzü görmüşdür ("Nurlan", 2003). Materialları toplayıb kitabı tərtib edənlər və Rəşid bəy haqqında tədqiqatların müəllifləri Həsən Həsənov və Məmməd Adilovdur. Rus dilindən tərcümə və ərəb əlifbasından transliterasiya işini Məmməd Adilov aparmış, kitabın elmi redaktoru isə Həsən Həsənovdur.

Kitabın girişində Həsən Həsənovun Rəşid bəy Axundov haqqında geniş yazısı verilmişdir. Rəşid bəy Axundovun

həyatı, təhsili, tərcümə fəaliyyəti ilə bağlı maraqlı faktları oxucu ilə bölüşən müəllif bu yazının sonunda haşiyə çıxaraq, toplunun yaranması və işıq üzü görməsinin qısa tarixçəsini də verir, bu işdə ölkə Prezidenti cənab Heydər Əliyevin xüsusi diqqətini və qayğısını qeyd edir.

Məmməd Adilov isə "Rəşid bəydən bizə çatan..." adlı məqaləsində institutda saxlanılan Mirzə Fətəli Axundovun zəngin arxivindən və bu arxiv materialları içərisində təkcə onunla deyil, oğlu Rəşid bəylə də əlaqədar yazıların, sənədlərin olduğunu göstərir. Məqalə müəllifi kitaba Rəşid bəyin atası, anası bacısı, dayısı və başqaları ilə məktublaşmalarından sətirlərin, Rəşid bəylə bağlı sənədlərin, onun tərcümələrinin və məqalələrinin daxil edildiyini bildirir. Belə ki, kitaba 1991-ci ildə H.Ə.Həsənovun və E.Ə.Cəmilzadənin tərtib edib rus dilində çap etdirdiyi "Mirzə Fətəli və Rəşid bəy Axundovların yazışması" adlı kitabın Azərbaycan dilinə tərcüməsi, Rəşid bəyin fransız dilindən tərcümə etdiyi, 1987-ci ildə "Yazıçı" nəşriyyatında çap olunan Mirzə Fətəli Axundovun "Bir parijlinin həyatı" əsəri (redaktoru Məmməd Adilov, nəşrə hazırlayanı Şamil Zaman), "İsgəndərdən sonra" adlı tarixi oçerk, faydalı məsləhətlər daxil edilmiş və kitabın sonunda Mirzə Fətəli Axundovun "Şətrənc oyunu" adlı şeri və bu əsər haqqında tərtibçilərin qeydi verilmişdir. Onların fikrincə, Axundov bu şeri oğluna şahmat oyununu asan öyrətmək üçün yazmışdır.

Rəşid bəy Axundovun məktublaşmalarından həm onun, həm də valideynlərinin həyatı, yaşayış tərzi, çəkdiyi əzablar, eyni zamanda bu çətin həyatda yazıb-yaratmaq həvəsi, xalqı, milləti uğrunda apardığı mübarizə, onların ümüdləri, arzuları açıq-aydın görünür. Oxucu bir anlıq həm Mirzə Fətəlinin, həm də Rəşid bəyin həyatına enir, onların bütün yaşamını, bütün istəyini, arzusunu duyur. Oğlunu Brüsselə təhsil

almağa göndərən atanın, ananın həyəcanları, nigarançılığı, eyni zamanda övlada nəsihətləri, göstərişləri bu məktubların əsasını təşkil edir. Əsərin ən əsas, ən maraqlı cəhətlərindən biri isə odur ki, vətəndə baş verənlərin və Mirzə Fətəlinin bu olaylara öz münasibətini oğluna çatdırması, eləcə də universitet həyatı, keçirilən dərslərə baxışı, yeniliklərlə bağlı fikirlərinin övlad tərəfdən ataya çatdırılmasıdır. Burada oxucu daha çox məsələlərlə tanış olur, maraqlı detallar öyrənir. Rəşid bəyin yazdığı məktublarda onun maddi sıxıntı içərisində yaşadığının şahidi oluruq. Rəşid bəy orada təhsil alarkən, hər şeyə diqqət yetirir. Avropa mədəniyyəti ilə Qafqaz mədəniyyətinin müqayisəsi, universitetdəki dərslərin islam elmi ilə müqayisəsi, müharibə haqqında fikirlər, imtahanlarla bağlı düşüncələr, və b. bu kimi mövzular Rəşid bəyin məktublarının əsas mövzularıdır.

Kitabda Rəşid bəyin atası Mirzə Fətəliyə məktubları ilə yanaşı, öz oğlu Fətəliyə məktubu və oğlunun Rəşid bəyə məktubları da verilmişdir. Burada həmçinin müxtəlif şəxslərin Rəşid bəyə məktubları, eyni zamanda bir sıra şəxslərin bir-birinə məktublarında Rəşid bəy haqqında müxtəlif fikirlərə rast gəlirik. Bütün bunlar da oxucunun bir şəxsiyyət kimi Rəşid bəyi tanıması üçün gözəl imkan yaradır.

Kitaba Rəşid bəylə bağlı bir çox sənədlər, o cümlədən şəhadətnamələr, vəsiyyətnamə, şərtnamə, ərizə, vəkalətnamə, müqavilənamə və s. daxil edilmişdir.

Tərtibçilər Rəşid bəyin yaradıcılığına xüsusi yer ayırmışlar və onun tərcümə əsərlərini vermişlər. Burada, həmçinin, Rəşid bəyin avtoqrafları, atasının, anasının, oğlunun, bacısının və özünün müxtəlif şəkilləri verilmişdir.

Tərtibçilərin qeyd etdikləri kimi, oxucu kitabda verilən materiallarla tanış olarkən, həm Mirzə Fətəli Axundov haqqında, həm də onun ailəsi, oğlu Rəşid bəy haqqında hər-

tərəfli məlumat əldə edə bilər. Doğrudan da kitabda Rəşid bəy haqqında bilmədiyimiz məlumatlardan başqa, Mirzə Fətəli Axundov haqqında da naməlum, bəlkə də çoxlarının bilmədiyi məlumatlara rast gəlmək olur. Yaxşı məlumdur ki, M.F.Axundov xalqını, millətini sevən adam olub. Xalqın cahilliyi, savadsızlığı onu daim narahat edib. Hətta bu savadsızlığın kökünü əlifbanın çətinliyində görən Mirzə Fətəli ərəb əlifbasından latın qrafikasına keçməyin vacibliyini göstərib və ömrü boyu bu məqsəd uğrunda mübarizə aparıb. Ərəb əlifbasını "Qurani-Kərim"ə görə müqəddəs sayan müsəlmanlar yəqin ki, onun dəyişdirilməsinə mane olublar. Mirzə Fətəli isə xalqı savadsızlıqdan, cahillikdən qurtarmaq üçün dinin, daha doğrusu, fanatizmin, xurafatın maneə olduğunu hiss edib, bununla mübarizə apardığına görə dinsiz, allahsız hesab olunub. Amma Axundovun məktublarına baxanda onlarda "Allah" sözünün tez-tez işlədildiyinin şahidi oluruq. Məsələn, Axundovun Mirzə Yusif xana yazdığı məktubdan: "...Eyni zamanda Rəşid paşanın Sizə salamı var və əlinizdən öpür. Bu il yeddinci sinfə keçib. Hal-hazırda yeddinci sinfin şagirdidir. Bir ildən sonra gimnaziyaya daxil olmaq üçün dərs mərhələsini bitirəcəkdir. Sonra Allahtəalanın köməyi ilə islam dilini (yəni ərəb dilini) öyrənməyə başlayacaqdır..." Növbəti məktubundan: "...Oğlum Rəşid Sizin əlinizi öpür. Gimnaziyanı bitirmişdir. Hazırda evdə müstəqil şəkildə ərəb və fars dillərini öyrənməklə məşğuldur. Avropa dilini isə müəllimin köməyi ilə öyrənir. İndi fransız dilini çox yaxşı bilir. Bacarıqlı gəncdir. Onun istedad və davranışından çox razıyam. Xudavəndi-aləm gözümün işığı Hüseyni və onu öz himayəsində saxlasın, bizdən sonra onlar bizim yadigarlarımızdır..."

Mirzə Fətəlinin Manekci Sahibə məktubundan: "...Haqqtəaladan yalnız bunu xahiş edirəm ki, ölümümdən qabaq bi-

zim bir-birimizlə görüşməyimizə imkan versin. Amma bilmirəm, mənim bu arzum həyata keçəcək, ya yox? Axı mən qocalmışam, artıq 65 yaşım var. Saçım-saqqalım ağarıb, amma bədənimin taqətini və sağlamlığını hələ saxlamışam, gözlərim yaxşı görür". Axundov bu məktubda hələ on bir il yaşamaq arzusundadır. Çünki oğlu Rəşid on bir ildən sonra Brüsseldən qayıdacaq. Mirzə Fətəli mühəndis təhsili alıb gələn oğlu Rəşidə toy etmək istəyir. Məktubdan görünür ki, müəllifin ölümündən iki il əvvəl yazılmışdır. Bu kitabda belə maraqlı məktublar və məktublardan sətirlərə çox yer ayrılmışdır. Göründüyü kimi, misallarımızın hamısında müəllif Allah-təalaya üz tutur. Belə bir adamı ateist adlandırmaq nə dərəcədə düzgündür?!

Burada bir haşiyə çıxırıq. Bir dəfə Maştağada keçirilən Bakı şairlər yığıncağında söhbət "Şeirimizdə din və ürfan" adlı mövzu ətrafında gedirdi. Klassik şeirdən başlayıb, gəlib sovet dövrünə çıxdılar və bu dövrdə ürfanın unudulduğundan, şairlərin ateistliyindən söz saldılar.

Mədəniyyət evinin direktoru Ağanəbi Axundov dedi: "Qətrandan tutmuş Rəsul Rzaya kimi hamı Allaha inanıb... Azərbaycan ədəbiyyatında, məncə, allahsız sənətkar olmayıb. Bircə Axundovu deyə bilmərəm..." Onun qardaşı mərhum şairimiz Namiq Şəfai oğlu isə əlavə etdi: "Axundov da dinsiz olub, Allahsız olmayıb". Bu gün biz bu kitabı oxuyanda başa düşürük ki, Axundov heç dinsiz də olmayıb. Mirzə Fətəlinin Yusif xana yazdığı məktubunda aşağıdakı sətirləri oxuyuruq: "...Rəşid paşa Bugel və Reynanın kitablarını oxuduğundan fəlsəfi fikirləri məndən az bilmir. Fizika və yestestva elmlərini yaxşı bilir. Daim bu elmlərə dair məsələlərə aid dəlillərlə çıxış edir. Bu il Ramazan ayında oruc tutmuşdu. Bütün şərtlərə olduğu kimi riayət etdi. Mənə deyir ki, istəyirəm pak şiə müsəlmanı olam. Mən də ona mane ol-

muram. Gecələr namaz qılır və dualar edir. Çox gözəl tar da çalır. Musiqiyə həvəsi var...” Buradan görürük ki, Mirzə Fətəlinin dinə hörməti var. Eləcə də sovet dövründə ateist, dinsiz adlandırılan Mirzə Cəlillərin, Sabirlərin və s. milləti fanatizmdən uzaqlaşdırmaq cəhdləri həmişə dinsizlik, allahsızlıq kimi qələmə verilmişdir. Bizcə, sovet dövründə ateist damğası vurulmuş bütün sənətkarların yaradıcılığına bir də nəzər salmaq, həqiqəti üzə çıxarmaq lazımdır. Bu məsələdə arxivlərin açılması da bizə çox kömək edə bilər...

“Ədəbiyyat qəzeti”, 19.09.03.

✦✦✦

ƏLYAZMA KİTABI HAQQINDA...

Filologiya elmləri doktoru, professor Azadə xanım Musayeva AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun türk yazılı abidələri şöbəsinin müdürüdür. Ali məktəblərdə ümumtürk ədəbiyyatı, türk xalqlarının ədəbiyyatıı, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, folklor poetikası, Azərbaycan əlyazma kitabı, Azərbaycan mühacirət ədəbiyyatı və s. kurslardan mühazirə oxuyur. Bir çox doktorluq dissertasiyalarının elmi məsləhətçisi, namizədlik, magistr və buraxılış işlərinin rəhbəri, rəsmi apponenti, rəyçisidir. Dörd cildlik “Azərbaycanlı müəlliflərin əlyazmalarının toplu kataloqu”nun və bir sıra monoqrafiyaların müəllifidir. Bu yaxınlarda onun “Əlyazma kitabı və XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı: problemlər və araşdırmalar” adlı qiymətli bir monoqrafiyası işıq üzü görmüşdür. Azadə xanım həmin kitabı, elmi rəhbəri, Əlyazmalar İnstitutunun direktoru olmuş Cahangir Qəhrəmanovun 75 illik yubileyi münasibəti ilə, onun əziz xatirəsinə ithaf etmişdir.

Müəllif ön sözdə əlyazma kitabları haqqında danışaraq, onların mənəvi sərvətimizin nəsildən-nəslə keçərək, gəlib bu

günümüzə çatmasında böyük rol oynadığını qeyd edir. Monoqrafiyanın yazılma səbəbini, bir tədqiqatçı-alim kimi qarşısına qoyduğu məqsədi açıqlayır.

Kitabın birinci fəsli Azərbaycan əlyazma kitabının yaranması, yayılması və elmi təsnifatı ilə bağlı məsələlərdən bəhs edir. O, burada bir çox müəlliflərin əlyazmalarını təqdim edir, onların təsvirini verir və bir sıra tədqiqat işlərindən danışır. Azərbaycan əlyazmaçılığının inkişafında XV-XVI əsrlərdə yaranan əlyazmaların xüsusiyyətlərindən, katiblərin işindən, eyni zamanda yaranan əlyazmaların yayılmasından söz açaraq, konkret əlyazmaların təsvirini verir, institutda müxtəlif formatlarda, məlum şifrələr altında saxlanılan əlyazmaların elmi-poleoqrafik təsvirlərini və bədii tərtibatları haqqındakı bilgiləri oxucuya çatdırır. Azərbaycan ədəbiyyatının araşdırılmasında əlyazmaların əsas qaynaq olduğunu tədqiqat işlərində bu qaynaqların böyük rol oynadığını qeyd edən müəllif Əlyazmalar İnstitutunda hələ diqqətdən kənarda qalmış xeyli qiymətli əlyazma nümunələrinin olduğunu xüsusi vurğulayır.

İkinci fəsil XV-XVI əsrlərdə Türkiyədə yaranan Azərbaycan ədəbiyyatına həsr edilmişdir. Müəllif burada Azərbaycandan Türkiyəyə köçüb gedən və orada yaşayıb-yaradan sənətkarlardan və onların əlyazma əsərlərindən danışır. Burada Arifi, Hüseyn Çələbi, Bəsiri, Bidari, Səhabi, Qasimi (Şah Qasim), Şeyx Mahdumoğlu, Matəmi, Mir Qədəri, Pənahi Təbrizi, Süruri, Xəzani, Xəlifə, Hamidi, Hafiz, Niyazi, Haşimi, Həbibi, Şahi kimi sənətkarların həyat və yaradıcılığı haqqında mümkün qədər məlumat verir. Daha sonra Azərbaycan ədəbiyyatının təsiri ilə Türkiyədə yaranan yazılı abidələr haqqında söz açan müəllif oxuculara yeni əlyazmalar təqdim edir. Bu fəsildə Türkiyədə yaranan Azərbaycan yazılı abidələrinin tekstoloji-filoloji tədqiqi ilə bağlı

məlumatlar daha çox diqqəti cəlb edir.

Kitabın üçüncü fəslində Azərbaycanda yaranan Türkiyə yazılı abidələrindən söhbət açılır. Burada oxucu Aşıq Paşa, Kamal Ümmi, İsmayıl Qaramanlı, Mahmud ibn Osman Əli Lamei, Baqi Mahmud Əbdülbaqi, Dədə Ömər Rövşəni kimi sənətkarlarla tanış olur. Burada əlyazmaların qrafik xüsusiyyətindən, orfoqrafiyasından və digər mətnşünaslıq məsələlərindən bəhs edilir.

Dördüncü fəsildə Bağdadda yaranan Azərbaycan ədəbiyyatından bəhs edən müəllif, anadilli Azərbaycan yazılı abidələrinin üzərində dayanır. Bağdad ədəbi mühütündə yaşayıb yaradan Füzuli, Əhdi Bağdadi, Şəmsi Bağdadi, Hüsni Bağdadi, Rindi Bağdadi, Zöhdi Bağdadi, Zaeyi Bağdadi, Zeyni Bağdadi, Muradi Bağdadi, Fəzli Bağdadi, Elmi Bağdadi, Kəlayi Bağdadi, Həsiri, Zəmiri kimi sənətkarları bizə təqdim edir və onların həyat və yaradıcılığından söz açır.

Ruhi Bağdadinin yaradıcılığına daha geniş yer verilir, bir çox əlyazmaları araşdırılıb, tekstoloji müqayisələr aparılır, oxucuya təqdim edilir.

Kitabın çox zəngin ədəbiyyat göstəricisi vardır. Dörd yüzdən artıq əlyazma və çap kitabından istifadə edilməsi göstərir ki, müəllif bu əsər üzərində uzun illər çalışmış, ən mötəbər mənbələrə əsaslanan elmi fikirlərlə zəngin qiymətli bir monoqrafiya yazmışdır. Əsər mətnşünaslıqla bağlı fəaliyyət göstərən hər bir elmi işçi üçün, habelə ədəbiyyatşünaslar, dilçilər üçün çox faydalıdır.

"Ədalət" qəzeti, 11.03.03.

✦✦✦

TARİXİN AÇILMAMIŞ SƏHİFƏLƏRİ

Əlyazmalar İnstitutunun elmi əməkdaşı, filologiya elmləri namizədi Əli Məmmadbağıroğlu əski əlifbadan transliterasiya edib çapa hazırladığı kitabını mənə təqdim edəndə bir həmkar kimi çox sevindim. Vasif Quliyevin redagtorluğu ilə "Şuşa" nəşriyyatında çap olunmuş kitabda Mir Mohsün Həvvabın oğlu Mir İbrahim Ağamirzadənin şeirləri toplanmışdır. Müəllifin kitaba yazdığı ön sözdə şairin həyatı, ədəbi mühütü, yaradıcılığı haqqında dolğun məlumatlar verilmişdir. Kitabda Mir İbrahim ağa təkcə şair, dovrünün görkəmli şəxsiyyəti kimi təqdim edilmir, həm də ictimai xadim kimi onun xidmətləri gostərilmişdir. Əli müəllim bütün bunları sadəcə soz kimi verməmiş, arxiv materiallarından götürdüyü faktlara müraciət etmiş, bəzi vəsiqələri, şəhadətnamələri araşdırmış, şairin öz dövründə daşıdığı vəzifələri dəqiqləşdirmişdir. Müəllif M.M.Həvvabın təzkirəsində oğlu Mir İbrahim haqqında olan məlumatı da vermişdir. Buradan məlum olur ki, şair Qarabağın Şuşa şəhərində 1288-ci ildə (1871) anadan olmuşdur. 21 yaşında olarkən o artıq fars, rus və fransız dillərini bilirmiş, "Miriş" təxəllüsü ilə şeirlər yazırmış. Lakin müəllif tədqiqatları ilə belə qənaətə gəlmişdir ki, Mir İbrahim "Miriş" təxəllüsünü gənclik illərində işlətmiş, sonralar "Mir", "Mir Münir", "Mir İbrahim", "Mir Hatiq" kimi təxəllüslərdə şeir yazmışdır.

Kitabda şairin azərbaycanca və farsça qəzəlləri daha çox diqqəti cəlb edir. Onlarla şairin nəzirə yazdığı "Olmaz" rədifli Füzuli qəzəli onun da nəzərindən yayınmamış və bu işdə Mir İbrahim də öz qələmini sınamışdır:

Hədən ol mahü mehr üzlüm mənə bir ləhzə ram olmaz.
Heçün dərdü qəmi-hicrində bəs ömrüm tamam olmaz?

Gulə mail olan könlum gəzər şeydasifət hər yan,
Şikəstə bülbuli-zarə gülustanda günam olmaz.

Kitabda verilən qəzəllər müəllifin yazdığına görə Əlyazmalar İnstitutunda X-803 şifrəli, Nəvvabın 1898-ci ildə daşbasma üsulu ilə nəşr etdirdiyi kitabından götürülmüşdür. Şair buraya ozünün müxtəlif janrlarda yazdığı şeirləri ilə birgə oğlunun qəzəllərini də daxil etmişdir.

Şairin digər şeirləri isə B-2721/4346 şifrəsi altında saxlanılan əlyazma kitabından gotürülmüşdür.

Əli Məmmədbağıroğlunun tədqiqatlarından məlum olur ki, şair yaxşı kitab cildləməyi, fotoşəkil çəkməyi, poliqrafiya işlərini gözəl bilirmiş və atası Nəvvabın ən yaxın köməkçisi olmuşdur. Yuxarıdakı şeir parçasından da görünür ki, Həvvab 1903-cü ildə qiraətxana açmışdır, Mir İbrahim uzun illər həmin qiraətxana-kitabxanaya müdürlük etmişdir.

M.Nəvvabın səyi ilə qiraətxanaya o dövrdə çıxan müxtəlif jurnal və qəzetlər gətirilirmiş. "İqbal", "İrşad", "Molla Nəsrəddin", "Səda" və s. orqanlarla əlaqə, əməkdaşlıq Mir İbrahim ağanın yaradıcılığına böyük təsir göstərmişdir. Lakin bütün bunları yazan müəllif, şairin mətbuatda çap olunmuş şeirlərindən aşkara çıxanı olmadığını qeyd edir. Təkçə bir neçə şeirinin Həvvabın nəvəsi S.Ağayevanın arxivindən əldə ediddiyini bildirir.

Kitaba şairin Mirzə Məhəmməd Katiblə deyişməsi, rübailəri, növhələri də daxil edilmişdir. Kərbəla müsibətinə həsr olunmuş növhələrdə İmam Huseynin, Əli Əsqərin, Əli Əkbərin, Abbasın rəşadətindən, şəhadətindən, Zeynəbin sitəmindən, göz yaşlarından söz açılır. Bu növhələr göstərir

ki, şair dini ehkamları, islam tarixini çox gozəl bilirmiş.

Kitabın sonunda müəllif tarixi məlumatları gostərməyi də unutmamışdır. Burada M.Nəvvabın vəfat tarixi və onun vəfatı munasibətilə farsca yazılmış beş beytlik maddeyi-tarix də verilmişdir.

"Azərbaycan XXI əsr" qəzeti, 17.05.2000

✦✦✦

"KİTABİ-DƏDƏ QORQUD"UN BİBLİOQRAFİYASI

Azərbaycanın mədəniyyət tarixində xüsusi yeri və rolu olan ən qədim yazılı abidəmiz "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi ilə əlaqədar bir çox önəmli işlər görülmüş, dünya kitab mədəniyyəti tarixinə adı yazılan xeyli kitab çap olunmuşdur. Əlyazmalar İnstitutunun əməkdaşları da bu işdən kanara çəkilməmiş, öz əmali və zehni fəaliyyətlərinin məhsulu olan bir çox kitabları oxucuların ixtiyarına vermişlər. İnstitutun bu sahədəki xidmətlərindən biri də "Kitabi-Dədə Qorqud"un bibliorafiyası" kitabının işıq üzü görməsidir.

260 səhifə həcmində olan kitabın tərtibçisi və ön sözün müəllifi, tarix elmləri namizədi Aydın Xəlilov, elmi redaktoru filologiya elmləri namizədi Məmməd Adilov, rəyçisi filologiya elmləri dokturu Şamil Cəmşidovdur. Kitab institutun nəzdində olan "Ərnək" nəşriyyatında çap olunmuşdur.

Kitab müxtəlif bölmələri əhatə edir. Bölmələrdə "Kitabi-Dədə Qorqud" haqqında", "Kitabi-Dədə Qorqud" bədii ədəbiyyatda" mövzularına aid kitabların, məqalələrin tədbirlərdəki məruzə və çıxışların adları qeyd olunmuşdur.

Birinci bölmədə Azərbaycan dilində olan əsərlərin adı verilmişdir. Burada Samət Əlizadə, Tofiq Hacıyev, Şamil Cəmşidov, Məmməd Adilov, Möhsüm Nağısoylu, Həmid Araslı, Dəmirçizadə, Cavad Heyət və bir çox adlarını çəkə

bilmədiyimiz alimlərin əsərləri və Akademiyanın müxtəlif elm ocaqlarının kollektivləri tərəfindən hazırlanmış kitabların adı verilmişdir.

Sonrakı bölmələrdə türk, türkmən, qazax, özbək, qaraqalpaq, turkman, rus, alman, ingilis, italyan, fransız, fars, ukrayna, serb, litva, latış, polyak, gürcü və ərəb dillərində olan əsərlərin siyahısı verilmişdir.

Kitab Azərbaycan EA Əlyazmalar İnstitutunun elmi şurasının 10 dekabr 1999-cu il tarixli 13 nömrəli iclasının qərarı ilə çap olunmuşdur. Kitab bütün qorqudşünasların, daha doğrusu bütün filoloqların, habelə hər bir vətəndaşın stolüstü kitabı ola bilər. Kitab həm də Əlyazmalar İnstitutunun 50 illik yubileyinə həsr olunmuşdur.

"Azərbaycan XXI əsr" qəzeti, 07.03.2000

✦✦✦

MƏTNŞÜNASLIĞA DAİR QİYMƏTLİ KİTAB

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda minlərlə əlyazma saxlanılır. İnstitutun əməkdaşları bu əlyazmaları müasir əlifbaya çevirir, əlyazma ilə bağlı tədqiqatlar aparır və onları nəşrə hazırlayıb oxuculara çatdırırlar.

Kitab nəşrinə xüsusi diqqət yetirən Əlyazmalar İnstitutunun direktoru Məmməd Adilovun doktorluq işi ilə əlaqədar olan "Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri" adlı monoqrafiyası bu günlədə işıq üzü görüb. "Nurlan" nəşriyyatında çap edilən kitabın redaktoru Paşa Kərimov, xəttatı Müzafəddin Əzizov, rəyçiləri Azərbaycan MEA-nın müxbir üzvləri Vasim Məmmədəliyev və Ağamusa Axundovdur. Kitab bir neçə başlıq altında verilmiş

müxtəlif tədqiqat işlərini əhatə edir.

"Mətn" sərlövhəli hissədə tədqiqatçı-alim əlyazma, çap əsəri və s. haqqında danışır, müqəddəs kitab mətnlərilə yanaşı adi əsərlərə toxunur, qədim, orta əsr və yeni dövrdə yaranmış mətnlər haqqında fikirlərini söyləyir. "Yazı" adlı hissədə dil və yazıdan bəhs edən müəllif yazının növlərindən, heroqliflərin formalarından, Azərbaycan paleoqrafiyasının növlərindən bəhs etdikdən sonra; "Əlyazma" bölməsinə keçərək, "əlyazma" anlayışını qısaca da olsa, açıqlayır. "Paleoqraıfiya" bölməsində arxeologiyadan başlayaraq, arxeoqrafiyaya, nəhayət, paleoqrafıyaya gəlib çıxır və onun əsas məsələlərindən bəhs edir. "Əlyazma kitabı" bölümü daha maraqlıdır. Burada kitabın formal əlamətləri və növləri, kitabın quruluşu, kitabın içindəkilər haqqında geniş məlumat alırıq. "Yazı materialları" hissəsində əlyazmanın yazıldığı kağızlar, onların növləri, keyfiyyətləri, hansı ölkələrdən alınması, xəttatların istifadə etdikləri alət və s. haqqında maraqlı məlumatlarla tanış oluruq. "Filiqranlar" bölümündə əlyazmaların yazıldığı kağızlardakı nişanlardan söhbət gedir. "Müəllif' adlı hissədə əlyazma mətnlərinin müəlliflərindən, onların necə araşdırılıb dəqiqləşdirilməsindən, bəzi əlyazmalarda müəllifin adının özü tərəfindən yazılmasından, müəllifin adı olmadıqda, mətn daxilində müəyyən misralardan, müəmmalı cümlələrdən öyrənilməsi, eyni zamanda əsərlərin yazılma tarixinin dəqiqləşdirilməsi və s. məsələlər açıqlanır. "Katiblər" bölümündə isə avtoqraf olmayan mətnlərdən, daha doğrusu, katib nüsxələrindən bəhs edən, əlyazma nüsxələrində katiblərin əsəri köçürən zaman etdiyi dəyişikliklərdən, katib xətalarından, katibin dövrə görə etdiyi leksik, fonetik dəyişikliklərdən bəhs edən müəllif müxtəlif əlyazma əsərlərdən sitatlar gətirib oxucuya geniş məlumat

verib. "Xətlər" bölümündə isə müxtəlif əsrlərdə yaşayıb-yaradan xəttatların işindən danışan tədqiqatçı bir çox xətlər və onların növləri haqda söz açıb, bir çox əlyazma əsərlərindən nümunələr verib. Bu nümunələri institutumuzun əməkdaşı xəttat Müzafəddin Əzizov yazıb.

Kitab gənc mətnşünaslar və əlyazma kitabı ilə məşğul olan bütün tədqiqatçılar üçün zəngin və gərəkli mənbədir.

"Bizim əsr" qəzeti, 15.01.03.

✦✦✦

NƏSRƏDDİN TUSİNİN DÖRD ƏSƏRİ

Görkəmli Azərbaycan alimi Nəsirəddin Tusi elmin müxtəlif sahələrini əhatə edən onlarla qiymətli əsər yazaraq, dünyanın ən tanınmış elm xadimləri arasında özünə önəmli yer qazanıb. MEA Əlyazmalar İnstitutunda Tusinin ərəb və fars dillərində yazdığı xeyli əsəri saxlanılır. İnstitutumuzun əməkdaşları alimin yubileyi münasibətilə onlardan beşini dilimizə tərcümə ediblər. Əsərlərdən dördü artıq hazırdır.

Alimin "Başlanğıc və son" adlanan təzkirəsi Əmirşah Əmirəhmədovun tərcüməsində (redaktoru Məmməd Adilov, rəyçi Möhsün Nağısoylu) çap olunub. "Təzkirə", "Ağazü əncam" və "Məbdə və məad" adları ilə tanınan bu əsərin mətni ərəb və fars dillərində yazılıb. Əsər giriş və iyirmi fəsildən ibarətdir. Giriş "Qur'ani-Kərim"in "Ali-İmran" surəsinin iki ayəsi ilə başlayır. Müəllif sonra böyük yaradanı alqışlayır, əsərın yazılma səbəblərini bildirir, bəzi ayələri misai göstərir, nəhayət, əsərin fəsillərini sadalayır.

Əsər boyu axirətdən, onun yolçularından, bu yolçuluğu qəbul edənlərin qazancından, bu yolçuluqdan imtina edənlərin ziyanlarından, ilk yaradılışdan başlayaraq, sona qədər keçilən yoldan, Qədir gecəsi, Qiyamət günü və s.

haqqında məlumat verən müəllif, həm bu dünyanın, həm də o dünyanın varlığından söz açaraq, hər iki dünyada insanların tutduqları mövqeləri göstərir. Burada məkan və zaman, cənnət və cəhənnəm anlayışlarını açıqlayan müəllif həşir zamanı, qiyamət günü, sirat körpüsü, əməl dəftərləri, o dünyada haqq-hesab çəkilməsi, surun çalınması, göylərin aralanması, cənnət və cəhənnəmdəki mələklər, hurilər, huri gözlülər, habelə Allahın ədaləti, qəhri, mükafatı və cəzası haqqında öz fikirlərini bildirir və hər addımda Qur'an ayələrinə istinad edir.

Əsər müasir dövrdə insanların dini biliklərinin artırılması baxımından dəyərlidir. Bu əsərə müraciətinin səbəbini açıqlayan tərcüməçi Füzulinin "Mətləül-etiqad" əsəri ilə bağlı tədqiqat apardığını və digər müəlliflərin bu məsələyə necə yanaşdıqlarını öyrənmək istədiyini bildirir.

Tusinin "Adabül-Mütəəllimin" ("Tələbəlik mədəniyyəti") adlı əsəri Kamandar Şərifovun tərcüməsində Məmməd Adilovun redaktorluğu ilə çap olunub. Adından göründüyü kimi tələbə mədəniyyətindən, tələbə davranışından bəhs edən əsər fars dilində yazılıb, giriş və on iki fəsildən ibarət-dir. Burada elmin mahiyyəti və fəziləti, müəllimin, tələbə yoldaşların seçilməsi, ciddilik və çalışqanlıq, dərsin tərtibatı, həcmi, təhsilin müddəti, təhsildə dindarlıq haqqında müəy-yən bilgilər verilir. Şəfqət, nəsihət, elmdən faydalanmaq, təvəkkül, yaddaş, yaddaşsızlığı yaradan amillər, ruzi gətirən, ruzini artıran, ömrü uzadan və qısaldan amillər haqqında söhbət açılır. Əsər o dövrdə mədrəsələrdə və digər təlim ocaqlarında oxuyanlar üçün yazılsa da, bu gün də məktəb-lilərin və tələbələrin təlim və tərbiyəsində lazımlı vəsaitdir. Əsərdə tibbi-dini-ədəbi baxışlar vəhdət təşkil edir. Elm öyrənməyin faydalı yollarını göstərən müəllif tələbəni bu

vəhdətdə təlim-tərbiyə etməyə çaiışır. Alimin yubileyi ərəfəsində tədqiqatçı-alimin bu əsərə müraciət etməsi olduqca təqdirəlayiqdir.

Müəllifın "Si fəsl" ("Otuz fəsil") adlı əsərini fars dilindən əməkdaşımız Kamal Abdullayev tərcümə edib. Kitabın redaktoru Məmməd Adilov, xəttatı Hacı Müzafəddin Əzizovdur. Adından göründüyü kimi otuz fəsildən ibarət olan kitabda bizə tanış olmayan xeyli məlumatla rastlaşırıq: əbcəd hesabı, həftənin günləri və işarələri, ərəb təqvimi, rum təqvimi, fars təqvimi, Məliki təqvimi, yeddi planet və onların fələkləri, bürclər, göy qatı, ay, günəş, ulduzlar və onların xüsusiyyətləri, üçlüklər, planetlər və onların xalqın müxtəlif təbəqələrini himayə etməsi və s.

Bu əsər sovet dövründə cap olunsaydı, yəqin ki, fıkirlərdə qarışıqlıq yaradardı. Amma bu günün oxucuları astrologiya elmilə kifayət qədər tanış olduqlarından əsər heç kimdə təəccüb doğurmayacaq. Lakin Tusinin bu kitabında bizim üçün yeni olan məlumatlar da vardır. Eyni zamanda bəzi bildiyimiz məlumatların dəqiqləşdirilməsi, səhv bilgilərin düzəldilməsi baxımından da kitab çox önəmlidir.

Nəsirəddin Tusinin "Övsafül-əşraf' ("Şərafət sahiblərinin vəsfi") adlı əsəri institutumuzun əməkdaşı Rauf Şeyxzamanlının tərcüməsində Nəsib Göyüşov və Müqəddəs Payızovun redaktorluğu ilə çap olunub. Fars dilində olan əsər girişdən və beş babdan (hissədən) ibarətdir ki, hər bab da öz növbəsində bir neçə fəslə bölünür. Girişdə təbii olaraq müəllif Tanrıya şükürlər edir və əsərin yazılma səbəbini açıqlayır.

Birinci babda inam, səbat, niyyət, sidq, inayət və ixlas, ikinci babda tövbə, zöhd, fəqr, riyazət, müraqibət, mühasibat, təqva, üçüncü babda xəlvət, təfəkkür, xof və hüzn, rica, səbr, şükr, dördüncü babda ibadət, şövq, məhəbbət, mərifət, yəqin,

sükun, beşinci babda təvəkkül, riza, təslim, tövhid, ittihad, vəhdət haqqında məlumat verilir. Başqa əsərlərə nisbətən Tusinin bu əsərinin tərcüməsinin daha çətin olduğu faktdır. Digər tərcümə əsərlərində verilmiş məlumatlara biz bəzi dini və tarixi kitablarda rast gəlmişik. Amma "Övsafül-əşraf əsərindəki məlumatlar bu gün klassik şeir tədqiqatçıları üçün olduqca əhəmiyyətlidir. Bəzən tədqiqatçılar bu bilgilərdən xəbərsiz olduqlarından araşdırmalarında bir çox səhvlərə yol verirlər. Buna ən çox da Füzuli ilə bağlı tədqiqatlarda rast gəlinir. Bu baxımdan, bu gün Tusinin belə bir əsərinin tərcümə olunub oxucu kütləsinə çatdırılmasını alimin yubileyi ərəfəsində olduqca uğurlu bir iş hesab etmək olar.

Əlyazmalar İnstitutunda hazırlanan, elmi şuranın qərarı ilə çap olunan əsərlərin hər birinin həm tədqiqatçılar, həm də geniş oxucu kütləsi üçün dəyərli olacağına inanırıq.

"Bizim əsr" qəzeti, 10.01.03.

✦✦✦

"SABİR YARADICILIĞININ ƏSASİ NÖQTƏLƏRİ"

Hələ sağlığında yaradıcılığına böyük maraq olan Mirzə Əliəkbər Sabir haqqında onlarla kitab və yüzlərlə məqalə yazılmışdır. Müxtəlif illərdə nəşr olunmuş "Hophopnamə" daim diqqət mərkəzində olmuş, onun işığında onlarla sabirşünas yetişmişdir.

Sabir yaradıcılığı haqqında çap olunmuş yeni kitab "Sabir yaradıcılığının əsas nöqtələri" adlanır. Uzun müddət BDU-da rus dili kafedrasının müdürü vəzifəsində çalışmış A.Lukyanovanın, "Hophopnamə"nin 1922-ci ii nəşrinə əsasən yazdığı bu tədqiqat əsəri 1923-cü ildə universitetin (Azərbaycan Hökumət Darülfununun) mətbəəsində çap edilmişdir.

Kitabın əvvəlində Əbdülxaliq Rağibin kiçik qeydi vardır: "Bəllidir ki, bu vaxta qədər Sabiri camaatımıza tanıda bilən və yazdıqlarını təhlil və əsl məal və amalını layiqincə bildirən bir əsər meydanda olmamışdır və yoxdur. Halbuki bu əsər camaatımıza yuxarıda göstərilən məqsədə yaxınlaşdırıcı ilk addım və ən birinci vasitə ola bilər.

Ona görə də "Sabir yaradıcılığının əsasi nöqtələri" sərlövhəli bu əsər tərtib edilib ortalığa çıxarılırsa, hər halda faydalı olacaqdır".

Bu “Təriz"dən sonra kitabda Əhməd Cövdətin "Bakı, 13 iyul, 1923" tarixli "Müqəddimədən əvvəl" adlı yazısı verilmişdir. Daha sonra Lukyanovanın özünün "6 mayis, Bakı" tarixli "Müqəddimə"si və əsərin mətni gəlir.

Tədqiqat işindəki çıxarışlardan görünür ki, müəllif ancaq bir mənbədən, yəni "Hophopnamə"nin 1923-cü il üçüncü nəşrindən istifadə etmişdir. Bu da onu göstərir ki, o zamana kimi Sabir yaradıcılığı haqqında bir məqalə belə yazılmamışdır. Müəllif müqəddimədə buna işarə edərək, Sabiri tədqiq etmək istəyən tədqiqatçının müşkül bir məsələ qarşısında qaldığını qeyd edir və bunun səbəblərini belə açıqlayır: "Əvvəla, bizdə Sabirin əsərinin fənni cəhətini göstərən bir əsər yoxdur ki, onunla şairin yaradıcılığı izah oluna bilsin. İkincisi, Sabirin tam və ətraflı bir tərcümeyi-halı yoxdur. Üçüncü, tərcümeyi-halının müəyyən edilməsi üçün material olmaq üzrə onun yaxınlarına yazdığı məktubları və ona yaxın olanların xatiratı belə toplanmamışdır".

Tədqiqat işindən görünür ki, istifadə edilmiş nəşrdə bəzi əsərlər vardır ki, "Hophopnamə"nin son nəşrlərinə düşməmişdir. Məsələn:

Lakin bu yamandır ki, iki məzhəbə rəğmən,
Bir məsələ üstündə də güftar olacaqdır.

Sünnilik ilə şiəliyi qaldıracaqlar,
İslama yetib rəxnə xələldar olacaqdır.
Ancaq yavan islam adı təkrar olacaqdır.

Misalların sayını artırmaq istəmirik, sadəcə onu qeyd etmək istərdik ki, yaradıcılığına bu günün baxışıyla bir də baxılmasını tələb edən Sabir şəxsiyyətini bir qədər də dəqiq açıqlamaq üçün şairin islam dini ilə bağlı əsərlərinin axtarılıb tapılması və tədqiq olunması da vacib məsələlərdəndir.

Böyük Sabirin 140 illik yubileyinə öz münasibətini bildirən Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu A.Lukyanovanın bu kitabını yenidən çap etdirmişdir. Əsəri institutumuzun əməkdaşı, tarix elmləri namizədi Tahirə xanım Həsənzadə əski əlifbadan çevirib nəşrə hazırlamış və kitabın sonunda oxucu üçün anlaşılmaz olan sözlərin lüğətini də tərtib etmişdir.

Kitab Sabir haqqında tədqiqat əsəri kimi bu gün də öz dəyərini saxlayır və sabirsevərlərə gözəl hədiyyədir.

"Azərbaycan XXI əsr" qəzeti, 19.06.02.

✦✦✦

SADİQ BƏY SADİQİ KİMDİR

XVI əsrin sonu XVII əsrin əvvəllərində yaşayıb-yaradan, elm və mədəniyyət tariximizdə alim, rəssam və şair kimi özünəməxsus yer tutan Sadiq bəy Sadiqinin Yaxın Şərq xalqlarının mədəni-ədəbi əlaqələrinin öyrənilməsində böyük xidmətləri olmuşdur. İstər müasirləri, istərsə də sonrakı dövrlərin alimləri Sadiq bəy Sadiqinin elmi və bədii əsərləri üzərində tədqiqatlar aparmış, onun rəssamlıq sənəti ilə bağlı layiqli fikirlər söyləmişlər.

Bu yaxınlarda Məhəmməd Fuzuli adına Əlyazmalar İnstitutunun elmi əməkdaşı Məntiqə Muradovanın uzun

illərin gərgin əməyinin bəhrəsi olan "Sadiq bəy Sadiqinin həyat və yaradıcılığı" adlı kitabı "Elm" nəşriyyatı tərəfindən çapdan buraxılmışdır. Müəllif burada Sadiqinin ədəbi irsinin tədqiqi tarixindən bəhs etmiş, həm elmi, həm də bədii yaradıcılığı haqqında geniş məlumat vermişdir.

Müəllif Sadiq bəyin irsinin tədqiqi tarixindən danışarkən İskəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi", Qazi Əhməd Quminin "Gülüstani-Hünər", Mirzə Məhəmməd Tahirin "Təzkireyi-Həsrəbadi", Əli İbrahim xan Xəlilinin "Sühufi-İbrahim", Lütfəli bəy Azərin "Atəşkədeyi-Azər", Seyid Mühəmməd Sadiqin "Şəm"i-əncümən", Şəmsəddin Saminin Qamüsül-əlam", Məhəmməd Əli Tərbiyətin "Daneşməndani-Azərbaycan", Məhəmməd Əli Təbrizinin "Reyhanətül-ədəb" adlı əsərlərindən Sadiq bəy Sadiqi haqqında olan məlumatlardan sitatlar gətirmiş, onları müqayisə etmiş, alimlərin fikirlərinə öz münasibətini bildirmişdir. Eyni zamanda Həsrulla Fəlsəfinin, Zəbihulla Səfanın, İsmayıl Hikmətin, Salman Mümtazın, Fuad Köprülüzadənin və b. Sadiq bəy haqqında tədqiqat apardığını qeyd etmişdir.

Müəllif Sadiq bəyin həyatı və ədəbi mühütündən danışarkən onun Xudabəndəlü adı ilə məşhur olan turk-əfşar tayfalarından olduğunu qeyd edərək, onun öz sözlərinə istinad etmişdir. Məntiqə xanım Sadiq bəyin 20 yaşında atasını itirdiyini, ata malının vərəsələr arasında bölüşdürülməsində edilən haqsızlıqdan inciyib baş götürüb Vətəndən getdiyini, dərviş həyatı keçirdiyini, min bir əziyyətlə, məhrumiyyətlə qarşılaşdığını, sonralar Əmir xan Mosullunun köməyilə dərvişlikdən dönüb yeni həyata qədəm qoyduğunu, bir müddət İsgəndər xanın və Bədir xan Əfşarın yanında xidmət etdiyini və nəhayət Şah Abbasın kitabdarı vəzifəsinə təyin olunduğunu göstərir.

Müəllif Sadiq bəyin bir rəssam kimi də tədqiq edildiyini, alimlərin onun sənətini yüksək qiymətləndirdiklərini, onu "əvəzsiz müsəvvir", "iti qələmli rəssam", "misilsiz tərrah" və s. adlandırdıqlarını qeyd etmiş, alimlərin fikirlərindən sitatlar gətirmişdir.

Kitabın əsas hissəsi isə Sadiq bəyin elmi və bədii yaradıcılığına həsr edilmişdir. Məntiqə xanım onun "Məcməül-xəvas", "Qanunüs-süvər" adlı elmi əsərləri üzərində geniş dayanaraq, onun elmi tədqiqatlarından və rəssamlıq sənətilə bağlı fikirlərindən sitatlar göstərmiş, əsərlərin mədəniyyət tariximiz üçün dəyərindən danışmışdır. Müəllif Sadiqinin lirikasını təhlil edərək, onda məhəbbət mövzusunu, ictimai motivləri, əsərlərin bədii xüsusiyyətlərini ön sıraya çəkmiş, başqa şairlərin yazdığı təzmin, nəzirə və müəmmalardan danışmışdır. “Sadiqinin epik şeiri və nəsri” bölməsində isə "Fəthnameyi-Abbasi-namdar" əsəri, nəsihətnamələri, mənzum hekayətləri, məktubları və "Risaleyi-Həziyyat"ı tədqiq edilmiş, onların ideya-bədii xususiyyətlərindən söhbət açılmışdır.

Ədəbiyyat, elm və mədəniyyət tariximizdə görkəmli yer tutan şair, alim, rəssam və musiqişünas kimi tanınan Sadiq bəy Sadiqinin həyat və yaradıcılığını əks etdirən, oxuculara əhatəli məlumat verən bu əsər qədirbilən ziyalılara böyük töhfədir.

“Yeni Azərbaycan” qəzeti, 03.04.99

✦✦✦

FÜZULİ QƏZƏLİ VƏ TƏHRİFLƏR

Öz dövründə Azərbaycan dilinin bütün imkanlarından yüksək sənətkarlıqla istifadə edib dərin məzmunlu əsərlər yaradan dahi Füzuli bu gün də hamının diqqət mərkəzindədir. Alim də, fəhlə də, kəndli də Füzuli sənətinin

sehrindən qaça bilmir. Odur ki, Füzuli sözünün batini mənasını hamıya anlatmaq üçün qəzəllərinin şərhinə ehtiyac vardır. Beş yüz ildir ki, Füzuli qəzəli şərh olunur. Onu hərə öz səviyyəsində mənalandırır. Elə indinin özündə də ədəbiyyatçılar şairin qəzəllərini müxtəlif cür şərh edirlər. Şərhlər zamanı şairin sözü çox vaxt təhrif olunur ki, bunun da müxtəlif səbəbləri vardır. Bəzi şərhçilər klassik şeiri, şərq fəlsəfəsini, Qurani-kərimi, islam dininin əsaslarını bilmədiyindən Füzuli sozünün batini mənasını düzgün aça bilmirlər. Bəziləri tarixi qrammatitkanı bilmədiyindən arxaikləşmiş sözləri bu dövrdə dilimizdəki sinonimlər ilə qarışdırır və nəticədə beytin açılışında tamam başqa bir məzmun alınır. Bəzi şərhçilər isə Füzuli qəzəlini düzgün şərh edirlər, lakin mətndə gedən xətalar onları çaşdırır. Bu günə qədər dahi şairimizin əsərləri dəfələrlə çap olunmuşdur. Lakin istər tam külliyyatda, istərsə də seçilmiş qəzəllər toplusunda katiblərin nüsxə fərqlərindəki səhvləri və tərtibçilərin mətndəki sözləri düzgün oxuya bilməməsi üzündən çoxlu səhvlər getmişdir ki, onlar da həmişə şərhçilərin işinə maneçilik törətmişdir. İndi isə artıq bu maneələr aradan qaldırılmış, Azərbaycan EA Əlyazmaları İnstitutunun elmi işçisi, hamının füzuli-şünas alim kimi tanıdığı Hacı Mail Füzuli "Divan"ının elmi-tənqidi mətnini tərtib etmiş, şairin yubileyi münasibəti ilə bu yaxınlarda həmin əsər "Göytürk" nəşriyyatı tərəfindən çap olunmuşdur. Elmi-tənqidi mətni oxuyarkən əvvəlki mətnlərdəki qaranlıq qalan mənalar açıqlanır və qəzəllərin şərhi asanlaşır. Füzuli şerində ən çox izafət birləşmələri ilə bağlı səhvlər getmişdir. Bəzi yerlərdə izafət birləşmələri pozulmuş, bəzən isə əksinə süni şəkildə yaradılmışdır. Məsələn, əvvəlki mətnlərdə:

Dəftəri-əmalımın xətti xətadəndir siyah.
Qan tökər çeşmim, xəyal etdikcə hovli-məhşəri.

Hacı Mailin tərtib etdiyi mətndə isə düzgün oxunuş verilmişdir: “Dəftəri əmalımın xətti-xətadəndir siyah”. Mətndə "dəftəri" sözünün sonunda "yey" hərfi işlənir. İzafət birləşməsində isə sözün sonunda "yey", yəni (i) hərfi olmur. Burada "xət" sözünün sonunda "yey" hərfi yoxdur, ona görə də tərtibçi çox duzgün olaraq onu "xətti-xətadən" izafəti şəklində vermişdir. Bir tərəfdən baxanda tərtibçiləri də qınamaq olmur. Çünki Füzuli, Azərbaycan dilinin bütün söz formalarından istifadə etmiş, eyni bir sözü müxtəlif mənalarda, həmçinin eyni bir hərfi müxtəlif səslər verən sozlər vasitəsilə işlətmişdir ki, bu da tərtibçiləri çox zaman çaşdırmışdır. Məsələn, "dəva" sözunün sonunda əlif əvəzinə "yey" hərfi işlənir ki, bəzi tərtibçilər onu "dəvi" kimi oxuyurlar. Bu misalların sayını artırmaq da olar. Ona görə də Füzuli sözünə hörmət etməyi bacaran alim təkçə ədəbiyyatçı deyil, həm də dilçi olmalı, eyni zamanda fəlsəfi elmləri mükəmməl bilməlidir.

“Şəhriyar” qəzeti, 17.04.97.

SONA XƏYALIN QISA TƏRCÜMEYİ-HALI

Sonaxanım Həmid qızı Hadiyeva 1961-ci il iyunun 19-da Bakının Maştağa qəsəbəsində anadan olub. 1976-cı ildə 255 saylı səkkizillik məktəbi, 1978-ci ildə 187 saylı orta məktəbi bitirib.

1981-ci ildə Bakı 1 saylı Tibb Məktəbinin mamalıq şöbəsini, 1991-ci ildə BDU-nun biologiya fakültəsini bitirmiş, 1986-88-ci illərdə İxtiraçılıq İnstitutunda, 1995-1999-cu illərdə Elmi-Tədqiqat Əkinçilik İnstitutunun aspiranturasında (qiyabi) təhsil almışdır.

Tibb məktəbində oxuyarkən, 1979-cu ilin sentyabrında 7 saylı Birləşmiş Şəhər Xəstəxanasının laboratoriya şöbəsinə işə qəbul edilmişdir. Tibb Məktəbini bitirdikdən sonra xəstəxananın cərrahiyyə şöbəsinə tibb bacısı vəzifəsinə keçirilmiş və altı aylıq anesteziya və reanimatologiya kursuna göndərilmişdir. Bir müddət cərrahiyyə şöbəsində çalışmış, yenidən laboratoriya şöbəsinə böyük laborant vəzifəsinə keçirilmişdir. Kliniki, biokimyəvi, seroloji laboratoriya kurslarında təkmilləşmişdir. Qiyabi təhsil aldıqdan sonra bir il laboratoriya həkimi işləmiş sonra həmin laboratoriyaya müdir vəzifəsinə təyin olunmuş və beş il bu vəzifədə çalışmışdır. İki il tədris-istehsalat kombinatında IX-X siniflərə tibb bacısı kursunu tədris etmiş və daha sonra Maştağa Mədəniyyət Evindəki ikillik tibb kursunu aparmışdır. Xəstəxanada işlədiyi on yeddi il ərzində dəfələrlə müdiriyyətin, rayon səhiyyə şöbəsinin, rayon icraiyyə komitəsinin və rayon komsomol komitəsinin fəxri fərmanları ilə təltif

edilmişdir. Beş il xəstəxana komsomol təşkilatının katibi, daha sonra həmkarlar təşkilatının sədri vəzifələrində çalışmışdır. İşlədiyi müddətdə bir sıra qəzet və jurnallarda elmi-publisistik, tibbi-bioloji yazıları, habelə elmi hekayələri çap olunmuşdur. Hal-hazırda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır, elm tarixi ilə məşğuldur.

* * *

Qarabağ münaqişəsi başlandıqda hərəkata qoşulmuş, bir sıra qadın təşkilatlarında qaçqınlarla iş aparmış, bir sıra yardımların təşkilində iştirak etmiş, dəfələrlə cəbhə bölgələrinə getmiş, qaynar nöqtələrdə belə, əsgərlərlə görüşmüş, bir müddət könüllü hərbi qospitalda laboratoriya həkimi kimi çalışmışdır. Həmin müddətdə müxtəlif qəzetlərdə vətənpərvərlik mövzusunda onlarla publisistik məqalələri çap olunmuş, «Maştağadan Qarabağa bir yol vardı gedərgəlməz» adlı kitabını yazmışdır. 1992-ci ildə ikillik Jurnalist Sənətkarlığı İnstitutunu bitirmiş və 1993-cü ildə Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olunmuşdur. Maştağa Mədəniyyət Eivndə Gənc jurnalistlər dərnəyi təşkil etmiş və onun rəhbəri olmuşdur. «Murovdağ», «Paklıq» və «Vətən həsrəti» qəzetlərində müxbir işləmişdir. Sonralar “Respublika” qəzetinin əməkdaşı olmuşdur. 2008-2009-cu illərdə “Yazıçı qadın” jurnalının baş redaktor müaini olmuş, hal-hazırda «Paklıq» qəzetinin baş redaktorudur.

* * *

Sona Xəyal 12 yaşından şeir, 14 yaşından hekayə yazmağa başlayıb. 1987-ci ildə Maştağa Mədəniyyət Evində Novruz Gəncəlinin təşkil etdiyi Səməd Vurğun poeziya

klubunun üzvü olub və həmin il «Azərbaycan gəncləri» qəzetində Novruz Gəncəlinin «Yaradıcılıq iradə tələb edir» adlı «Uğurlu yolu» ilə birlikdə ilk şeiri dərc olunub.

1993-cü ildə «Aç qapını gəlim, dünya» adlı ilk şeirlər kitabı çap olunub. Həmin il Maştağa Mədəniyyət Evində «Maştağa şairlər məclisi»ni təşkil edib, məclisin sədri olub. 1994-cü ildə «Məcməüşşüəra» ədəbi məclisinin üzvü olub və elə həmin ilin dekabrında Hacı Maillə birlikdə «Füzuli ədəbi məclisi»ni təşkil edib, məclisin katibi olub. 1995-ci ildə Füzuli məclisinin nəzdində Maştağa qəsəbəsində «Şəfai», Bakıxanov qəsəbəsində «Qüdsi» və I Zabrat qəsəbəsində «Vahid» ədəbi məclislərini təşkil edib. 1996-cı ildə Məhəməd Füzuli adına Əlyazmalar İnstitutuna işə qəbul olunub və XIX əsrin dəyərli şairlərindən «Mirzə Əbdülxaliq Yusifin həyat və yaradıcılığı» mövzusunda namizədlik işi yazıb. Sonralar II Zabrat qəsəbəsində Mədəniyyət Evində «Yusif» ədəbi məclisini təşkil edib və ona rəhbərlik edib. Hacı Mailin vəfatından sonra Füzuli ədəbi məclisini bərpa edib. Amma məclis davam etməyib. 2000-ci ildə ustadına verdiyi sözə əməl edərək «Divan» bağlayıb. 2005-ci ildə həmin divandan seçilmiş 101 qəzəl daxil edilmiş «Qəzəllər» kitabı nəşr olub. Nəhayət: Maştağada «Bakı şairlər məclisi»ni yaradıb, əruz vəznli şeirin inkişafı üçün bakılı şairləri bir araya gətirmək istəyib, yenə alınmayıb, bir müddətdən sonra məclis dağılıb. Bütün bunlardan sonra məclislərdən yığışıb. Əlyazmalar İnstitutunda ciddi tədqiqat işi ilə məşğul olmağa başlayıb. Bir-birinin ardınca bakılı şairlərin şeir kitablarını nəşrə hazırlayıb və klassik şeirlə bağlı iyirmiyə yaxın təlif və tərtib kitabları nəşr olunub. Qəzet və jurnallarda, eləcə də konfrans materiallarında klassik şeirlə bağlı iki yüzdən artıq məqaləsi çap olunub.

* * *

1993-98-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində axşam, 2004-06-cı illərdə Bakı Slavyan Universitetinin magistiraturasında qiyabi təhsil alıb, 1997-98-ci dərs ilində 255 saylı orta məktəbdə biologiya və dil-ədəbiyyat fənlərini tədris edib.

1998-ci ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilib. Yazıçıların XI qurultayına nümayəndə, qurultaydan sonrakı plenumda Yazıçılar Birliyinin «İrs» komissiyasının sədri seçilib. Altı il müasir ədəbiyyatın tədqiqi ilə məşğul olub və «Müasirlərim» seriyasından iyirmidən artıq monoqrafiya yazıb. Yaradıcılığı bir sıra mükafat və diplomlarla qiymətləndirilib. Dövri mətbuatda çağdaş yazıçılar haqqında məqalələrlə çıxış edib. «İrs» komissiyasının işi kimi dünyasını dəyişmiş şairlərlə bağlı xatirə kitabları və «Yüzilliklər» silsiləsindən toplular üzərində çalışır.

2003-cü ildə Akademiyada qadın alimləri birləşdirən və onların elmi fəaliyyətinin tədqiqi və təbliği ilə məşğul olan «Nigar» elmi-ədəbi məclisini yaradıb, hal-hazıra qədər onun sədridir. 2009-cu ildə «Gənc qələm» ədəbi birliyini yaratmışdır. 2011-ci ildə “Ziyalı qadınlar məclisi”ni yaradıb, onun sədridir.

MÜNDƏRİCAT

60 yaşlı xəzinə.....3
“Kitabları qoruyaq”.....7
“Azərbaycan paleoqrafiyası” 10
“Kifayeyi-mənsuriyyə” 17
“Mirzə İsmayil Qasir”.....20
“Yazılı abidələrin tədqiqi” 24
“Müalicati-münfəridə” 33
Iki dəyərli kitab 37
“Kitabün-nəsayeh”.....43
“Məcməül-xəvas”.....44
Ötən ilin son nəşrlərindən 46
"Klassik şeir həvəskarları üçün XVII əsr Azərbaycan lirikası” 48
Əlyazmalar Institutunun yeni nəşrlərindən 51
"Əski çap kitabları kataloqu” (I – II cildlər) 54
“Hədisi-ərbəin”in tərcüməsi” 56
Əmirşah Səbzəvarinin “Divan”ı.....58
“Ərəbdilli əlyazmalar kataloqu” 60
Yeni tərcümələr.....60
Əlyazmalar İnstitutunda 63
Tariximiz əlyazmalarda.....65
Əlyazmalar xəzinəsindən 67
“Divan”lar 69
Arxivlər təqdim olunur 72
“İbn Xəldun və başqalari”.....77
Dünənçün məşhur, bugünçün yeni imzalar.....81
Süleyman Çələbinin “Vəsilətün-nicat” əsəri.....84
"Azərbaycanda memuar ədəbiyyatının tarixi” 87

Fransız və holland səyyahları.....91
“Əlyazma kolleksiyaları kataloqu” 93
Qarşımda üç kitab var 95
"Gözəllər sərvəti”.....97
“Rəşid bəy Axundov”*(məktublar, sənədlər, tərcümələr, məqalələr)* 99
Əlyazma kitabı haqqında... 104
Tarixin açılmamış səhifələri.....107
“Kitabi-Dədə Qorqud”un biblioqrafiyası” 109
Mətnşünaslığa dair qiymətli kitab.....110
Nəsrəddin Tusinin dörd əsəri 112
“Sabir yaradıcılığının əsasi nöqtələri” 115
Sadiq bəy Sadiqi kimdir.....117
Füzuli qəzəli və təhriflər 119
Sona Xəyalın qısa tərcümeyi-hali 122

S o n a X ə y a l

Altmış yaşlı xəzinədən altmış kitab

Naşir: Rafiq Xan-Sayadoğlu
Texniki redaktor: Ülvi Arif
Dizaynerlər: Ceyhun Əliyev, İradə Əhmədova
Korrektor: Nisə Azikqızı
Operator: Rübabə Vəliyeva

Yığılmağa verilmişdir: 10.10.2010
Çapa imzalanmışdır: 04.11.2011
Tiraj: 300 ş.ç.v. 8
“MBM” mətbəssində çap edilmişdir.